RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 199 (9944) 18 sentyabr 2025-ci il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





# Qlobal dialoqlar məkanı

## Qarabağ və Şərqi Zəngəzur ali görüşlərin ünvanına çevrilib

Son 5 ilə yaxın müddətdə Qarabağ və Şərqi Zəngəzurda inşa edilən sosial-iqtisadi infrastrukturlar beynəlxalq şirkətlərin, böyük dövlətlərin də marağına səbəb olub. Təkcə Füzuli, Zəngilan və Laçın Beynəlxalq Hava limanlarının istifadəyə verilməsi, Qarabağın beynəlxalq tədbirlər üçün hazırlığını tamamlayan mühüm addımlar arasında yer alır. Bu hava limanları yalnız sərnişin daşınmasını asanlaşdırmaqla kifayətlənmir, həm də regionun qlobal iqtisadiyyatla inteqrasiyasına, xarici investisiyaların cəlb edilməsinə və beynəlxalq səviyyədə əməkdaşlıq üçün yeni yollar açılmasına xidmət edir.

Azərbaycanın regionda həyata keçirdiyi bərpa işləri təkcə fiziki infrastrukturu deyil, həm də beynəlxalq diplomatiya və təhlükəsizlik sahələrindəki mövqeyini möhkəmləndirir. Qarabağda keçirilən beynəlxalq forumlar bu istiqamətdə - atılan mühüm addımlardan biridir. Bu cür tədbirlər Qarabağda yalnız iqtisadi inkişafı deyil, həm də regional və beynəlxalq əməkdaşlıq mühitinin formalaşmasına yardımçı olur.

Azərbaycanın diplomatik fəallığı Qarabağ və Şərqi Zəngəzurun beynəlxalq səhnədə tanınması və beynəlxalq münasibətlərdəki mövqeyinin möhkəmləndirilməsi məqsədinə xidmət edir. Xarici dövlətlərin diplomatik nümayəndələri, beynəlxalq təşkilatların rəhbərləri və ekspertlər mütəmadi olaraq işğaldan azad edilən ərazilərə səfərlər edərək, burada həyata keçirilən bərpa və inkişaf layihələri ilə tanış olurlar.

Azərbaycanın xarici siyasətinin prioritetlərindən biri də Qarabağ və Şərqi Zəngəzurun beynəlxalq aləmdə tanınması və buradakı inkişaf proseslərinə beynəlxalq dəstəyin təmin edilməsidir. Bu siyasət ölkəmizin regional və qlobal səviyyədə nüfuzunu daha da artırır.

Bu gün Qarabağ və Şərqi Zəngəzur artıq münaqişə zonası deyil, əksinə, sülh və əməkdaşlıq mərkəzinə çevrilməkdədir. Azərbaycan dövləti burada hərtərəfli inkişafın təmin edilməsi və insanların həyat şəraitinin yaxşılaşdırılması ilə yanaşı, beynəlxalq təhlükəsizliyə də mühüm töhfə verir. Qarabağda həyata keçirilən yenidənqurma işləri, ölkəmizin sülh və təhlükəsizlik sahəsindəki mühüm strategiyalarını dəstəkləyir.

Həyata keçirilən siyasətin məqsədi həm də bölgənin gələcəkdə barış, inkişaf və əməkdaşlıq platformasına çevrilməsini təmin etməkdir. Bu məqsədlə dövlətimizin beynəlxalq tədbirlərdə fəal iştirak etməsinə, regionda yeni əməkdaşlıq imkanlarının yaranmasına yol açır.

5

## Azərbaycan Prezidenti İlham Əliyev ABŞ Prezidenti Donald Trampa təşəkkür edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ABŞ Prezidenti Donald Trampa "Truth" sosial şəbəkə hesabında paylaşımına görə təşəkkür edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı bu barədə "X" sosial şəbəkə hesabında yazıb.

"Prezident Donald Tramp, təşəkkür edirəm, "Truth" sosial hesabınızda paylaşdığınız xoş sözlərinizə görə minnətdaram. Azərbaycan və Ermənistan arasında sülh prosesinin irəlilədilməsində və tarixi Vaşinqton sammitinə evsahibliyi etməyinizdə oynadığınız mühüm rolu yüksək qiymətləndirirəm", - deyə Prezident İlham Əliyev qeyd edib.

Dövlətimizin başçısı vurğulayıb ki, Donald Tramp Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında əbədi dostluğun və formalaşmaqda olan strateji tərəfdaşlığın memarıdır. "Dostluğumuza böyük önəm verirəm", - deyə Azərbaycan Prezidenti əlavə edib.

Xatırladaq ki, ABŞ Prezidenti Donald Tramp sentyabrın 16-da növbəti dəfə "Truth" sosial media hesabında avqustun 8-də Vaşinqtonda Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyanla keçirdiyi tarixi görüş barədə paylaşım edib. O bildirib ki, Azərbaycan və Ermənistan arasında müharibənin həllinə kömək etmək və eyni zamanda bu iki böyük lider və insanla - Prezident İlham Əliyev və Baş nazir Nikol Paşinyanla dost olmaq onun üçün böyük şərəfdir.

## Prezident İlham Əliyev "Qarabağ" klubunu Çempionlar Liqasının əsas mərhələsində ilk qələbəsini qazanması münasibətilə təbrik edib

**Azərbaycan Prezidenti İlham Əliyev "Qarabağ" futbol klubunun UEFA Çempionlar Liqasının əsas mərhələsində ilk qələbəsini qazanması ilə əlaqədar sosial şəbəkə hesablarında paylaşım edib.**

AZƏRTAC paylaşımı təqdim edir:

"Qitənin ən nüfuzlu klub turnirində - Çempionlar Liqasının əsas mərhələsində ilk qələbəsini qazanması münasibətilə Ağdamın "Qarabağ" futbol klubunu ürəkdən təbrik edirəm. Bu, Azərbaycan futbolunun, Azərbaycan idmanının tarixi zəfəridir.

"Qarabağ"ın Avropanın köklü klublarından biri olan "Benfika" ilə səfər matçında oyunun gedişində möhtəşəm geridönüş edərək parlaq qələbə çalması onun məğlubedilməz ruhunu, mübarizə əzmini göstərir.

Bu qələbə ilə doğma komandamız Azərbaycan xalqına böyük sevinc bəxş etmişdir. Hər bir azərbaycanlı Avropada xariqələr yaradan "Qarabağ"la qürur duyur".




## Azərbaycan-BƏƏ əlaqələri yeni mərhələyə qədəm qoyur



Azərbaycanla BƏƏ arasında ali və yüksək səviyyədə qarşılıqlı səfərlər və fəal təmaslar, eləcə də beynəlxalq platformalarda səmərəli əməkdaşlıq, aktiv parlament diplomatiyası və müxtəlif sahələrdə dinamik fəaliyyət ikitərəfli əlaqələrin strateji tərəfdaşlıq səviyyəsinə qalxmasına gətirib çıxarıb. Yüksək siyasi münasibətlər, BƏƏ sərmayələrinin iri həcmdə dövlətimizin xüsusən də bərpaolunan enerji sahəsinə qoyulmasını, o cümlədən Azərbaycan və BƏƏ ümumvətəndaş pasportlarının qarşılıqlı olaraq viza rejimindən azad edilməsini və ölkələrimiz arasında aktiv ticari-iqtisadi əməkdaşlığı şərtləndirən başlıca amildir. Bu gün iki dövlət güclü siyasi əlaqələrə malikdir və ticari-iqtisadi sahədə geniş əməkdaşlıq həyata keçirir. Azərbaycana xaricdən məhsul idxalında, o cümlədən respublikamızın ixracatında BƏƏ əsas dövlətlərdən biridir. "Made in Azerbaijan" brendini BƏƏ bazarında daha çox tanıtmaq üçün bu ölkədə "Azərbaycan Ticarət Evi" fəaliyyət göstərir.

İstər ikitərəfli əsasda, istərsə də beynəlxalq təsisatlar çərçivəsində BƏƏ Azərbaycanın ərazi bütövlüyünü daim dəstəkləyib.

Xüsusilə qeyd edilməlidir ki, Azərbaycanla-BƏƏ arasındakı əlaqələrin inkişafına təsir edən ən böyük amil hər iki ölkə rəhbərinin siyasi iradəsidir. Xatırladaq ki, bu il ərzində Azərbaycan və BƏƏ prezidentləri 3 dəfə görüşüblər. Belə ki, il ərzində Prezident İlham Əliyev iki dəfə BƏƏ-yə, Şeyx Məhəmməd bin Zayed Al Nəhyan isə bir dəfə Azərbaycana səfər edib.

6

## Azərbaycandan beynəlxalq enerji aləminə açılan qapı

### BTC-nin təməlinin qoyulduğu gündən 23 il keçir




BTC-nin təməlinin qoyulması, əslində, "Əsrin müqaviləsi"ndən doğan reallıq idi. Belə ki, 1994-cü ildə imzalanan bu möhtəşəm saziş çərçivəsində 1997-ci ildə neft hasilatına başlandı. Hasilat getdikcə artırdı və yaxın illərdə daha çox neft əldə olunacağına şübhə yox idi. Bu səbəbdən də Bakı-Supsa və Bakı-Novorossiysk kəmərlərindən əlavə daha böyük bir ixrac marşrutuna ehtiyac yaranırdı. Belə bir şəraitdə müəllifi Ümummilli Lider Heydər Əliyev olan BTC-nin çəkilişi ideyası irəli sürüldü. 1998-ci ildə Ankarada kəmərin inşa edilməsi haqqında bəyannamə, 1999-cu ildə İstanbulda ATƏT-in Zirvə görüşü zamanı isə xəttin çəkilişi ilə bağlı saziş imzalandı. Saziş Azərbaycanın, Gürcüstanın, Türkiyənin, Qazaxıstanın və Amerika Birləşmiş Ştatlarının ovaxtkı prezidentlərinin imzaları ilə təsdiqləndi.

Lakin vaxtilə "Əsrin müqaviləsi"ni xülya adlandıranlar, müxtəlif bəhanələrlə və güclü səylərlə bu sazişin imzalanmasına mane olmaq istəyənlər yenidən baş qaldırdılar. İndi hədəfdə BTC idi. Ulu Öndər Heydər Əliyevin gərgin mübarizəsi və dünyadakı siyasi nüfuzu sayəsində bu maneələr də aradan götürüldü.

9

# Fətəli xan Xoyskinin 150 illik yubileyinin keçirilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2025-ci ildə Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri və ilk Baş naziri Fətəli xan İsgəndər xan oğlu Xoyskinin 150 illiyi tamam olur.

Fətəli xan Xoyski XX əsrin əvvəllərindən milli-mədəni intibahını yaşayan Azərbaycan xalqının azadlığı və istiqlaliyyəti naminə hərəkatda üzərinə götürdüyü çətin vəzifəni şərəflə yerinə yetirmiş fədakar ziyalılar nəslinin parlaq nümayəndəsidir. Geniş dünyagörüşlü, cəsarətli, vətənpərvər şəxsiyyət və böyük siyasi xadim kimi o, daim Azərbaycanın müstəqilliyi uğrunda mübarizənin ön cərgələrində mövqe tutmuş, tarixi İstiqlal Bəyannaməsini imzalayanlardan biri olmuşdur.

Fətəli xan Xoyskinin rəhbərlik etdiyi hökumət kabinetləri Azərbaycan Xalq Cümhuriyyətinin ilk addımlarını atdığı vaxtdan etibarən demokratik dövlət idarəçiliyinin təşkili istiqamətində ardıcıl tədbirlər həyata keçirmiş, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə və hərbi quruculuq sahələrində mühüm nailiyyətlər qazanmış, Azərbaycanın müstəqilliyinin xarici dövlətlər tərəfindən tanınması və diplomatik münasibətlərinin yaradılması işinə layiqli töhfələr vermişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycanın görkəmli siyasi və dövlət xadimi Fətəli xan Xoyskinin150 illik yubileyinin keçirilməsini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə birlikdə Fətəli xan Xoyskinin 150 illik yubileyinə həsr olunmuş tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 sentyabr 2025-ci il*

# "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2025–2030-cu illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü və 32-ci bəndlərini rəhbər tutaraq, narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizənin gücləndirilməsi, eləcə də bu sahədə həyata keçirilən sistemli və kompleks tədbirlərin davamlılığının təmin edilməsi məqsədilə **qərara alıram:**

1. "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı" (bundan sonra - Dövlət Proqramı) təsdiq edilsin *(əlavə olunur)*.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin əlaqələndirilməsini və icrasına nəzarəti həyata keçirsin;

2.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası:

3.1. Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini həyata keçirsin;

3.2. Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin icra vəziyyəti barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 sentyabr 2025-ci il*

*Sərəncamın əlavəsi ilə www.azerbaijan-news.az saytında tanış ola bilərsiniz.*

# "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin yenidən təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 25 fevral tarixli 342 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi və "Azərbaycan Respublikası Bakı Beynəlxalq Dəniz Ticarət Limanının Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" 1994-cü il 28 noyabr tarixli 407 nömrəli Qərarı"nın ləğv edilməsi barədə

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 263** **Bakı şəhəri, 16 sentyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin yenidən təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 25 fevral tarixli 342 nömrəli Fərmanının 4.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 20 noyabr tarixli 251 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası tərəfindən Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin müəssisələri və təşkilatları ilə istehsalat kooperasiyasının və ixtisaslaşmanın qorunub saxlanması və inkişafına dair sahə və sahələrarası sazişləri bağlayan və icrasını təmin edən nazirlik, komitə, şirkət, konsern, birlik və təşkilatların Siyahısı"nın on dördüncü abzasından "və "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyəti" sözləri çıxarılsın.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1996-cı il 24 yanvar tarixli 9 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ilə təsdiq edilmiş "Bakı Metropolitenində baş vermiş qəza ilə əlaqədar respublika nəqliyyat sahələrində sərnişin və yüklərin daşınmasında təhlükəsizliyin təmin edilməsi üçün tədbirlər planı"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 15-ci hissənin "İcraçılar" sütunundan "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyəti," sözləri çıxarılsın;

2.2. 21-ci hissənin "İcraçılar" sütununda "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyəti" sözləri "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155 (Cild I); 2024, № 1, maddə 84, № 2, maddələr 209, 229, № 3, maddələr 307, 359, № 6 (II kitab), maddə 739, № 7, maddələr 920, 930, № 9, maddələr 1067, 1099, 1106, № 10, maddə 1167, № 12 (II kitab), maddə 1428; 2025, № 2, maddə 187, № 6, maddə 594; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 8 iyul tarixli 202 nömrəli, 15 iyul tarixli 210, 212 nömrəli və 1 avqust tarixli 228 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin inzibati təsnifatı"nın 110-cu hissəsi ləğv edilsin.

4. "Bakı Beynəlxalq Dəniz Ticarət Limanının Nizamnaməsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 28 noyabr tarixli 407 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# "Avtomobil yolları" Məqsədli Büdcə Fondunun vəsaitinin ölkə ərazisində ümumi istifadədə olan respublika və yerli əhəmiyyətli avtomobil yollarının saxlanması, qorunması və təmiri, habelə avtomobil yollarının layihələndirilməsi, yenidən qurulması və tikintisi ilə bağlı kompensasiyaların ödənilməsi üçün xərclənməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 25 yanvar tarixli 13 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 264** **Bakı şəhəri, 16 sentyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2001-ci il 26 dekabr tarixli 621 nömrəli Fərmanında və "Azərbaycan Respublikasının dövlət büdcəsinin tərkibində "Avtomobil yolları" Məqsədli Büdcə Fondunun yaradılması haqqında" 2006-cı il 12 oktyabr tarixli 1729 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 18 avqust tarixli 2302 nömrəli Fərmanının 2-ci hissəsinə əsasən və "Azərbaycan Respublikasının dövlət büdcəsinin tərkibində "Avtomobil yolları" Məqsədli Büdcə Fondunun yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 12 oktyabr tarixli 1729 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 27 dekabr tarixli 429 nömrəli Sərəncamının 2-ci hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Avtomobil yolları" Məqsədli Büdcə Fondunun vəsaitinin ölkə ərazisində ümumi istifadədə olan respublika və yerli əhəmiyyətli avtomobil yollarının saxlanması, qorunması və təmiri, habelə avtomobil yollarının layihələndirilməsi, yenidən qurulması və tikintisi ilə bağlı kompensasiyaların ödənilməsi üçün xərclənməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 25 yanvar tarixli 13 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 1, maddə 57 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-1-ci hissə aşağıdakı redaksiyada verilsin:

"1-1. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.";

1.2. həmin Qərarla təsdiq edilmiş "Avtomobil yolları" Məqsədli Büdcə Fondunun vəsaitinin ölkə ərazisində ümumi istifadədə olan respublika və yerli əhəmiyyətli avtomobil yollarının saxlanması, qorunması və təmiri, habelə avtomobil yollarının layihələndirilməsi, yenidən qurulması və tikintisi ilə bağlı kompensasiyaların ödənilməsi üçün xərclənməsi Qaydaları"nın 2-ci hissəsi üzrə:

1.2.1. 2.1-ci bənddə "dövlət büdcəsinin" sözləri "mədaxil" sözü ilə əvəz edilsin;

1.2.2. 2.1.2 - 2.1.6-cı yarımbəndlər ləğv edilsin;

1.2.3. 2.1.8-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.1.9-cu yarımbənd əlavə edilsin:

"2.1.9. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin fəaliyyət istiqamətlərinə uyğun olaraq göstərdiyi ödənişli xidmətlərdən əldə etdiyi gəlirlər, ianələr, qrantlar və qanunla qadağan edilməyən digər mənbələr.".

2. Bu Qərar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 25 yanvar tarixli 13 nömrəli Qərarı ilə təsdiq edilmiş "Avtomobil yolları" Məqsədli Büdcə Fondunun vəsaitinin ölkə ərazisində ümumi istifadədə olan respublika və yerli əhəmiyyətli avtomobil yollarının saxlanması, qorunması və təmiri, habelə avtomobil yollarının layihələndirilməsi, yenidən qurulması və tikintisi ilə bağlı kompensasiyaların ödənilməsi üçün xərclənməsi Qaydaları"nın 2.1.2 - 2.1.4-cü və 2.1.6-cı yarımbəndlərinə münasibətdə 2025-ci il yanvarın 1-dən, həmin Qaydaların 2.1.5-ci yarımbəndinə münasibətdə 2023-cü il oktyabrın 1-dən tətbiq edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 6 avqust tarixli 286 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan sosial xidmət müəssisələrinin Nümunəvi Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 265** **Bakı şəhəri, 16 sentyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 6 avqust tarixli 286 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 8, maddə 975 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 29 iyul tarixli 226 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan sosial xidmət müəssisələrinin Nümunəvi Nizamnaməsi"nin 3.1.5-ci yarımbəndində "və yataq dəstləri ilə təmin etmək" sözləri "və yumşaq inventarlarla təmin olunmasını Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi normalara uyğun həyata keçirmək;" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlıq Elmi-Tədqiqat İnstitutunun adının dəyişdirilməsi və bununla əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 266** **Bakı şəhəri, 16 sentyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasında balıqçılığın və akvakulturanın inkişafı ilə bağlı əlavə tədbirlər və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 dekabr tarixli 253 nömrəli Fərmanının 4.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlıq Elmi-Tədqiqat İnstitutu Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlıq və Balıqçılıq Elmi-Tədqiqat İnstitutu adlandırılsın.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 14 dekabr tarixli 235 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 12, maddə 1117 (Cild I); 2024, № 2, maddə 229, № 4, maddə 460, № 5 (II kitab), maddə 628, № 7, maddə 927) ilə təsdiq edilmiş "Doktoranturalar (adyunkturalar) yaradılan Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin, elmi müəssisə və təşkilatların Siyahısı"nın "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi üzrə" bölməsinin 7-ci hissəsinə "Heyvandarlıq" sözündən sonra "və Balıqçılıq" sözləri əlavə edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 21 dekabr tarixli 584 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (II kitab), maddə 2531 (Cild I); 2024, № 5 (II kitab), maddə 602; 2025, № 6, maddələr 597, 602) ilə təsdiq edilmiş "Baza maliyyələşdirilməsinin subyektləri olan elmi müəssisə və təşkilatların Siyahısı"nın 4.6-cı bəndinə "Heyvandarlıq" sözündən sonra "və Balıqçılıq" sözləri əlavə edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 19 dekabr tarixli 549 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 12 (II kitab), maddə 2745 (Cild I); 2025, № 2, maddə 195) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nın 1.5-ci bəndinə "Heyvandarlıq" sözündən sonra "və Balıqçılıq" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 21 may tarixli 184 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət və ictimai ekoloji ekspertizanın həyata keçirilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 267** **Bakı şəhəri, 16 sentyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 18 mart tarixli 159-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 21 may tarixli 184 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 5, maddə 655 (Cild I); 2024, № 4, maddə 441) ilə təsdiq edilmiş "Dövlət və ictimai ekoloji ekspertizanın həyata keçirilməsi Qaydası"nın 2.3-cü bəndindən "obyektləri barədə ekoloji ekspertiza" sözləri çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# "Enerji balansının hazırlanması, təsdiq edilməsi və icrasına nəzarət Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 1 may tarixli 233 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 269** **Bakı şəhəri, 16 sentyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Sənaye parklarının bərpaolunan enerji mənbələrindən istehsal edilmiş elektrik enerjisi ilə təchizatına dair əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 7 may tarixli 389 nömrəli Fərmanının 1.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Enerji balansının hazırlanması, təsdiq edilməsi və icrasına nəzarət Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 1 may tarixli 233 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 5 (II kitab), maddə 571; 2025, № 3, maddə 303) aşağıdakı dəyişikliklər edilsin:

1. 2.2-ci bəndə "Komitəsi" sözündən sonra ", Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi" sözləri əlavə edilsin.

2. Həmin Qərarla təsdiq edilmiş "Enerji balansının hazırlanması, təsdiq edilməsi və icrasına nəzarət Qaydası" üzrə:

2.1. 2.5-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.5. Nazirlik tərəfindən hər il iyun ayının 1-dək enerji balansının layihəsi tərtib edilir. Nazirlik həmin layihəni Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi ilə razılaşdıraraq Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edir. Enerji balansının layihəsində dəyişiklik edilməsi zərurəti yarandığı təqdirdə nazirlik bu barədə təklifləri və enerji balansının yenilənmiş layihəsini Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi ilə razılaşdırmaqla noyabr ayının 1-dək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edir.";

2.2. 2.7-ci bənddə "və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi" sözləri ", Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi" sözləri ilə əvəz edilsin;

2.3. 3.9-cu bəndə "Komitəsinin" sözündən sonra ", Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin" sözləri əlavə edilsin;

2.4. Qaydaya əlavə - "Azərbaycan Respublikasının enerji balansı"nın strukturu (əvvəlki iki ilin faktiki, cari ilin gözlənilən, növbəti ilin illik, rüblük və sonrakı üç il üzrə illik)" üzrə:

2.4.1. 4.13 - 4.43-cü sətirlər müvafiq olaraq 4.16 - 4.46-cı sətirlər hesab olunsun və aşağıdakı məzmunda 4.13 - 4.15-ci sətirlər əlavə edilsin:

| | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **4.13.** | **İdxal** | **milyon kVt st** | | | | | | | | | | | |
| 4.13.1. | paralel işin təmin edilməsi məqsədilə | milyon kVt st | | | | | | | | | | | |
| 4.13.2. | kommersiya məqsədilə | milyon kVt st | | | | | | | | | | | |
| **4.14.** | **İxrac** | **milyon kVt st** | | | | | | | | | | | |
| 4.14.1. | paralel işin təmin edilməsi məqsədilə | milyon kVt st | | | | | | | | | | | |
| 4.14.2. | kommersiya məqsədilə | milyon kVt st | | | | | | | | | | | |
| **4.15.** | **İdxal-ixracın saldosu** | **milyon kVt st** | | | | | | | | | | | |

2.4.2. aşağıdakı məzmunda 4.19.3-cü alt sətir əlavə edilsin:

| | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 4.19.3. | Sənaye parklarının idarəedici təşkilatı | milyon kVt st | | | | | | | | | | | |
| 4.19.3.1. | bərpaolunan enerji mənbələrindən istehsal edilmiş | milyon kVt st | | | | | | | | | | | |
| | ondan mənbələr üzrə: | | | | | | | | | | | | |
| 4.19.3.2. | digər mənbələrdən istehsal edilmiş | milyon kVt st | | | | | | | | | | | |
| | ondan mənbələr üzrə: | | | | | | | | | | | | |

2.4.3. aşağıdakı məzmunda 4.29.2.1.1-ci alt sətir əlavə edilsin:

| | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 4.29.2.1.1. | sənaye parklarının idarəedici təşkilatı | milyon kVt st | | | | | | | | | | | |
| 4.29.2.1.1.1. | bərpaolunan enerji mənbələrindən istehsal edilmiş | milyon kVt st | | | | | | | | | | | |
| | ondan mənbələr üzrə: | | | | | | | | | | | | |
| 4.29.2.1.1.2. | digər mənbələrdən istehsal edilmiş | milyon kVt st | | | | | | | | | | | |
| | ondan mənbələr üzrə: | | | | | | | | | | | | |

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# *BƏƏ mediası:* "Prezident Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın Azərbaycana səfəri ikitərəfli əlaqələrin möhkəmlənməsinə daha bir töhfədir"

**Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın Azərbaycana səfəri, onun Prezident İlham Əliyevlə görüşü və Şuşa şəhərində keçirilən tədbirlər bu ölkənin media orqanlarının diqqət mərkəzində olub.**

AZƏRTAC xəbər verir ki, WAM rəsmi informasiya agentliyi, "Emarat Al Youm", "Sharjah24", "Alkhaleej", "Nabd Khalij" və digər qəzet və portallar dövlət başçılarının təkbətək görüşü, Şuşada Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvanın, Bülbülün və Üzeyir bəy Hacıbəylinin erməni işğalçıları tərəfindən güllələnmiş heykəllərinə baxması haqqında materiallar dərc edib. Oxucuların diqqətinə çatdırılıb ki, Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin müdaxiləsi nəticəsində bu heykəllər Ermənistandan alınaraq ölkəmizə gətirilib. Bir müddət Bakıda İncəsənət Muzeyinin həyətində saxlanılan heykəllər Şuşa işğaldan azad olunduqdan sonra öz əvvəlki yerlərinə qaytarılıb.

BƏƏ mediası BƏƏ Prezidentinin Milli Xalça Muzeyinin Şuşa filialında olması, Yeni Şuşa məscidində tikinti işlərinin gedişi ilə tanışlıq barədə də xəbərlər dərc edib. Qeyd olunub ki, təməli 2021-ci ildə Prezident İlham Əliyev tərəfindən qoyulan bu məscid tarixi şəhər olan Şuşada modern memarlıq nümunəsi kimi seçiləcək. Dövlət başçısının tapşırığına uyğun olaraq, məscidin forması 8 rəqəmini əks etdirəcək ki, bu da Şuşanın işğalçılardan azad olunduğu günü - Zəfər Gününü simvolizə edəcək. Şuşanın və Qarabağın işğaldan ilin on birinci ayında azad edilməsinin rəmzi kimi məscidin iki minarəsi 11 rəqəmi formasında olacaq. Şəhərin yuxarı hissəsində inşa olunan bu ibadət ocağının binasının xarici səthi Şuşanın qədim məscidinin minarələrində istifadə edilən həndəsi naxışlarla bəzədiləcək.

Materiallarda vurğulanır ki, Prezident Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın Azərbaycana növbəti səfəri iki dost ölkə arasında əlaqələrin möhkəmlənməsi istiqamətində atılan daha bir addımdır.

WAM informasiya agentliyi dövlət başçılarının Cıdır düzündə Qarabağ atlarının şousunu izləməsi barədə videomaterial yayımlayıb. Qeyd olunub ki, Azərbaycan Prezidenti Birləşmiş Ərəb Əmirliklərinin dövlət başçısına "Ərgünəş" adlı Qarabağ atını hədiyyə edib.















## "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, "Sosial sığorta haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında", "Uşaq hüquqları haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Dövlət qulluqçularının ayrı-ayrı kateqoriyaları üçün qısaldılmış iş vaxtı haqqında", "Dövlət rüsumu haqqında", "İcra haqqında", "Ünvanlı dövlət sosial yardımı haqqında", "Sosial müavinətlər haqqında", "Əmək pensiyaları haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyaya qoşulmaq barəsində", "Əlilliyi olan şəxslərin hüquqları haqqında" və "Məşğulluq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 11 aprel tarixli 172-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 25 aprel tarixli 378 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 270** **Bakı şəhəri, 17 sentyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, "Sosial sığorta haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında", "Uşaq hüquqları haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Dövlət qulluqçularının ayrı-ayrı kateqoriyaları üçün qısaldılmış iş vaxtı haqqında", "Dövlət rüsumu haqqında", "İcra haqqında", "Ünvanlı dövlət sosial yardımı haqqında", "Sosial müavinətlər haqqında", "Əmək pensiyaları haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyaya qoşulmaq barəsində", "Əlilliyi olan şəxslərin hüquqları haqqında" və "Məşğulluq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 11 aprel tarixli 172-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 25 aprel tarixli 378 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 10 may tarixli 185 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); 2024, № 1, maddə 79, № 9, maddə 1067; 2025, № 2, maddə 187) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında əlilliyi olan şəxslərin problemləri üzrə kompleks Proqram"da aşağıdakı dəyişikliklər edilsin:

1.1. 5.1-ci bəndin "Tədbirlər" sütunu üzrə:

1.1.1. səkkizinci abzasa "təhsili olan" sözlərindən sonra "gözdən əlilliyinin müəyyən edilməsinə görə" sözləri əlavə edilsin və həmin abzasda "funksiyalarının 61-100 faiz pozulmasına görə və ya 18 yaşınadək gözdən əlilliyi müəyyən edilmiş vətəndaşların" sözləri "funksiyaları 61-100 faiz pozulmuş şəxslərin və ya əlilliyi olan uşaqların" sözləri ilə əvəz edilsin;

1.1.2. doqquzuncu abzasa "bitirmiş" sözündən sonra "gözdən əlilliyinin müəyyən edilməsinə görə" sözləri əlavə edilsin və həmin abzasda "funksiyalarının 61-100 faiz pozulmasına görə və ya 18 yaşınadək gözdən əlilliyi müəyyən edilmiş gənclərin" sözləri "funksiyaları 61-100 faiz pozulmuş və ya əlilliyi olan gənclərin" sözləri ilə əvəz edilsin;

1.2. 5.4-cü bəndin dördüncü abzasının "Tədbirlər" sütununda (hər iki halda) "və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərin" sözləri "əlilliyi müəyyən edilmiş şəxslərin və ya əlilliyi olan uşaqların" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 15 sentyabr tarixli 189 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 596 (Cild I); 2024, № 3, maddə 335, № 9, maddə 1067; 2025, № 5, maddə 507) ilə təsdiq edilmiş "Məcburi dövlət sosial sığortası üzrə ödəmələrin və əmək qabiliyyətini müvəqqəti itirmiş sığortaolunanlara sığortaedənin vəsaiti hesabına ödənilən müavinətin hesablanması və ödənilməsi haqqında Əsasnamə"nin 16-cı hissəsinin üçüncü və dördüncü abzaslarında "18 yaşınadək əlilliyi müəyyən edilmiş" sözləri "əlilliyi olan" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 4 yanvar tarixli 4 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 53 (Cild I); 2024, № 7, maddə 930; 2025, № 5, maddə 507) ilə təsdiq edilmiş "Əmək haqqından tutulan vergi hesablanarkən fiziki şəxslərin vergi güzəştləri hüququnun müəyyənləşdirilməsi üçün sənədlərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.9-cu bəndin birinci abzasında "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər" sözləri "əlilliyi olan uşaqlar" sözləri ilə əvəz edilsin;

3.2. 1.13-cü bəndin birinci abzasında "18 yaşınadək əlilliyi müəyyən edilmiş" sözləri "əlilliyi olan uşağa" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 15 sentyabr tarixli 149 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 629 (Cild I); 2024, № 5 (II kitab), maddə 579; 2025, № 5, maddə 507) ilə təsdiq edilmiş "Müəyyən müddətə azadlıqdan məhrum etmə və ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum olunmuş şəxslərin əmək haqqının ödənilməsi Qaydası"nın 5.2-ci bəndində "və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş məhkumlar" sözləri "əlilliyi müəyyən edilmiş məhkumlar və ya əlilliyi olan məhkum uşaqlar" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 25 sentyabr tarixli 154 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 634 (Cild I) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Cəzaçəkmə müəssisələrində saxlanılan məhkumların gündəlik ərzaq normaları"nın "Qeyd" hissəsinin 2-ci bəndində ", 18 yaşınadək əlilliyi müəyyən edilmiş məhkumlara" sözləri "məhkumlara, əlilliyi olan məhkum uşaqlara" sözləri ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 22 noyabr tarixli 213 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 11, maddə 1073 (Cild I); 2024, № 3, maddə 311; 2025, № 5, maddə 507) ilə təsdiq edilmiş "Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslər üçün kvota tətbiq edilməsi Qaydası"nın 1.3-cü bəndinin üçüncü abzasında "18 yaşınadək əlilliyi müəyyən edilmiş" sözləri "əlilliyi olan" sözləri ilə əvəz edilsin.

7. "Bakı-Naxçıvan və Naxçıvan-Bakı hava xətti ilə uçan şəxslərə güzəştlərin edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 27 dekabr tarixli 210 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 12, maddə 1345 (Cild I) 2-ci hissəsində ", 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə" sözləri "şəxslərə, əlilliyi olan uşaqlara" sözləri ilə əvəz edilsin.

8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 18 aprel tarixli 91 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 4, maddə 311 (Cild I) ilə təsdiq edilmiş "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin manevr fondu yaşayış sahəsi ilə təmin olunma qaydası və həmin müvəqqəti yaşayış yerlərində yaşamaq müddətinin artırılmasının müstəsna halları"nın 9.4-cü bəndində "18 yaşınadək əlilliyi müəyyən edilmiş" sözləri "əlilliyi olan" sözləri ilə əvəz edilsin.

9. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 5 fevral tarixli 22 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 2, maddə 145 (Cild I); 2024, № 1, maddə 111, № 5 (II kitab), maddə 612; 2025, № 1, maddə 90, № 3, maddə 282) ilə təsdiq edilmiş "Avtovağzal və avtostansiya haqqında Əsasnamə"nin 6.3-cü bəndinin birinci cümləsində və 6.4-cü bəndində "18 yaşınadək əlilliyi müəyyən edilmiş" sözləri "əlilliyi olan" sözləri ilə əvəz edilsin.

10. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 31 yanvar tarixli 17 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 1, maddə 76 (Cild I) ilə təsdiq edilmiş "Evdə (səyyar) sosial xidmətin göstərilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

10.1. 3.2.2-ci yarımbənddə "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə" sözləri "əlilliyi olan uşaqlara" sözləri ilə əvəz edilsin;

10.2. 3.2.4-3.2.6-cı və 3.2.8-ci yarımbəndlərdə "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərin" sözləri "əlilliyi olan uşaqların" sözləri ilə əvəz edilsin.

11. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 10 iyun tarixli 111 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 6, maddə 725 (Cild I); 2024, №2, maddə 204, №3, maddə 314) ilə təsdiq edilmiş "Çətin həyat şəraitində hesab edilmənin əsasları üzrə şəxsin (ailənin) çətin həyat şəraitində olmasını təsdiq edən sənədlərin siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

11.1. 3-cü hissənin adında "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər" sözləri "Əlilliyi olan uşaqlar" sözləri ilə əvəz edilsin;

11.2. 3.1-ci bənddə "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxsin" sözləri "Əlilliyi olan uşağın" sözləri ilə əvəz edilsin.

12. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 5 noyabr tarixli 320 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 11, maddə 1457 (Cild I); 2024, № 1, maddə 110, № 7, maddə 931, № 9, maddə 1100) ilə təsdiq edilmiş "Çətin həyat şəraitində olan şəxslərin (ailələrin) dövlət sosial xidmət müəssisələrinə yerləşdirilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

12.1. 1.3-cü bənddə "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə" sözləri "əlilliyi olan uşaqlara" sözləri ilə əvəz edilsin;

12.2. 2.2-ci bənddə "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər" sözləri "Əlilliyi olan uşaqlar" sözləri ilə əvəz edilsin;

12.3. 2.2.1-ci və 2.2.2-ci yarımbəndlərdə "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər" sözləri "əlilliyi olan uşaqlar" sözləri ilə əvəz edilsin.

13. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 22 aprel tarixli 108 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 4, maddə 452 (Cild I); 2024, № 7, maddə 916) ilə təsdiq edilmiş "Çətin həyat şəraitində olan şəxslərə (ailələrə) dövlət büdcəsinin vəsaiti hesabına göstərilən sosial xidmətin zəmanət verilmiş həcmi"nin 1.2-ci, 2.2-ci və 3.2-ci bəndlərində "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər" sözləri "Əlilliyi olan uşaqlar" sözləri ilə əvəz edilsin.

14. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 fevral tarixli 37 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 379 (Cild I); 2024, № 2, maddə 229, № 3, maddə 320, № 12 (II kitab), maddə 1431; 2025, № 3, maddə 304; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 2 iyul tarixli 192 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Ünvanlı dövlət sosial yardımın alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

14.1. 1.2.2-ci yarımbənddə "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxsə" sözləri "əlilliyi olan uşağa" sözləri ilə əvəz edilsin;

14.2. 5.22-ci bənddə "18 yaşınadək əlilliyi müəyyən edilmiş" sözləri "əlilliyi olan uşağı" sözləri ilə əvəz edilsin.

15. "Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2155 (Cild I); 2024, № 1, maddə 84, № 2, maddələr 209, 229, № 3, maddələr 307, 359, № 6 (II kitab), maddə 739, № 7, maddələr 920, 930, № 9, maddələr 1067, 1099, 1106, № 10, maddə 1167, № 12 (II kitab), maddə 1428; 2025, № 2, maddə 187, № 6, maddə 594; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 8 iyul tarixli 202 nömrəli, 15 iyul tarixli 210, 212 nömrəli və 1 avqust tarixli 228 nömrəli qərarları) aşağıdakı dəyişikliklər edilsin:

15.1. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə gəlirlərinin təsnifatına əlavə"nin 1.2.1.4-cü yarımbəndində ", həmçinin 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər" sözləri "şəxslər və əlilliyi olan uşaqlar" sözləri ilə əvəz edilsin;

15.2. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə xərclərinin iqtisadi təsnifatına əlavə" üzrə:

15.2.1. "270000. "Sosial ödənişlər" bölməsinin ikinci cümləsində "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə" sözləri "əlilliyi olan uşaqlara" sözləri ilə əvəz edilsin;

15.2.2. "271923. "Əlilliyi olan şəxslərə maddi və texniki yardımın təşkili" yarımmaddəsində "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərin" sözləri "əlilliyi olan uşaqların" sözləri ilə əvəz edilsin.

16. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 17 mart tarixli 97 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 358 (Cild I); 2024, № 3, maddə 314, № 9, maddə 1104; 2025, № 5, maddə 507) ilə təsdiq edilmiş "Sosial müəssisələrin Standartları"nın 3.2.1-ci yarımbəndində "18 yaşınadək əlilliyi müəyyən edilmiş" sözləri "əlilliyi olan" sözləri ilə əvəz edilsin.

17. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 16 oktyabr tarixli 398 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 10, maddə 1286 (Cild I); 2024, № 3, maddə 330; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 1 avqust tarixli 230 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Ödənişsiz psixoloji yardımın göstərilməsi Qaydası və Şərtləri"nin 4.11-ci bəndinin ikinci cümləsində "18 yaşınadək əlilliyi müəyyən edilmiş" sözləri "əlilliyi olan" sözləri ilə əvəz edilsin.

18. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 18 dekabr tarixli 501 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 12 (V kitab), maddə 1602 (Cild I); 2024, № 1, maddə 109, № 6 (II kitab), maddə 727) ilə təsdiq edilmiş "Əlilliyi olan şəxslərin reabilitasiya vasitələri ilə təmin edilməsi Şərtləri və Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

18.1. 2.7-2-ci bənddə "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxsin" sözləri "əlilliyi olan uşağın" sözləri ilə əvəz edilsin;

18.2. 3.16-1-ci bənddə "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxsə" sözləri "Əlilliyi olan uşağa" sözləri ilə əvəz edilsin.;

18.3. "Əlilliyi olan şəxslərin reabilitasiya vasitələri ilə təmin edilməsi Şərtləri və Qaydası"na əlavə - "Əlilliyi olan şəxslərə reabilitasiya vasitələrinin verilməsinə dair tibbi göstərişlər, əks-göstərişlər, reabilitasiya vasitələrinin istifadə, təminat, hazırlanma, təmir və ya dəyişdirilmə müddətləri"nin 1.1.1-ci, 1.1.2-ci, 1.1.3-cü, 1.1.4-cü, 1.1.5-ci, 1.1.6-cı, 1.2.4-cü, 1.3.1-ci, 1.3.2-ci, 1.3.3-cü, 1.3.4-cü, 1.3.5-ci, 1.4.10-cu, 1.5.1-ci, 1.5.2-ci, 1.6.1-ci, 1.6.2-ci, 1.6.3-cü, 1.7.1-ci, 1.8.1-ci, 1.8.2-ci, 1.8.3-cü, 1.9.1-ci, 1.9.2-ci, 1.9.3-cü, 1.9.4-cü, 1.10.1-ci, 1.10.2-ci, 1.10.4-cü, 1.10.5-ci, 1.15.5-ci yarımbəndlərinin "İstifadə müddəti" sütununda "18 yaşadək şəxslərin" sözləri "uşaqların" sözü ilə əvəz edilsin.

19. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 dekabr tarixli 519 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 12 (V kitab), maddə 1620 (Cild I) ilə təsdiq edilmiş "Fərdi Reabilitasiya Proqramının hazırlanması, təsdiq edilməsi və həyata keçirilməsi Qaydası"nın 2.10-cu bəndində və həmin Qaydaya 1 nömrəli əlavə - "Fərdi Reabilitasiya Proqramı"nın 27-ci bəndinin cədvəlinin "Psixoloji-pedaqoji reabilitasiya tədbirlərinin adı" sütununun dördüncü sətrində "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə" sözləri "əlilliyi olan uşaqlara" sözləri ilə əvəz edilsin.

20. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 dekabr tarixli 521 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 12 (V kitab), maddə 1622 (Cild I) ilə təsdiq edilmiş "Əlilliyi olan şəxslərin reabilitasiyası Qaydası"nın 2.6-cı bəndində "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə" sözləri "əlilliyi olan uşaqlara" sözləri ilə əvəz edilsin.

21. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 26 aprel tarixli 111 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 4, maddə 414 (Cild I); 2024, № 1, maddə 110, № 4, maddələr 478, 479, № 5 (II kitab), maddə 611, № 9, maddə 1067) ilə təsdiq edilmiş "Uşaqların dövlət və bələdiyyə tərəfindən yaradılan ailə tipli kiçik qrup evlərinə qəbulu, qrup evlərini tərk etməsi, qrup evlərində xidmətin təşkili, həmçinin qrup evlərində uşaqların təminatı və yaşayış şəraitinə dair Qaydalar"ın 1.1-ci bəndində və 4.5-ci bəndinin ikinci cümləsində "18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər" sözləri "əlilliyi olan uşaqlar" sözləri ilə əvəz edilsin.

22. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 24 iyul tarixli 226 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 7, maddə 887 (Cild I); 2024, № 5 (II kitab), maddə 588) ilə təsdiq edilmiş "Təhsil Tələbə Krediti Fondunun vəsaiti hesabına təhsil tələbə kreditlərinin verilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

22.1. 3.2.7-ci yarımbənddə "və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə" sözləri "əlilliyi müəyyən edilmiş şəxslərə və ya əlilliyi olan uşaqlara" sözləri ilə əvəz edilsin;

22.2. 7.6.5-ci yarımbənddə "və 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə" sözləri "əlilliyi müəyyən edilmiş şəxslərə və əlilliyi olan uşaqlara" sözləri ilə əvəz edilsin.

23. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 23 dekabr tarixli 406 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 12, maddə 1530 (Cild I); 2024, № 3, maddə 314, № 5 (II kitab), maddələr 611, 617) ilə təsdiq edilmiş "Əlilliyi olan şəxslərin dərman preparatları, tibbi xidmət və ölkə hüdudları daxilində sanatoriya-kurort müalicəsi ilə təmin olunması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

23.1. 1.1-ci bənddən ", o cümlədən 18 yaşınadək sağlamlıq imkanları məhdud uşaqların (bundan sonra - əlilliyi olan şəxslər)" sözləri çıxarılsın;

23.2. 4.6-cı bənddə "sağlamlıq imkanları məhdud 18 yaşınadək" sözləri "əlilliyi olan" sözləri ilə əvəz edilsin;

23.3. 4.8-ci bənd üzrə:

23.3.1. birinci cümlədə "I dərəcə əlilliyi olan şəxsin və ya 18 yaşınadək sağlamlıq imkanları məhdud" sözləri "Orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxsin və ya əlilliyi olan" sözləri ilə əvəz edilsin;

23.3.2. ikinci cümlədə "I dərəcə əlilliyi olan şəxsləri və ya 18 yaşınadək sağlamlıq imkanları məhdud" sözləri "Orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxsləri və ya əlilliyi olan" sözləri ilə əvəz edilsin və həmin cümlədən "və 18 yaşınadək sağlamlıq imkanları məhdud uşaqların" sözləri çıxarılsın.

24. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 30 iyul tarixli 368 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 7, maddə 929; 2025, № 5, maddə 507) ilə təsdiq edilmiş "Sosial ödənişlərin təyin edilməsi, ödənilməsi, ödənişinin dayandırılması və sosial ödəniş işlərinin mühafizəsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

24.1. 1.2-ci bənddə (hər iki halda) "və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə" sözləri "əlilliyi müəyyən edilmiş şəxslərə və ya əlilliyi olan uşaqlara" sözləri ilə əvəz edilsin;

24.2. 3.2-ci və 3.3-cü bəndlərdə, 4.1.12-ci yarımbənddə "18 yaşınadək əlilliyi müəyyən edilmiş" sözləri "əlilliyi olan" sözləri ilə əvəz edilsin;

24.3. 4.1.3-cü və 4.1.4-cü yarımbəndlərdə "əlilliyi müəyyən edilmiş" sözləri "əlilliyi olan" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Milli Məclisin Sədri Sahibə Qafarova Malayziyada AİPA-nın 2-ci Qadın Siyasi Liderlər Forumunda çıxış edib

**Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyasının Parlamentlərarası Assambleyasının 46-cı Baş Assambleyasının (AİPA) sessiyasında iştirak etmək məqsədilə Malayziyanın Kuala Lumpur şəhərində səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarova sentyabrın 17-də AİPA-nın 2-ci Qadın Siyasi Liderlər Forumunda çıxış edib.**






Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, tədbirin açılışında çıxış edən AİPA-nın Baş katibi Siti Rozaimeriyanti Dato Haji Abdul Rahman tədbirin əhəmiyyəti barədə fikirlərini səsləndirib. O, Milli Məclisin Sədri Sahibə Qafarovanı salamlayaraq, forumda iştirakına görə ona təşəkkürünü bildirib.

Spiker Sahibə Qafarova çıxışında AİPA-nın qadınlarla bağlı məsələləri daim gündəmdə saxlamasını təqdir edərək, xüsusilə daha inklüziv və gender məsələlərinə həssas yanaşan parlamentlərin qurulması ilə bağlı müzakirələrin bütün qadın deputatlar üçün böyük maraq kəsb etdiyini bildirib.

Milli Məclisin Sədri vaxtilə gender mövzularında araşdırmalar aparmış, beynəlxalq parlament təşkilatlarında gender bərabərliyi və qadınlara qarşı zorakılıqla mübarizə ilə bağlı bir sıra vəzifələr tutmuş bir millət vəkili kimi bu məsələdə bir amilin həlledici əhəmiyyətini hər zaman vurğuladığını deyib. O bildirib ki, uğur əldə etmək üçün qadın və kişilərin bərabər hüquqlara malik olması ideyası cəmiyyətin əsas dəyərinə çevrilməlidir. Digər tərəfdən, etiraf edilməlidir ki, qadınların ictimai həyatın bütün sahələrində və qərar qəbuletmə proseslərində bərabər iştirakı olmadan güclü, firavan və dayanıqlı cəmiyyət qurmaq mümkün deyil.

Sahibə Qafarova çıxışında bütövlükdə parlamentlərin cəmiyyətin tələblərini və mövcud dinamikasını əks etdirdiyini xatırladaraq qeyd edib ki, eyni zamanda parlamentlər həm öz daxilində, həm də cəmiyyətdə dəyişikliklərə istiqamət vermək üçün güclü alətlərə malikdirlər. Bu alətlərdən ən mühümü lazımi davranış çərçivələrini müəyyənləşdirən qanunvericilik fəaliyyətidir. Spikerin sözlərinə görə, qadınların parlamentlərdə iştirakının artması parlamentlərin təmsilçilik və idarəetmədə gender məsələlərinə daha həssas yanaşmasını təmin edir. Bu, qadınların baxışlarının da qanunvericilik prosesində əks olunması ilə nəticələnir və onları bu prosesin əsas maraqlı tərəflərindən birinə çevirir. Beləliklə, bütün qeyd olunanlar cəmiyyətdə bərabərliyin və demokratik dəyərlərin təşviqində parlamentlərin rolunu gücləndirir, onları daha inklüziv və gələcək çağırışlara hazırlıqlı edir.

Spiker Sahibə Qafarova Qadın Siyasi Liderlər Forumunda Azərbaycan Milli Məclisinin təcrübəsi və ölkəmizdə gender siyasəti istiqamətində əldə olunmuş nailiyyətlər barədə də məlumat verib. O bildirib ki, Azərbaycan qadınların hüquqlarının və qərarların qəbulunda fəal iştirakının təmin edilməsinə tam sadiqdir. Spiker xatırladıb ki, Azərbaycan 1918-ci ildə əksər Avropa ölkələrini qabaqlayaraq qadınlara səsvermə hüququ vermişdir. 2024-cü ilin sentyabrında keçirilən seçkilər nəticəsində isə qadınlar parlamentdəki 125 yerdən 26-nı qazanıblar ki, bu da əvvəlki dövrlə müqayisədə say artımını nümayiş etdirir.

Bu gün qadın deputatlar parlamentin əksər komitələrində təmsil olunurlar ki, bu da parlament tərəfindən tənzimlənən bütün məsələlərin müzakirəsi zamanı onların fikirlərinin nəzərə alınmasına imkan verir. Parlamentin 15 komitəsindən 5-nin sədr müavinləri qadındır. Ailə, qadın və uşaq məsələləri daimi komitəsinə qadın deputat rəhbərlik edir. Son 5 ildə komitə tərəfindən 47 qanun layihəsinə baxılıb, gender və ailə məsələləri ilə bağlı 16 ictimai dinləmə keçirilib. Parlamentimiz Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə də sıx əməkdaşlıq edir ki, bu da parlament-hökumət əməkdaşlığının səmərəliliyini təmin edir və səylərin əlaqələndirilməsini gücləndirir.

Spiker Sahibə Qafarova çıxışında Azərbaycanın gender məsələləri ilə bağlı beynəlxalq parlament təşkilatlarında təşəbbüsləri və fəaliyyəti haqqında da danışıb. O deyib ki, Azərbaycan Milli Məclisi parlamentlərarası təşkilatların işində yaxından iştirak edərək, bu gündəliyi daha da zənginləşdirmək üçün təşəbbüslər irəli sürür, qadınlarla bağlı məsələlərdə beynəlxalq əməkdaşlığa güclü dəstək verir. O cümlədən Türk Dövlətləri Parlament Assambleyasının Qadın Parlamentarilər Qrupu Assambleyanın 2019-cu ildə Bakıda keçirilmiş Doqquzuncu Plenar Sessiyasında yaradılıb. Asiya Parlament Assambleyasının hazırkı sədri kimi Milli Məclis Assambleya çərçivəsində Qadınlar üzrə Komissiyanın yaradılmasını təklif edib ki, bu da hazırda üzv parlamentlərin müzakirəsindədir. O cümlədən qadın deputatlarımız bir sıra digər parlament təşkilatlarının, həmçinin Parlamentlərarası İttifaq çərçivəsində Qadın Parlamentarilər Forumunun və Gender Tərəfdaşlığı Qrupunun işində fəal iştirak edirlər.

Çıxışının sonunda spiker Sahibə Qafarova qeyd edib ki, bugünkü müzakirələr beynəlxalq əməkdaşlığın - qadın parlamentarilər arasında birgə fəaliyyətin və ən yaxşı təcrübələrin mübadiləsinin vacibliyini bir daha nümayiş etdirir. O xatırladıb ki, bu ilin iyul ayında İsveçrənin Cenevrə şəhərində Parlamentlərarası İttifaq tərəfindən keçirilmiş Qadın Parlament Sədrlərinin 15-ci Sammiti də bu yanaşmanın zəruriliyini vurğulayıb.

***"Azərbaycan"***

# Kamboca Azərbaycanla əlaqələri daha da inkişaf etdirməkdə maraqlıdır





**Milli Məclisin Sədri Sahibə Qafarova Malayziyaya işgüzar səfəri çərçivəsində sentyabrın 17-də Kamboca Milli Assambleyasının Sədri Xuon Sudari ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyasının Parlamentlərarası Assambleyasının (AİPA) beynəlxalq parlament platforması kimi fəaliyyəti, bu təşkilat çərçivəsində əməkdaşlığın əhəmiyyəti qeyd olunub.

Söhbət zamanı Azərbaycan və Kambocanın dost ölkələr olduğu bildirilib.

Milli Məclisin Sədri Sahibə Qafarova parlament diplomatiyasının, bu çərçivədə parlamentlərimiz arasında münasibətlərin daha da dərinləşdirilməsinin əhəmiyyətini qeyd edib. O, özünün Kambocaya rəsmi səfərini və keçirdiyi görüşlərini xatırladaraq, Milli Məclislə Kamboca Nümayəndələr Palatası arasında imzalanmış Anlaşma Memorandumunun önəmindən bəhs edib.

Görüşdə deputatların qarşılıqlı səfərlərindən, hər iki tərəfdən nümayəndələrin Azərbaycan və Kambocada təşkil olunan tədbirlərdə iştirakından məmnunluq ifadə edilib.

Kamboca Milli Assambleyasının Sədri Xuon Sudari ölkəsinin Azərbaycanla siyasi, iqtisadi, ticari, investisiya və digər sahələrdə əlaqələri daha da inkişaf etdirməkdə maraqlı olduğunu bildirib. O, Milli Məclis Sədrinin AİPA-da iştirakından və onunla Assambleya çərçivəsində görüşməkdən məmnun olduğunu vurğulayıb.

Söhbət zamanı həmçinin beynəlxalq parlament təşkilatları çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olunub. Spiker Sahibə Qafarova Kamboca parlamentinin Azərbaycan Prezidentinin təşəbbüsü ilə yaradılmış Qoşulmama Hərəkatının Parlament Şəbəkəsində fəal iştirakından məmnunluğunu ifadə edib.

Milli Assambleyanın Sədri Xuon Sudari isə Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə görülmüş işləri, həmçinin Parlament Şəbəkəsinin fəaliyyətini yüksək qiymətləndirib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

# İnsan hüquqları komitəsinin payız sessiyasında ilk iclası keçirilib



**Sentyabrın 17-də Milli Məclisin İnsan hüquqları komitəsinin 2025-ci ilin payız sessiyasında ilk iclası keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan komitə sədri Zahid Oruc yeni sessiyanın başlaması münasibətilə komitə üzvlərini təbrik edib, onlara fəaliyyətlərində uğurlar arzulayıb.

Komitə sədri əvvəlcə İnsan hüquqları komitəsinin 2025-ci ilin yaz və növbədənkənar sessiyaları ərzində gördüyü işlər barədə hesabatı təqdim edib. Bildirilib ki, ötən sessiya ərzində 12 iclas keçirilib,16 məsələyə baxılıb, o cümlədən komitəyə vətəndaşlardan ümumilikdə 510 ərizə daxil olub.

Daha sonra Zahid Oruc İnsan hüquqları komitəsinin 2025-ci ilin payız sessiyası üçün iş planının layihəsi barədə məlumat verib. Qeyd edilib ki, qarşıdan gələn sessiyada rəqəmsal və informasiya suverenliyi, həmçinin insan haqları mövzularına diqqət yetiriləcək, qanunvericilik təşəbbüsü əsasında təqdim olunan qanun layihələri müzakirə olunacaq, vətəndaşlarla mütəmadi görüşlər təşkil ediləcək.

Komitənin sədr müavini Arzuxan Əlizadə, üzvləri Mübariz Qurbanlı, Razi Nurullayev, Naqif Həmzəyev, Vüqar Rəhimzadə, Azər Allahverənov, Səyyad Aran, Sevil Mikayılova, Elman Nəsirov və Bəhruz Məhərrəmov müzakirələrdə iştirak edərək məsələlərlə bağlı fikir və təkliflərini bildiriblər.

İclasın sonunda ötən sessiyada komitədə görülmüş işlər qənaətbəxş hesab olunub, 2025-ci ilin payız sessiyası üçün iş planının layihəsi təsdiq edilib.

***"Azərbaycan"***

# Beş Xəzəryanı dövlət Aşqabadda regional əməkdaşlığı müzakirə edib

**Sentyabrın 15-17-də Aşqabad şəhərində Xəzər dənizi məsələləri üzrə Yüksək Səviyyəli İşçi Qrupun (YSİQ) 11-ci iclası keçirilib.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, iclasda Azərbaycan Respublikası (nümayəndə heyətinin rəhbəri - Samir Şərifov), İran İslam Respublikası (nümayəndə heyətinin rəhbəri - K. Qarib Abadi), Qazaxıstan Respublikası (nümayəndə heyətinin rəhbəri - Z.Amanjolova), Rusiya Federasiyası (nümayəndə heyətinin rəhbəri - N.Udoviçenko) və Türkmənistanın (nümayəndə heyətinin rəhbəri - M.Atacanov) nümayəndə heyətləri iştirak edib.

İclasa Türkmənistan nümayəndə heyətinin rəhbəri M.Atacanov sədrlik edib.

Tərəflər Xəzər dənizində düz çıxış xətlərinin metodikasının müzakirəsini davam etdiriblər. İclas zamanı Xəzər dənizində əməkdaşlığın icmalı baş tutub, beştərəfli qarşılıqlı fəaliyyət və müxtəlif səviyyələrdə tədbirlərə hazırlıq məsələləri nəzərdən keçirilib.

Nümayəndə heyətləri görüşün yüksək səviyyədə təşkilinə görə Türkmənistana minnətdarlıqlarını bildiriblər.

YSİQ-nin növbəti iclası Azərbaycan Respublikasında diplomatik kanallarla razılaşdırılacaq tarixdə keçiriləcək.

# İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında 10 məsələ müzakirə olunub

**Sentyabrın 17-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin cari ilin payız sessiyasında ilk iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitə sədri Azər Əmiraslanov iclası açaraq, komitə üzvlərinə qarşıdakı sessiyada uğurlar arzulayıb və gündəliyə 10 məsələnin daxil edildiyini bildirib.**



Müzakirəyə əvvəlcə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində cari ilin yaz və növbədənkənar sessiyaları dövründə görülən işlər barədə hesabatı təqdim edilib. Azər Əmiraslanov bildirib ki, ötən sessiyada komitədə 23 iclas keçirilib, ümumilikdə 90 məsələ müzakirə olunub, həmçinin komitəyə vətəndaşlardan, idarə və təşkilatlardan daxil olan müraciətlərlə bağlı müvafiq tədbirlər həyata keçirilib.

Sonra komitənin cari ilin payız sessiyası üçün iş planı barədə məlumat verilib. Diqqətə çatdırılıb ki, sənəddə qanunvericilik təşəbbüsü qaydasında daxil olan qanun layihələrinə baxılması və digər məsələlər nəzərdə tutulub.

Növbəti iki məsələni - "Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən təmsil olunan Azərbaycan Respublikası Hökuməti ilə Beynəlxalq Telekommunikasiya İttifaqı arasında Ümumdünya Telekommunikasiyanın İnkişafı Konfransının (ÜTİK-25) keçirilməsi, təşkili və maliyyələşdirilməsi ilə bağlı Saziş"in təsdiq edilməsi haqqında və "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən təmsil olunan Azərbaycan Respublikası Hökuməti ilə İslam İnkişaf Bankı Qrupu arasında Azərbaycan Respublikası Hökuməti (ev sahibi ölkə) tərəfindən İİB Qrupunun 2026-cı ildə keçiriləcək illik toplantıları üçün təminatlara dair Anlaşma Memorandumu"nun təsdiq edilməsi haqqında qanun layihələri ilə bağlı məlumatları da komitə sədri Azər Əmiraslanov təqdim edib. Bildirilib ki, layihələr ölkəmizin sözügedən beynəlxalq tədbirlərə evsahibliyinin təminatı məsələlərini tənzimləyir.

Gündəliyin beşinci məsələsi olan "Nəqliyyat-ekspedisiya fəaliyyəti haqqında" qanun layihəsi (birinci oxunuş) barədə rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətov məlumat verib. Bildirilib ki, qanun layihəsi nəqliyyat-ekspedisiya fəaliyyətinin iştirakçıları arasında yaranan münasibətlərin tənzimlənməsi, bu sahədə olan boşluqların tamamilə aradan qaldırılması, daha yüksəkkeyfiyyətli xidmətin göstərilməsi məqsədilə hazırlanıb. Nazir müavini nəqliyyat-ekspedisiya fəaliyyətinin layihədə təsbit olunan hüquqi əsasları, əsas prinsipləri, bu sahənin dövlət tənzimlənməsi mexanizmləri və digər məsələləri barədə məlumat verib.

Gündəliyin altıncı məsələsi olan Mülki Məcəllədə, Ticarət Gəmiçiliyi Məcəlləsində, "Nəqliyyat haqqında" və "Avtomobil nəqliyyatı haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı bildirilib ki, sənəd "Nəqliyyat-ekspedisiya fəaliyyəti haqqında" yeni qanun layihəsindən irəli gələrək hazırlanıb. Belə ki, yeni qanun layihəsindəki yeni məzmunda anlayışların və normaların tələblərindən irəli gələrək iki məcəlləyə və iki qanuna müvafiq dəyişikliklər təklif olunub.

"Avtomobil nəqliyyatı haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı məlumatı da rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətov diqqətə çatdırıb. Bildirilib ki, layihə müntəzəm sərnişindaşıma xidmətlərini yerinə yetirən avtomobil nəqliyyatı üçün dayanacaq məntəqələrinin yerlərinin müəyyənləşdirilməsi, onların quraşdırılması və idarə olunması sahəsində qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə hazırlanıb və bu sahədə vahid səlahiyyətli qurumun müəyyən edilməsini nəzərdə tutub.

"İpoteka haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində olan "Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri" Publik Hüquqi Şəxsin departament direktoru Lalə Əkbərova məlumat verib. Qeyd olunub ki, sənəddə ipotekaya dair tələblərin ödənilməsində üstünlük hüququnun dəyişdirilməsi barədə müqavilənin notariat qaydasında təsdiq edilməsi və üstünlük hüququnun dövlət reyestrində qeydiyyata alınması təklif olunub.

9-cu məsələ olan Vergi Məcəlləsində və "Gömrük tarifi haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) İqtisadiyyat Nazirliyinin şöbə müdirinin müavini Elxan Şiriyev təqdim edib. Layihədə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) yaratdığı sənaye parkında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) müəyyən etdiyi fəaliyyətlə məşğul olan sənaye parkının rezidentinin sənaye parkındakı həmin fəaliyyətdən əldə etdiyi mənfəətə, sənaye parkındakı əmlakına görə vergilərdən azadolmanı, eyni zamanda malların idxalı üçün gömrük rüsumundan azadolmanı 2030-cu ilədək uzadılması təklif olunub.

Gündəliyin sonuncu - "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Ətraf mühitin mühafizəsi haqqında", "Dövlət rüsumu haqqında", "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" və "Standartlaşdırma haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin şöbə müdiri Elməddin Quliyev məlumat verib. Qeyd olunub ki, layihə uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya sisteminin beynəlxalq təcrübəyə və standartlara uyğunlaşdırılmasını nəzərdə tutur.

Gündəlikdəki məsələlərin müzakirəsində İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini Azər Badamov, komitə üzvləri Vüqar Bayramov, Əli Məsimli, Aydın Hüseynov, Ziyad Səmədzadə, Tahir Mirkişili, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Baş idarə rəisi Nicat İmanov, Əmlak Məsələləri Dövlət Xidmətinin şöbə müdiri Yeganə Balakişiyeva çıxış ediblər, rəy və təkliflərini bildiriblər.

İclasda ötən sessiyada komitədə görülmüş işlər məqbul hesab olunub, komitənin qarşıdakı sessiya üçün iş planı təsdiqlənib və qanun layihələrinin hamısı baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə edilib.

***"Azərbaycan"***



# Qlobal dialoqlar məkanı

## Qarabağ və Şərqi Zəngəzur ali görüşlərin ünvanına çevrilib






**Vətən müharibəsindəki Zəfərimizdən və suverenliyimizin tam bərpasından sonra Qarabağ və Şərqi Zəngəzur tikinti-quruculuq ünvanı ilə yanaşı, beynəlxalq tədbirlərin, ali görüşlərin ünvanına çevrilib.**

Prezident İlham Əliyevin rəhbərliyi altında baş verən tarixi dəyişikliklər, Qarabağ və Şərqi Zəngəzurun yalnız ölkənin içində deyil, dünya səhnəsində də əhəmiyyətini artırmağa davam edir. Bu gün Qarabağ və Şərqi Zəngəzur həm də beynəlxalq tədbirlərin təşkil olunduğu, diplomatik əlaqələrin genişləndiyi və yeni əməkdaşlıq imkanlarının yaradıldığı məkana çevrilir.

Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasından sonra Qarabağda aparılan genişmiqyaslı bərpa və yenidənqurma işləri bölgənin iqtisadi, mədəni və siyasi əhəmiyyətini daha da artırıb. Bu proses bölgənin beynəlxalq tədbirlərə evsahibliyi etmək potensialını da ön plana çıxarır.

Şuşa şəhəri Azərbaycanın qələbəsi ilə bərpa edilmiş milli və mədəni irsin simvolu olmaqla yanaşı, həm də beynəlxalq səviyyədə mühüm bir diplomatik məkana çevrilməkdədir. 2023-cü ildə TÜRKSOY tərəfindən "Türk Dünyasının Mədəniyyət Paytaxtı" elan olunmuş Şuşa, həmçinin Qlobal Media Forumu və digər beynəlxalq tədbirlərlə dünyanın diqqətini cəlb edib. Şuşada keçirilən tədbirlər, Azərbaycanın Qarabağı dünyaya tanıtmaq və regionun yenidən qurulmasına dair beynəlxalq dəstək almaq istiqamətindəki diplomatik səylərinin mühüm bir hissəsidir.

Bu tədbirlərdə iştirak edən xarici nümayəndə heyətləri Qarabağda həyata keçirilən genişmiqyaslı bərpa işləri və humanitar proqramlarla tanış olurlar. Bu da onu bir daha təsdiq edir ki, dövlətimizin qarşısında duran əsas məqsəd yalnız iqtisadi və sosial inkişafı təmin etmək deyil, həm də regionun beynəlxalq siyasi müstəvidə qəbul edilməsini və burada mövcud olan hərtərəfli inkişaf potensialının göstərilməsini təmin etməkdir.

Son 5 ilə yaxın müddətdə Qarabağ və Şərqi Zəngəzurda inşa edilən sosial-iqtisadi infrastrukturlar beynəlxalq şirkətlərin, böyük dövlətlərin də marağına səbəb olub. Təkcə Füzuli, Zəngilan və Laçın Beynəlxalq Hava Limanlarının istifadəyə verilməsi, Qarabağın beynəlxalq tədbirlər üçün hazırlığını tamamlayan mühüm addımlar arasında yer alır. Bu hava limanları yalnız sərnişin daşınmasını asanlaşdırmaqla kifayətlənmir, həm də regionun qlobal iqtisadiyyatla inteqrasiyasına, xarici investisiyaların cəlb edilməsinə və beynəlxalq səviyyədə əməkdaşlıq üçün yeni yollar açılmasına xidmət edir.

Azərbaycanın regionda həyata keçirdiyi bərpa işləri təkcə fiziki infrastrukturu deyil, həm də beynəlxalq diplomatiya və təhlükəsizlik sahələrindəki mövqeyini möhkəmləndirir. Qarabağda keçirilən beynəlxalq forumlar bu istiqamətdə - atılan mühüm addımlardan biridir. Bu cür tədbirlər Qarabağda yalnız iqtisadi inkişafı deyil, həm də regional və beynəlxalq əməkdaşlıq mühitinin formalaşmasına yardımçı olur.

Azərbaycanın diplomatik fəallığı Qarabağ və Şərqi Zəngəzurun beynəlxalq səhnədə tanınması və beynəlxalq münasibətlərdəki mövqeyinin möhkəmləndirilməsi məqsədinə xidmət edir. Xarici dövlətlərin diplomatik nümayəndələri, beynəlxalq təşkilatların rəhbərləri və ekspertlər mütəmadi olaraq işğaldan azad edilən ərazilərə səfərlər edərək, burada həyata keçirilən bərpa və inkişaf layihələri ilə tanış olurlar.

Azərbaycanın xarici siyasətinin prioritetlərindən biri də Qarabağ və Şərqi Zəngəzurun beynəlxalq aləmdə tanınması və buradakı inkişaf proseslərinə beynəlxalq dəstəyin təmin edilməsidir. Bu siyasət ölkəmizin regional və qlobal səviyyədə nüfuzunu daha da artırır.

Bu gün Qarabağ və Şərqi Zəngəzur artıq münaqişə zonası deyil, əksinə, sülh və əməkdaşlıq mərkəzinə çevrilməkdədir. Azərbaycan dövləti, burada hərtərəfli inkişafın təmin edilməsi və insanların həyat şəraitinin yaxşılaşdırılması ilə yanaşı, beynəlxalq təhlükəsizliyə də mühüm töhfə verir. Qarabağda həyata keçirilən yenidənqurma işləri, ölkəmizin sülh və təhlükəsizlik sahəsindəki mühüm strategiyalarını dəstəkləyir.

Həyata keçirilən siyasətin məqsədi həm də bölgənin gələcəkdə barış, inkişaf və əməkdaşlıq platformasına çevrilməsini təmin etməkdir. Bu məqsədlə, dövlətimizin beynəlxalq tədbirlərdə fəal iştirak etməsinə, regionda yeni əməkdaşlıq imkanlarının yaranmasına yol açır.

Prezident İlham Əliyevin rəsmi qəbullarını da Qarabağ və Şərqi Zəngəzurda keçirməsi ənənə halını alıb.

Gəlin son 5 ayda dövlət başçısının Qarabağ və Şərqi Zəngəzurda reallaşan tədbirlərdə iştirakına, burada keçirdiyi rəsmi qəbullara diqqət edək:

* Mayın 27-də Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif Laçına səfər edib. Prezident İlham Əliyevlə Məhəmməd Şahbaz Şərifin məhdud və nahar əsnasında geniş tərkibdə görüşü olub.
* Azərbaycanla Pakistan arasında ikitərəfli görüşdən sonra mayın 28-də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da Laçına gəlib. Laçında Azərbaycan Prezidentinin Türkiyə Prezidenti ilə təkbətək görüşü olub. İki qardaş Prezidentin iştirakı ilə Laçın Beynəlxalq Hava Limanının açılış mərasimi keçirilib.
* Laçında Azərbaycan-Türkiyə-Pakistan üçtərəfli formatında Zirvə görüşü keçirilib. Bu görüş ölkələrimiz arasında qardaşlığın və dostluğun növbəti bariz təzahürü kimi qiymətləndirilib.
* Mayın 28-də Laçında Müstəqillik Gününə həsr olunmuş konsert keçirilib. Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif konsertdə iştirak ediblər.
* İyul ayının 3-də Prezident İlham Əliyev Xankəndidə Türkmənistanın Nazirlər Kabineti Sədrinin müavini, xarici işlər naziri Rəşid Meredovu qəbul edib.
* İyulun 3-də Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Qarabağa səfər edib. Prezidentlər Xankəndi şəhərindəki Azərbaycan-Özbəkistan birgə müəssisəsi olan "Businesstex JV" tikiş fabrikinin fəaliyyəti ilə tanış olublar.















* İyulun 3-də Qırğız Respublikasının Prezidenti Sadır Japarov Qarabağa səfər edib. Prezident İlham Əliyevlə Sadır Japarov Ağdam rayonunun Xıdırlı kəndinin 1-ci mərhələsinin açılışında iştirak ediblər.
* Prezident İlham Əliyev, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov Ağdamda Şahbulaq qalasında olublar.
* Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar da iyulun 3-də Qarabağa səfər edib.
* İyulun 3-də Prezident İlham Əliyev, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, Qırğız Prezidenti Sadır Japarov, Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar və İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) Xankəndi şəhərində keçirilən 17-ci Zirvə görüşünün iştirakçıları Ağdamdakı "İmarət" Tarix-Memarlıq Muzey Kompleksində Qarabağ atlarının "Zəfər" şousunu izləyiblər.
* İyulun 4-də Prezident İlham Əliyev Xankəndidə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşüb.
* İyulun 4-də Prezident İlham Əliyev Xankəndidə İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianla görüşüb.
* İyulun 4-də Xankəndidə Prezident İlham Əliyevin Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şəriflə görüşü keçirilib.
* Prezident İlham Əliyev həmin gün, həmçinin Xankəndidə Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabirin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.
* İyulun 4-də Xankəndi şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşü keçirilib.
* Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov iyulun 17-də Füzuli rayonuna səfər edib. Qurbanqulu Berdiməhəmmədovu Prezident İlham Əliyev qarşılayıb. Prezidentlər Şuşa şəhərində inşa edilmiş birinci yaşayış kompleksində olublar.
* İyulun 19-da Prezident İlham Əliyevin Xankəndidə "Rəqəmsal keçidlər: Süni intellekt dövründə informasiya və media dayanıqlılığının gücləndirilməsi" mövzusunda III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşü keçirilib. Prezident İlham Əliyev forum iştirakçılarının suallarını cavablandırıb.
* Prezident İlham Əliyev sentyabrın 15-də Şuşada ICESCO-nun Baş direktoru Səlim bin Məhəmməd əl-Maliki qəbul edib. Söhbət zamanı ICESCO-nun Baş direktorunun ölkəmizə, o cümlədən Şuşaya səfərləri və dövlətimizin başçısı ilə görüşləri məmnunluqla xatırlanıb.
* Prezident İlham Əliyev sentyabrın 15-də Şuşada Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Selçuk Bayraktaroğlunu qəbul edib. Görüşdə ölkələrimiz arasında qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin bütün istiqamətlərdə, o cümlədən hərbi sahədə uğurla inkişaf etdiyi vurğulanıb.
* Sentyabrın 16-da Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan Azərbaycana rəsmi səfərə gəlib. Füzuli Beynəlxalq Hava Limanında ali qonağı Prezident İlham Əliyev qarşılayıb. Hava Limanında Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə işğaldan azad olunmuş ərazilərimizdə inşa edilmiş Füzuli, Zəngilan və Laçın Beynəlxalq Hava limanları haqqında məlumat verilib. Həmin gün Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinin Şuşada rəsmi qarşılanma mərasimi olub. Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti ilə təkbətək və geniş tərkibli görüşü olub. Ali qonağa Şuşada mövcud olan infrastrukturlarla bağlı ətraflı məlumat verilib.

Göründüyü kimi, Şuşa, Xankəndi, Füzuli, Laçın təkcə yaşayış məntəqəsi deyil, həm də beynəlxalq əməkdaşlıq və fəal qlobal dialoq məkanına çevrilib. Burada keçirilən yüksəksəviyyəli forumlar, iqtisadi konfranslar və işgüzar tədbirlər şəhərlərin regional əhəmiyyətini və iqtisadi potensialını bir daha ön plana çıxarır.

Bu baxımdan İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşünün məhz Azərbaycanda, Xankəndidə keçirilməsi və təşkilata üzv ölkələrin rəhbər şəxslərinin iştirakı ilə reallaşması olduqca rəmzi xarakter daşıyır. Zirvə görüşündə regionun gələcəyinə dair aparılan müzakirələr Azərbaycanın açıq əməkdaşlığa, davamlı inkişafa və qarşılıqlı tərəfdaşlığa əsaslanan mövqeyinin daha bir əyani təzahürüdür.

Qarabağ və Şərqi Zəngəzurda aparılan ardıcıl və planlı bərpa-quruculuq tədbirləri çərçivəsində Xankəndi, Şuşa, Laçın şəhərləri iqtisadi fəallığın artdığı əhəmiyyətli mərkəzlərdən birinə çevrilməkdədir. Burada biznes və sahibkarlıq mühitinin dirçəldilməsi, yeni əməkdaşlıq imkanlarının formalaşması dövlətin təşviq etdiyi prioritetlər sırasındadır. Xüsusilə də dövlət qurumları ilə özəl sektor arasında qurulan etibarlı tərəfdaşlıq modeli şəhərlərin uzunmüddətli iqtisadi inkişafını təmin edəcək əsas mexanizmlərdən biri hesab olunur.

Bütün bu proseslər göstərir ki, Qarabağ və Şərqi Zəngəzur təkcə bərpaolunan iqtisadi rayonlar deyil, eyni zamanda ölkənin gələcək inkişaf modelinin parlaq nümunəsidir. Burada həyata keçirilən məqsədyönlü layihələr, qurulan yeni əməkdaşlıqlar və formalaşan iqtisadi mühit həm yerli əhali üçün dayanıqlı yaşam imkanları yaradır, həm də regionda sabitlik və tərəqqiyə xidmət edən mühüm addımların atıldığını nümayiş etdirir.

Bir sözlə, Azərbaycan Prezidentinin Şuşa və Xankəndidə, Laçında keçirdiyi görüşlər, iştirak etdiyi beynəlxalq toplantılar, qəbullar onu deməyə əsas verir ki, Qarabağ və Şərqi Zəngəzur həm də ali görüşlərin ünvanına çevrilir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

**Bərpaolunan, tarixi şöhrətini özünə qaytaran Qarabağ həm də yüksək və ali səviyyəli görüşlərə, ən mötəbər beynəlxalq tədbirlərə evsahibliyi edir. Bu günlərdə Azərbaycana rəsmi səfər edən Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın təyyarəsinin Füzuli Beynəlxalq Hava Limanına enməsi, ali qonağın Şuşa şəhərində rəsmi qarşılanması bir daha təsdiq etdi ki, həm işğaldan azad edilmiş torpaqlarımız sürətlə dirçəlir, həm də beynəlxalq ictimaiyyət Azərbaycanın yaratdığı reallıqları tam qəbul edir.**



# Azərbaycan-BƏƏ əlaqələri yeni mərhələyə qədəm qoyur

## Dostluğun təcəssümü

Yalnız Yaxın Şərqin deyil, bütün Asiyanın yüksək iqtisadi göstəricilərinə malik olan BƏƏ ilə Azərbaycanı yüksək siyasi, iqtisadi əlaqələr birləşdirir. Yalnız yerləşdiyi coğrafiyada deyil, bütün Avrasiyada bir çox iqtisadi cəhətləri ilə fərqlənən BƏƏ Azərbaycanın dövlət müstəqilliyini 1991-ci ilin dekabr ayında tanıyıb və iki dövlət arasındakı əlaqələr ortaq mənəvi dəyərlərə söykənərək daim yüksələn xətlə inkişaf edir.

Azərbaycanla BƏƏ arasında ali və yüksək səviyyədə qarşılıqlı səfərlər və fəal təmaslar, eləcə də beynəlxalq platformalarda səmərəli əməkdaşlıq, aktiv parlament diplomatiyası və müxtəlif sahələrdə dinamik fəaliyyət ikitərəfli əlaqələrin strateji tərəfdaşlıq səviyyəsinə qalxmasına gətirib çıxarıb. Yüksək siyasi münasibətlər, BƏƏ sərmayələrinin iri həcmdə dövlətimizin xüsusən də bərpaolunan enerji sahəsinə qoyulmasını, o cümlədən Azərbaycan və BƏƏ ümumvətəndaş pasportlarının qarşılıqlı olaraq viza rejimindən azad edilməsini və ölkələrimiz arasında aktiv ticari-iqtisadi əməkdaşlığı şərtləndirən başlıca amildir. Bu gün iki dövlət güclü siyasi əlaqələrə malikdir və ticari-iqtisadi sahədə geniş əməkdaşlıq həyata keçirir. Azərbaycana xaricdən məhsul idxalında, o cümlədən respublikamızın ixracatında BƏƏ əsas dövlətlərdən biridir. "Made in Azerbaijan" brendini BƏƏ bazarında daha çox tanıtmaq üçün bu ölkədə "Azərbaycan Ticarət Evi" fəaliyyət göstərir.

İstər ikitərəfli əsasda, istərsə də beynəlxalq təsisatlar çərçivəsində BƏƏ Azərbaycanın ərazi bütövlüyünü daim dəstəkləyib.

Xüsusilə qeyd edilməlidir ki, Azərbaycanla-BƏƏ arasındakı əlaqələrin inkişafına təsir edən ən böyük amil hər iki ölkə rəhbərinin siyasi iradəsidir. Xatırladaq ki, bu il ərzində Azərbaycan və BƏƏ prezidentləri 3 dəfə görüşüblər. Belə ki, il ərzində Prezident İlham Əliyev iki dəfə BƏƏ-yə, Şeyx Məhəmməd bin Zayed Al Nəhyan isə bir dəfə Azərbaycana səfər edib.

Bu ilin yanvarında Prezident İlham Əliyev BƏƏ-yə səfəri zamanı Prezident Şeyx Məhəmməd bin Zayed Al Nəhyanla görüşüb, Əbu-Dabi Dayanıqlılıq Həftəsinin rəsmi açılışı və Zayed Dayanıqlılıq Mükafatının təqdimat mərasimində iştirak edib. Prezident İlham Əliyevin BƏƏ-yə iyul ayında etdiyi səfər isə bir daha iki ölkə arasındakı münasibətlərin dostluq və qardaşlığa əsaslandığını, strateji tərəfdaşlıq xarakteri daşıdığını, siyasi münasibətlərin yüksək səviyyədə olduğunu, iqtisadi-ticari əməkdaşlığın inkişaf etdiyini göstərdi. Məhz bu səfər zamanı "Azərbaycan Respublikası Hökuməti ilə Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında Hərtərəfli İqtisadi Tərəfdaşlıq Sazişi" imzalanıb.

Sentyabrın 16-da Şuşada keçirilən görüşdə prezidentlərin bir-birinə qardaşım deyə müraciət etmələri isə həm də iki dövlət və onların liderləri arasındakı dostluğun və səmimiyyətin təcəssümünə çevrildi.

## İlham ƏLİYEV: "İmzalanmış çoxsaylı sənədlər bizim əlaqələrimizi yeni səviyyəyə qaldıracaq"

Ümumiyyətlə Azərbaycanla BƏƏ arasındakı əlaqələr son dövrlər daha da inkişaf edib, yeni tərəfdaşlıq istiqamətləri formalaşıb. Bu sırada "yaşıl enerji" istehsalı sahəsində formalaşan əməkdaşlıq əlaqələrə yeni çalar qatıb. BƏƏ-nin "Masdar" şirkəti tərəfindən ölkəmizdə 230 MVt gücündə Qaradağ Günəş-Elektrik Stansiyası inşa olunub. Bu, Xəzər regionunda və MDB məkanında ən böyük günəş elektrik stansiyasıdır.

Qaradağ Günəş-Elektrik Stansiyasının açılış mərasimində Prezident İlham Əliyev əmin olduğunu bildirmişdi ki, Birləşmiş Ərəb Əmirlikləri ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələri uğurla inkişaf etməkdə davam edəcək. Aradan ötən qısa dövrün mənzərəsi Prezident İlham Əliyevin bu sözlərini təsdiqləyir. Eyni zamanda 2023-cü ildə COP-a sədrlik BƏƏ-dən Azərbaycana keçdi və iki dövlət bu sahədə də uğurlu əməkdaşlıq həyata keçirdilər. İki dövlət arasında qeyri-neft sektorunda ticarət dövriyyəsi isə 2024-cü ildə 2,24 milyard dollara qədər artıb.

BƏƏ Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın ölkəmizə səfəri zamanı mübadilə edilən "Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında Hərtərəfli Strateji Tərəfdaşlıq Əlaqələri haqqında Birgə Bəyannamə" isə iki dövlətin strateji tərəfdaşlığını daha da möhkəmləndirdi. Birgə Bəyannamə həm də əlaqələrin tamamilə yeni mərhələyə qədəm qoyması deməkdir. Eyni zamanda bu sənəd hər iki tərəfin qarşılıqlı münasibətləri daha yüksək səviyyəyə qaldırmaq iradəsini əks etdirir.

Bununla yanaşı, səfər çərçivəsində müxtəlif sahələrdə əməkdaşlıq əlaqələrinin yaradılmasını və inkişafını əhatə edən daha 13 sənəd mübadilə edilib. Prezident İlham Əliyevin Şuşada Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə geniş tərkibdə görüşdə qeyd etdiyi kimi imzalanmış çoxsaylı sənədlər əlaqələri yeni səviyyəyə qaldıracaq: "Bizim əlaqələrimiz qardaşlıq, dostluq üzərində qurulub. Bu gün imzalanmış çoxsaylı sənədlər bizim əlaqələrimizi yeni səviyyəyə qaldıracaq. İmzalanmış hər bir sənəd böyük əhəmiyyət daşıyır. Onların arasında xüsusilə Hərtərəfli Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannaməni qeyd etmək istərdim. Bu, bizim siyasi əlaqələrimizi ən yüksək zirvəyə qaldıran bir sənəddir".

Prezident Şeyx Məhəmməd bin Zayed Al Nəhyanın Azərbaycana rəsmi səfəri iki dövlət arasındakı münasibətlərin daha da inkişafına töhfələr verəcək, əməkdaşlığı genişləndirəcək.

Onu da qeyd edək ki, BƏƏ-nin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyan səfər zamanı Füzuli və Şuşa şəhərlərində həm də Ermənistanın işğalçı siyasətinin təzahürlərinə şahidlik etdi. Eyni zamanda ona şahid oldu ki, Azərbaycan dövləti işğaldan azad etdiyi bu əraziləri sürətlə dirçəldir, onlara yeni həyat bəxş edir.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*




# Lokal xarakterli antiterror tədbirləri suverenliyimizi tam bərpa etdi

**İlin, ayın bütün günləri tarix deyil, sadəcə vaxtdır, zamandır. Zamanı illərin, ayların, yaddaşına öz möhürünü vurub əbədilik ömrü qazanan hadisələr tarix edir. 2020-ci ilə kimi sentyabr sıradan bir təqvim ayı, payız fəslinə keçid, yeni dərs ilinin başlanğıcı kimi yaddaşlarda yer alırdısa, 2020-ci ildən sonra sentyabr xalqımızın hafizəsinə qəhrəmanlıq tariximizin yeni səhifəsinin yazıldığı, gənclərimizin torpaq uğrunda ölüm-dirim savaşına can atdığı, ölkəmizin suverenliyinin tam bərpa olunduğu bir tarixi an kimi həkk oldu. Bu gün sentyabr ayı haqqında düşünəndə istər-istəməz müqəddəs bir təqvimə assosiasiya oluruq. Artıq sentyabr sadəcə bir təqvim ayı yox - Azərbaycan xalqı üçün Zəfər ayıdır.**

30 il torpaqlarımızı işğalda saxlayan, daim silahlı təxribatlar törədən Ermənistan silahlı qüvvələrinin növbəti təxribatına qarşı 27 sentyabr 2020-ci ildə Ali Baş Komandan İlham Əliyevin əmri ilə əks-hücum əməliyyatına başlayan Azərbaycan Ordusu illərlə ərazilərində hərbi istehkamlar qurub, möhkəmlənən Ermənistan silahlı birləşmələrini 44 gün ərzində darmadağın etdi. Azərbaycan BMT Nizamnaməsindən irəli gələn özünümüdafiə hüququndan istifadə edərək Vətən müharibəsində Ermənistanı döyüş meydanında məğlubiyyətə uğratdı və BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il ərzində kağız üzərində qalan dörd qətnaməsinin icrasını özü təmin etdi.

10 noyabr 2020-ci ildə Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması məqsədilə Azərbaycan-Ermənistan və Rusiya Federasiyasının rəhbərləri üçtərəfli Bəyanat imzaladılar. Həmin bəyanata əsasən, Ermənistan silahlı qüvvələri birmənalı olaraq Azərbaycan ərazisini tərk etmək öhdəliyi götürsə də, düz üç il ərzində nəinki şərtlər yerinə yetirilmədi, əksinə, separatçıların sıx cəmləşdiyi torpaqlarımızda istehkamlar quruldu, əlavə olaraq yüzlərlə ağır döyüş texnikası yerləşdirildi və qanunsuz hərbi dəstələrin sayı artırıldı. Bu zaman kəsiyində Azərbaycanın dəfələrlə xəbərdarlıqlar etməsinə, sülh çağırışları irəli sürməsinə baxmayaraq, separatçı rejim öz mövqeyindən geri çəkilmədi. Qarabağda yerləşən qanunsuz hərbi birləşmələr hər gün atəşkəsi pozur, sərhəd bölgələrindən həyəcanlı xəbərlər gəlirdi. Atəşkəs razılaşmasından sonra - 2021-ci ilin noyabrında sərhəddə birinci silahlı toqquşmalar baş verdi. 2022-ci ilin sentyabrında sərhəddə baş verən hər iki tərəfdən çoxsaylı insan həyatına son qoyan qanlı toqquşma İkinci Qarabağ müharibəsindən sonra ən qanlı hadisə kimi tarixləşdi. 2023-cü ildə tərəflər arasında toqquşmalarla müşayiət olundu. Erməni silahlıları mart ayında Şuşa istiqamətində, apreldə və mayda sərhəd bölgələrində silahlı toqquşma yaratdılar.



Üçtərəfli Bəyanatda Ermənistan öz qoşunlarını Azərbaycan ərazisindən tam şəkildə çıxarmaq öhdəliyini öz üzərinə götürmüşdü. Bununla kifayətlənməyən Ermənistan 2020-ci ildə atəşkəsdən sonra istehsal etdiyi minaları qanunsuz yollarla Rusiya sülhməramlılarının nəzarətində olan ərazilərə yerləşdirdi. Təmas xətti boyunca 480 kilometr yeni minalanmış ərazilər, 500-dən artıq döyüş mövqeyi və möhkəmləndirilmiş uzunmüddətli atəş nöqtəsi, müxtəlif tipli artilleriya qurğuları üçün 350-dən artıq atəş mövqeyi, kəşfiyyat-müşahidə vasitələri quraşdırıldı. Bundan başqa, Ermənistan ərazidə hücum əməliyyatlarını yerinə yetirə bilən hərbi qüvvələr də cəmləşdirdi.

2023-cü il aprelin 23-də Azərbaycanın Dövlət Sərhəd Xidməti 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata zidd olaraq Ermənistandan Azərbaycan ərazisində olan qeyri-qanuni erməni silahlı dəstələri üçün canlı qüvvə, silah-sursat, mina, eləcə də digər hərbi təyinatlı vasitələrin daşınmasının qarşısının alınması məqsədilə Azərbaycanın suveren ərazilərində, Ermənistanla sərhəddə, "Laçın" nəzarət-buraxılış məntəqəsini yaratdı.

Ermənistanın məqsədli şəkildə həyata keçirdiyi təxribatçı hərəkətlərə, edilən bütün xəbərdarlıqlara rəğmən, rəsmi İrəvanın qanunsuz xunta rejimini qoruyub saxlamaq cəhdi, separatçı rejimin maliyyələşdirilməsi, eyni zamanda hərbi, siyasi, ideoloji və digər sahələrdə ona edilən yardımlar ölkəmizin ərazi bütövlüyünə, suverenliyinə və təhlükəsizliyinə təhlükə yaradırdı. Ermənistanın baş naziri Nikol Paşinyanın separatçıların lideri Samvel Şahramanyanı təbrik etməsi, həmçinin sentyabrın 19-da Azərbaycanın Qarabağ bölgəsindəki qanunsuz erməni silahlı qüvvələrinin bir sıra genişmiqyaslı hərbi təxribatlar və terror aktları həyata keçirməsi, Xocavənd rayonu ərazisində mina partlayışları nəticəsində Daxili İşlər Nazirliyinin polisləri də daxil olmaqla 9 nəfərin həyatını itirməsi Azərbaycanı Qarabağda lokal xarakterli antiterror əməliyyatı keçirməyə məcbur edən səbəblər oldu.

Azərbaycan Ordusu Qarabağda lokal xarakterli antiterror tədbirləri keçirməklə dünya hərb tarixində bir ilkə imza atdı. Cəmi 23 saat 43 dəqiqə ərzində erməni separatçıları ağ bayraq qaldırmağa məcbur oldular. Hərbi əməliyyatlar sentyabrın 20-də saat 13:00-da əldə olunan razılığa əsasən dayandırıldı.

Sentyabrın 21-də Qarabağın erməni əhalisinin nümayəndələri ilə Yevlaxda keçirilən görüş zamanı Azərbaycanın Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələri birləşmələrinin, qeyri-qanuni erməni silahlı dəstələri silahı yerə qoyması, döyüş mövqelərindən və hərbi postlardan çıxması, Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərini tərk etməsi, qeyri-qanuni erməni silahlı dəstələrinin buraxılması, paralel formada bütün silah-sursat təhvil verilməsi və bütün bu proseslərin Rusiya Sülhməramlı Kontingenti ilə əlaqələndirilmiş formada aparılması barədə razılıq əldə olundu.

24 saatdan az davam edən antiterror əməliyyatı nəticəsində Azərbaycan ərazisində qanunsuz yerləşdirilmiş Ermənistan silahlı birləşmələri tərksilah olundu və ölkəni tərk etdi. İllərdir Qarabağda qeyri-qanuni fəaliyyət göstərən xunta rejimi ləğv edildi, xalqlar arasında düşmənçilk yaradan separatçıların əsas rəhbərləri həbs olundu. Azərbaycan dövlət suverenliyini tam bərpa etdi. Xankəndi, Xocalı, Ağdərə, Xocavənd, Əsgəranda üçrəngli bayrağımız yüksəldilərək suverenliyimiz tam bərpa edildi.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# Qərbi Azərbaycan İcması və onun fəaliyyəti ilə bağlı yayılan məlumatlar yanlışdır

## Bu qurum məqsədlərindən geri çəkilməyəcək

**Dünya ictimaiyyətinin, ünlü siyasətçilərin və analitiklərin diqqət mərkəzində olan 8 avqust 2025-ci il tarixli Vaşinqton razılaşmasından sonra Qərbi Azərbaycan İcmasının fəaliyyəti ilə bağlı müxtəlif iddialar səsləndirilib. Onlardan biri də icmanın ləğv ediləcəyi ilə bağlı olub. Digər iddia isə Milli Məclisdə yaradılmış Qərbi Azərbaycana Qayıdış üzrə Təşəbbüs Qrupunun ləğv edilməsi ilə əlaqədardır. Hətta buna görə Qərbi Azərbaycan İcmasının operativliyinin və fəallığının nisbətən zəiflədiyi, habelə Qərbi Azərbaycanla bağlı işlərin yarıda dayanacağı fikrində olanlar da tapıldı.**

Bu məsələlərlə bağlı Qərbi Azərbaycan İcmasının sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli mətbuata açıqlamasında demişdir:

- Təbii ki, bunlar həqiqətə uyğun deyil. Şübhəsiz ki, bu yanlış informasiyanın mənbəyi Ermənistan mediasıdır. İcmanın işi beynəlxalq konvensiyalarda təsbit olunmuş insan hüquqlarının, qayıdış hüququnun təmin edilməsinə yönəlmiş ictimai fəaliyyətdir. Bu mənada, icmanın fəaliyyətinin dövlətlərarası münasibətlərlə, sülh sazişi ilə birbaşa əlaqəsi yoxdur.

İndi isə eyni iddia Milli Məclisdəki Qərbi Azərbaycanla bağlı Təşəbbüs Qrupu haqqında söylənilir ki, bu da tamamilə absurddur. Təşəbbüs Qrupu bir il ərzində Qərbi Azərbaycan həqiqətlərinin və soydaşlarımızın doğma yurdlarına qayıdış hüququnun beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində parlament diplomatiyasının imkanlarından istifadə edərək səmərəli fəaliyyət göstərib, bundan sonra da göstərəcək. Onun öz fəaliyyətini dayandırmasına heç bir zərurət görünmür.

O ki qaldı Qərbi Azərbaycan İcmasının fəaliyyətində zəifləmə, ya hər hansı bir istiqamətində səngiməyə bu, mümkünsüzdür. Əksinə, son aylarda Qərbi Azərbaycan İcması üzvlüyünə daxil olanların sayında artım olub, regionlarda çoxlu Qərbi Azərbaycanəsilli soydaşlarımızla görüşlər keçirilib. Təkcə iyul ayında icmanın nəşr elədiyi tarixi torpaqlarımızda milli-mənəvi dəyərlərimizə qarşı erməni soyqırımına dair "Qərbi Azərbaycan irsi" kitabının Azərbaycanın 84 şəhər və rayonunda yüksək səviyyədə təqdimatları keçirilib. O ki qaldı bəyanatlara, bildiyiniz kimi, Vaşinqton görüşlərinə qədər Ermənistan tərəfdən Azərbaycana qarşı saysız-hesabsız əsassız iftira və ittihamlar səsləndirilirdi. Hətta bu, çox vaxt Ermənistanın müxtəlif dövlət rəsmiləri tərəfindən edilirdi və bu zaman qərbi azərbaycanlıların qayıdış hüququ ya inkar olunur, ya da gözardı edilirdi. Biz də Qərbi Azərbaycan İcması olaraq öz hüquqlarımızı müdafiə etmək məcburiyyətində idik. Vaşinqton görüşlərindən sonra isə qarşı tərəfdə bu məsələ ilə bağlı bir qədər konstruktivlik cəhdləri hiss olunmaqdadır, artıq erməni cameəsində qərbi azərbaycanlıların öz doğma evlərinə qayıtmaq məsələsi də müzakirə mövzusuna çevrilib, hətta bu məsələnin qaçılmaz olduğunu etiraf edənlər də var. Ona görə biz də proseslərə adekvat münasibət sərgiləməyi məqsədəuyğun bilirik. Lakin bu, "Qərbi Azərbaycan İcması öz məqsədindən geri çəkilir" anlamında başa düşünülməməlidir, bizim işimiz haqq işidir, beynəlxalq hüquqa söykənir və soydaşlarımızın qayıdış hüququ tanınmalı və təmin edilməlidir.

Onu da qeyd etmək yerinə düşər ki, yuxarıda adları çəkilən uydurmalar ayaq tutub yeriməmiş bəzi media orqanlarında Qərbi Azərbaycan İcması və Qərbi Azərbaycan (TV) ilə bağlı həqiqətə uyğun olmayan məlumatlar dərc edilib. Təəssüf ki, həmin yazılarda ictimaiyyət arasında yanlış təsəvvür formalaşdırmağa yönəlmiş ifadələrə də yer verilib.

Qərbi Azərbaycan İcmasından redaksiyamıza daxil olan məlumatda bildirilir ki, bəzi məqalələrdə adıçəkilən "Qərbi Azərbaycan İcması (TV)" adlı heç bir təşkilat mövcud deyil. Burada məqsədli şəkildə adın təhrif edilməsi ilə icmaya bağlı olmayan səhifələr üzərindən çaşqınlıq yaratmağa cəhd göstərilib.

Qərbi Azərbaycan TV yayımlarında yalnız icmanın rəsmi loqosundan istifadə edir. Təəssüf ki, sosial şəbəkələrdə eyni adda, lakin rəsmi status daşımayan səhifələr mövcuddur. Bəzi saytlar mənbəni dəqiqləşdirmədən həmin səhifələrin paylaşımlarını əsas götürərək ictimaiyyəti yanlış məlumatlandırıblar.

Qərbi Azərbaycan İcması belə süni münaqişələrə cəlb olunmasını yolverilməz hesab edir. Bu cür addımlar həm ictimai rəyə zərər vurur, həm də milli maraqlarımıza xələl gətirir. Ona görə də icma media qurumlarını məsuliyyətli olmağa, milli maraqlara zidd olan təhriflərdən və yanlış təqdimatlardan uzaq olmağa çağırır.

Məlumatda Qərbi Azərbaycan İcmasının mövqeyi bir daha diqqətə çatdırılıb: milli birliyimizi zəiflədən və məqsədli şəkildə qarışıqlıq yaradan hər hansı addım qətiyyətlə pislənilir. Rəsmi məlumat və xəbərlər yalnız Qərbi Azərbaycan İcmasının təsdiqlədiyi kanallar və səhifələr vasitəsilə yayılır.

İki xalq və iki dövlət arasında etimad və etibarlılığın dayanıqlı və davamlı olması üçün bunun çox böyük əhəmiyyəti var, xalqların birgəyaşayışı sülhün vacib şərtlərindəndir.

İcma ilk gündən hədəfini ölkə və dünya ictimaiyyətinə genişliyi ilə açıqlayıb. Hədəf budur: Ermənistan hökumətinin və aidiyyati beynəlxalq qurumların zəmanəti ilə ləyaqətli və təhlükəsiz formada ata-baba yurdlarımıza qayıdış... Bunun bütün detalları Qayıdış Konsepsiyasında da öz əksini tapıb. Fəaliyyət isə bu konsepsiyanın həyata keçirilməsi istiqamətində sistemli şəkildə davam edir. Şübhəsiz ki, əsas diqqət mərkəzində insanlarımızın qayıdış ideyası ətrafında təşkilatlanması, soydaşlarımız arasında maarifçilik işinin genişləndirilməsi, Qərbi Azərbaycan həqiqətlərinin ortaya qoyulması və dünya ictimaiyyətinə çatdırılması məsələləri dayanır.

Milli Məclis çox geniş beynəlxalq əlaqələrə malikdir. MM-də dünyanın əksəriyyət ölkələri ilə işçi qrupları fəaliyyət göstərir, deputatlarımız bu qruplar çərçivəsində, həm də müxtəlif beynəlxalq tədbirlərdə iştirak üçün mütəmadi olaraq xarici ölkələrə səfərlər edir, eyni zamanda xarici ölkələrin deputat qrupları tez-tez Azərbaycan parlamentinin qonağı olurlar. Milli Məclisin Sədri Sahibə Qafarova başda olmaqla deputatlarımız hər fürsətdə Qərbi Azərbaycan qaçqınlarının qayıdış hüquqlarını diqqətə çatdırır. Bir faktı da diqqətə çatdıraq ki, bu il 11-13 aprel tarixlərində Türkiyənin Antalya şəhərində Prezident Rəcəb Tayyib Ərdoğanın himayəsi və Türkiyə Respublikası Xarici İşlər Nazirliyinin evsahibliyi ilə IV Diplomatiya Forumu keçirilib. Forumda Azərbaycan Respublikası Milli Məclisinin üzvü və Qərbi Azərbaycan İcmasının sədri olaraq Əziz Ələkbərli "Parlament Diplomatiyası və Qlobal İdarəetmə" panelində Qərbi Azərbaycan məsələsi ilə bağlı çıxış edib. Bu, Azərbaycan diplomatiyasının növbəti uğuru idi.

Qərbi Azərbaycana qayıdış ideyasının təməli Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub və cənab Prezident İlham Əliyevin 24 dekabr 2022-ci il tarixində Qərbi Azərbaycan İcmasının inzibati binasındakı tarixi çıxışı yol xəritəmizdir.

Soydaşlarımızın ata-baba yurdlarına qayıdacaqlarına heç kim şübhə etməsin, nə də bu fəaliyyətin nə vaxtsa yarıda dayanacağını heç kəs ağlına gətirməsin.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik və bəzi qərarlarının ləğv edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 268** **Bakı şəhəri, 16 sentyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 16 oktyabr tarixli 560 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I); 2024, № 1, maddə 78; 2025, № 2, maddə 187) ilə təsdiq edilmiş 3 nömrəli əlavə - "Azərbaycan Respublikasının dövlət sərhədində profilaktik zolaq və baytar-sanitar rejiminə dair Qaydalar"da aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3.1-ci bəndin ikinci abzasında "yemlərin" sözü "yem məhsullarının" sözləri ilə əvəz edilsin;

1.2. 3.6-cı bənddən " və yemlərin" sözləri çıxarılsın.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 17 oktyabr tarixli 212 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 10, maddə 633 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında geodeziya-istinad məntəqələrinin istifadəsi və mühafizəsi qaydalarına dair Əsasnamə"nin 5-ci hissəsinin ikinci abzasına "yem" sözündən sonra "məhsullarından" sözü əlavə edilsin.

3. "İşçinin səhhətinə, sağlamlığına mənfi təsir göstərən amillər olan ağır, zərərli və təhlükəli əmək şəraitli iş yerlərində, habelə əhalinin sağlamlığının mühafizəsi məqsədi ilə yeyinti sənayesi, ictimai iaşə, səhiyyə, ticarət və bu qəbildən olan digər iş yerlərində əmək müqaviləsi bağlanılarkən işçilərin sağlamlığı haqqında tibbi arayış tələb olunan peşələrin (vəzifələrin) iş yerlərinin siyahısının təsdiq edilməsi barədə" Azərbaycan respublikası Nazirlər Kabinetinin 2000-ci il 3 yanvar tarixli 1 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 72 (Cild I); 2024, № 1, maddə 113) aşağıdakı dəyişikliklər edilsin:

3.1. adında və 1-ci hissəsində "yeyinti" sözü "qida" sözü ilə əvəz edilsin;

3.2. həmin Qərarla təsdiq edilmiş "İşçinin səhhətinə, sağlamlığına mənfi təsir göstərən amillər olan ağır, zərərli və təhlükəli əmək şəraitli iş yerlərində, habelə əhalinin sağlamlığının mühafizəsi məqsədi ilə yeyinti sənayesi, ictimai iaşə, səhiyyə, ticarət və bu qəbildən olan digər iş yerlərində əmək müqaviləsi bağlanılarkən işçilərin sağlamlığı haqqında tibbi arayış tələb olunan peşələrin (vəzifələrin), iş yerlərinin SİYAHISI" üzrə:

3.2.1. adında "yeyinti" sözü "qida" sözü ilə əvəz edilsin;

3.2.2. 22-ci hissədə "Yeyinti" sözü "Qida" sözü ilə, "ərzaq" sözü (ikinci halda) "qida" sözü ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 24 mart tarixli 58 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (II kitab), maddə 246 (Cild I); 2024, № 9, maddələr 1067, 1106; 2025, № 2, maddə 187) ilə təsdiq edilmiş "Yaşı 18-dən az olan işçilərin əməyinin tətbiqi qadağan olunan əmək şəraiti zərərli və ağır olan istehsalatların, peşələrin (vəzifələrin), habelə yeraltı işlərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. "IX. MİKROBİOLOGİYA İSTEHSALATI" bölməsi üzrə:

4.1.1. "Qeyri-ərzaq bitki xammalının hidrolizi üsulu ilə şəkərlərin istehsalı:" hissəsinin adında "Qeyri-ərzaq" sözləri "Qeyri-qida" sözləri ilə əvəz edilsin;

4.1.2. "Vitaminli, antibiotikli və amin turşulu yemlərin istehsalı:" hissəsinin adında "yemlərin" sözü "yem məhsullarının" sözləri ilə əvəz edilsin;

4.2. "XXV. YEYİNTİ SƏNAYESİ" bölməsi üzrə:

4.2.1. adında "YEYİNTİ" sözü "QİDA" sözü ilə, "Yeyinti məhsulları istehsalının ümumi peşələri:" hissəsinin adında "Yeyinti" sözü "Qida" sözü ilə, "Qurudulmuş meyvə və tərəvəzin yeyinti konsentratlarının, qəhvə məhsullarının və ədviyyatların istehsalı:" hissəsinin adında, "Ət və süd sənayesi" "Ət məhsullarının istehsalı:" hissəsinin dördüncü abzasında, "Yağ, pendir və süd istehsalı:" hissəsinin səkkizinci abzasında "yeyinti" sözü "qida" sözü ilə əvəz edilsin;

4.2.2. "Ət və süd sənayesi" "Ət məhsullarının istehsalı:" hissəsinin üçüncü abzasına və "Quş emalı:" hissəsinin on beşinci abzasına "yem" sözündən sonra "məhsulları" sözü əlavə edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 24 dekabr tarixli 199 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu 2002, № 12, maddə 751; 2019, №12, maddə 2101) ilə təsdiq edilmiş "İstehsal mənşəyinə görə adlar verilən şərabların istehsalı və şərabçılıq məhsullarına adların verilməsi qaydaları barədə ƏSASNAMƏ"nin altıncı və iyirmi üçüncü abzaslarında "yeyinti" sözü "qida" sözü ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 5 iyul tarixli 92 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 7, maddə 583 (Cild I); 2024, № 2, maddə 209, № 5 (II kitab), maddə 579, № 9, maddələr 1067, 1106; 2025, № 2, maddə 187) ilə təsdiq edilmiş "Əmək şəraitinə və əmək funksiyasının xarakterinə görə əlavə məzuniyyət hüququ verən, zərərli və ağır istehsalatların, peşə və vəzifələrin Siyahısı"nın "İstehsalat, peşə və vəzifələrin adı" sütununda aşağıdakı dəyişikliklər edilsin:

6.1. "XXVII. Yeyinti sənayesi" bölməsinin 4-cü bəndində "yemlərin" sözü "yem məhsullarının"sözləri ilə, 57-ci bəndində "Yemlərin" sözü "Yem məhsullarının"sözləri ilə, "yemləri" sözü "yem məhsullarını" sözləri ilə əvəz edilsin;

6.2. "XXX. Nəqliyyat" bölməsinin 17-ci və 176-cı bəndlərində "yemlərin" sözü "yem məhsullarının" sözləri ilə əvəz edilsin;

6.3. "XXXII. Kənd təsərrüfatı" bölməsinin 3-cü bəndində "Yemlərin" sözü "Yem məhsullarının"sözləri ilə, "yemlərin" sözü "yem məhsullarının" sözləri ilə əvəz edilsin;

6.4. mətn üzrə "Yeyinti" sözü "Qida" sözü ilə, "yeyinti" sözü "qida" sözü ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 6 noyabr tarixli 175 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 11, maddə 963 (Cild I); 2024, № 2, maddə 209, № 5 (II kitab), maddə 579, № 9, maddələr 1067, 1106) ilə təsdiq edilmiş "İşçilərə həftə ərzində 36 saatdan çox olmayan, qısaldılmış iş vaxtı müəyyən edilən əmək şəraiti fiziki, kimyəvi, bioloji və habelə insanın sağlamlığı üçün zərərli olan digər ağır istehsalat amilləri mövcud olan əmək şəraitli istehsalatların, peşə və vəzifələrin Siyahısı"nın "İstehsalatların, peşə və vəzifələrin adı" sütununda mətn üzrə "YEYİNTİ" sözü "QİDA" sözü ilə, "Yeyinti" sözü "Qida" sözü ilə, "yeyinti" sözü "qida" sözü ilə əvəz edilsin.

8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 9 noyabr tarixli 206 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 11, maddə 1066 (Cild I); 2024, № 2, maddə 208) ilə təsdiq edilmiş "Nərə cinsli balıq ehtiyatlarının istifadəsi və dövriyyəsinin tənzimlənməsi Qaydaları"nın 4.3-cü bəndinin birinci abzasında "yeyinti" sözü "qida" sözü ilə əvəz edilsin.

9. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 14 dekabr tarixli 227 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 12, maddə 1227 (Cild I) ilə təsdiq edilmiş "Telekommunikasiya şəbəkələrini, vasitə və qurğularını mühafizə Qaydaları"nın 4.1.5-ci yarımbəndinə "yem" sözündən sonra "məhsullarının" sözü əlavə edilsin.

10. "Azərbaycan Respublikasında baytarlıqla bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 7 mart tarixli 65 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 3, maddə 293 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

10.1. həmin Qərarla təsdiq edilmiş "Epizootiya monitorinqinin aparılması Qaydası"nın 2.4.1-ci yarımbəndinin yeddinci abzasında "yemlə" sözü "yem məhsulları ilə" sözləri ilə əvəz edilsin;

10.2. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət baytarlıq nəzarəti vacib olan obyektlərin mülkiyyətçilərinin vəsaiti hesabına qanunla müəyyən edilmiş tədbirlərin maliyyələşdirilməsinin Qaydası və Şərtləri"ndə aşağıdakı dəyişikliklər edilsin:

10.2.1. II hissəsinin ikinci abzasında "preparatları, yem və yem əlavələrinin" sözləri "preparatlarının" sözü ilə əvəz edilsin;

10.2.2. II hissəsinin üçüncü abzasından ", heyvandarlıq müəssisələrinin, bazarların dövlət baytarlıq nəzarətində olan məhsulların və xammalın istehsalı, tədarükü, saxlanması, emalı və satışı yerlərinin, həmçinin heyvanlar üçün yem və bioloji preparatlar istehsalı obyektlərinin qeydiyyatı " sözləri çıxarılsın.

11. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 23 yanvar tarixli 12 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 1, maddə 56 (Cild I); 2024, № 2, maddələr 209, 213, № 5 (II kitab), maddə 579, № 9, maddə 1106; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 28 iyul tarixli 223 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Güzəştli şərtlərlə yaşa görə əmək pensiyası hüququ verən istehsalatların, peşələrin, vəzifələrin və göstəricilərin SİYAHISI" nda aşağıdakı dəyişikliklər edilsin:

11.1. 22-ci bölmənin 22.5-ci bəndinin beşinci abzasında "yeyinti" sözü "qida" sözü ilə əvəz edilsin;

11.2. 27-ci bölmə üzrə:

11.2.1. adında "Yeyinti" sözü "Qida" sözü ilə əvəz edilsin;

11.2.2. 27.2-ci bəndin "a) fəhlələr:" abzasının üçüncü sətrində "yeyinti" sözü "qida" sözü ilə əvəz edilsin.

12. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 30 yanvar tarixli 19 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 1, maddə 63 (Cild I) ilə təsdiq edilmiş "Heyvanların saxlanması, yetişdirilməsi və istifadə olunması Qaydaları"nın 2.6-cı bəndində "yemlərlə" sözü "qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə uyğun yem məhsulları ilə" sözləri ilə əvəz edilsin.

13. "Azərbaycan Respublikasında baytarlıqla bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 16 aprel tarixli 66 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 4, maddə 392 (Cild I); 2024, № 1, maddə 105, № 5 (II kitab), maddə 606) aşağıdakı dəyişikliklər edilsin:

13.1. həmin Qərarla təsdiq edilmiş "Azərbaycan Respublikasında baytarlıq preparatlarının aprobasiyası, ekspertizası, sınaqdan keçirilməsi, dövlət qeydiyyatına alınması və dövlət reyestrinin aparılması, istehsalı, idxalı, saxlanması, daşınması, satışı və istifadəsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

13.1.1. 2.1-ci bənddən "yem və yem əlavələri,", "yem məqsədilə işlədilən kənd təsərrüfatı və sənaye tullantıları," sözləri çıxarılsın;

13.1.2. aşağıdakı məzmunda 3.19-cu bənd əlavə edilsin:

"3.19. Elmi tədqiqatlar nəticəsində hazırlanmış və təkmilləşdirilmiş yem məhsullarının və yem əlavələrinin baytarlıq normativlərinə uyğunluğunu müəyyən etmək üçün onlar bu Qaydaya uyğun olaraq aprobasiyadan keçirilməlidirlər.";

13.1.3. 5.2-ci bənddən "və 6" sözləri çıxarılsın;

13.1.4. 5.6-cı bənddən "yem məqsədilə işlədilən kənd təsərrüfatı və sənaye tullantıları,"sözləri çıxarılsın;

13.2. həmin Qaydalara 6 nömrəli əlavə - "Qeyri-məhsuldar heyvanlar üçün yemlərin qeydiyyata alınması məqsədilə təqdim olunan sənədlərə Tələblər" ləğv edilsin.

14. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 22 may tarixli 80 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 5, maddə 550 (Cild I) ilə təsdiq edilmiş "Dövlət nümunəvi baytarlıq uçot və hesabat sənədləri blanklarının Forması"nda aşağıdakı dəyişikliklər edilsin:

14.1. "Yem, yem əlavələrinin və digər nümunələrin mikotoksikoloji müayinə jurnalı" Forma № 18-vet-in adına "Yem" sözündən sonra "məhsullarının" sözü, mətninə (birinci halda) "yem" sözündən sonra "məhsullarının" sözü əlavə edilsin, "Yemin" sözü "Yem məhsullarının" sözləri ilə əvəz edilsin;

14.2. "Dövlət sərhədinin buraxılış məntəqələrində idxal və ixrac edilən heyvan mənşəli məhsulların və xammalın, yem və yem əlavələrinin baxışının uçotu jurnalı" Forma № 29-vet-in adına (birinci halda )"yem" sözündən sonra "məhsullarının" sözü əlavə edilsin;

14.3. "Heyvan mənşəli yarımfabrikat, yem unu, kolbasa və kulinar məmulatlarının bakterioloji müayinələrinin qeydiyyat jurnalı" Forma № 37-vet-in mətnində "ərzağın" sözü "qida məhsulunun" sözləri ilə, "ərzaqda" sözü "qida məhsulunda" sözləri ilə əvəz edilsin.

15. "Azərbaycan Respublikasında baytarlıqla bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 5 oktyabr tarixli 156 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 10, maddə 1016 (Cild I); 2024, № 1, maddə 116) aşağıdakı dəyişikliklər edilsin:

15.1. 1-ci hissədən "Heyvan, heyvan mənşəli məhsullar və xammal istehsalı, tədarükü, saxlanması, emalı və satışına, habelə yem və yem əlavələrinin dövriyyəsinə dövlət baytarlıq nəzarətinin həyata keçirilməsi Qaydaları"," sözləri çıxarılsın;

15.2. həmin Qərarla təsdiq edilmiş "Dövlət baytarlıq nəzarətində olan yüklərin baytarlıq normalarının tələblərinə uyğunluğunun yoxlanılması və onlara baxış keçirilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

15.2.1. 5-ci hissənin adında "Preparatları, Yem və Yem Əlavələrinin" sözləri "Preparatlarının" sözü ilə əvəz edilsin;

15.2.2. 5.1-ci və 5.3-cü bəndlərdən " , yem və yem əlavələri" sözləri çıxarılsın;

15.2.3. 5.2-ci və 5.4-cü bəndlərdən " , yem və yem əlavələrinin" sözləri çıxarılsın.

16. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 26 oktyabr tarixli 169 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 10, maddə 858 (Cild I) ilə təsdiq edilmiş "Əhalinin sağlamlığının qorunmasında və digər sahələrdə istifadə edilən arıçılıq məhsulları xammalı və onların əsasında hazırlanmış apifitoməhsulların istehsalı, dövriyyəsi və tətbiqi QAYDASI"nda aşağıdakı dəyişikliklər edilsin:

16.1. 3.2-ci bənddə "Yeyinti məhsulları" sözləri "Qida təhlükəsizliyi" sözləri ilə əvəz edilsin;

16.2. 4.1-ci bənddə "yeyinti" sözü "qida" sözü ilə əvəz edilsin.

17. "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta tariflərinin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 5 noyabr tarixli 200 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 11, maddə 1034 (Cild I) cədvəlində "İqtisadi fəaliyyət növü" sütunu üzrə 5-ci risk dərəcəsinin beşinci abzasında "yemlərin" sözü "yem məhsullarının" sözləri ilə əvəz edilsin.

18. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 15 mart tarixli 65 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 3, maddə 262 (Cild I) ilə təsdiq edilmiş "Ali təhsilin doktorantura səviyyəsi üzrə ixtisasların Təsnifatı"nın "31. Aqrar elmlər" bölməsində "Yem" sözü "Yem məhsulları" sözləri ilə, "yemlərin" sözü "yem məhsullarının" sözləri ilə əvəz edilsin.

19. "Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 13 noyabr tarixli 259 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 11, maddə 1198 (Cild I); 2024, № 4, maddə 437, № 6 (II kitab), maddə 736, № 9, maddə 1106) aşağıdakı dəyişikliklər edilsin:

19.1. həmin Qərarla təsdiq edilmiş 5 nömrəli əlavə - "Ölkə daxilində genetik modifikasiya olunmuş bitkilərin mövcudluğu və yayılma zonasının aşkarlanması Qaydası"na aşağıdakı məzmunda 2.11-ci bənd əlavə edilsin:

"2.11. Bu Qayda ilə müəyyən edilən tələblər "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun 13.1-ci maddəsi ilə müəyyən edilmiş genetik modifikasiya olunmuş orqanizmlərə və yem məhsullarına şamil edilmir.";

19.2. həmin Qərarla təsdiq edilmiş 12 nömrəli əlavə - "Genetik modifikasiya olunmuş bitkilərin, eləcə də müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış kənd təsərrüfatı bitki materiallarının elmi tədqiqat, sınaq və sərgilərdə nümayiş məqsədi ilə Azərbaycan Respublikasına idxalı Qaydası"na aşağıdakı məzmunda 17-ci bənd əlavə edilsin:

"17. Bu Qayda ilə müəyyən edilən tələblər "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun 13.1-ci maddəsi ilə müəyyən edilmiş genetik modifikasiya olunmuş orqanizmlərə və yem məhsullarına şamil edilmir.".

20. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 11 dekabr tarixli 291 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 12, maddə 1355 (Cild I) ilə təsdiq edilmiş "Ölkə daxilində aşkarlanan genetik modifikasiya olunmuş bitkilərdən yarana biləcək təhlükənin təyin edilməsi Qaydası"na aşağıdakı məzmunda 2.9-cu bənd əlavə edilsin:

"2.9. Bu Qayda ilə müəyyən edilən tələblər "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun 13.1-ci maddəsi ilə müəyyən edilmiş genetik modifikasiya olunmuş orqanizmlərə və yem məhsullarına şamil edilmir.".

21. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 27 avqust tarixli 232 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 8, maddə 1030 (Cild I); 2024, № 3, maddə 314, № 5 (II kitab), maddə 612, № 9, maddələr 1090, 1106, № 12 (II kitab), maddə 1460) ilə təsdiq edilmiş "Gömrük ekspertizasının aparılması QAYDALARI"nın 3.3.6-cı yarımbəndində "qida məhsullarına münasibətdə qida təhlükəsizliyi sertifikatının, onların istehsalçılarının qida təhlükəsizliyi qeydiyyatına alınmasına dair dövlət reyestrindən çıxarışın" sözləri "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən tərtib edilən idxal zamanı elektron bildirişi, Qida Təhlükəsizliyi Reyestrindən çıxarışı, sağlamlıq sertifikatını, qida və yem məhsullarının təhlükəsizliyini təsdiq edən sənədlərin" sözləri ilə əvəz edilsin.

22. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 3 oktyabr tarixli 286 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013 , № 10 , maddə 1207 (Cild I); 2024, № 3, maddə 314, № 5 (II kitab), maddə 612, № 12 (II kitab), maddə 1460) ilə təsdiq edilmiş "Təminatdan istifadə etməklə gömrük borcunun ödənilməsinin təmin edilməsi Qaydaları"nın 8.3-cü bəndində "qida məhsullarına münasibətdə qida təhlükəsizliyi sertifikatı, onların istehsalçılarının qida təhlükəsizliyi qeydiyyatına alınmasına dair dövlət reyestrindən çıxarışla" sözləri "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən tərtib edilən idxal zamanı elektron bildirişi, Qida Təhlükəsizliyi Reyestrindən çıxarışı, sağlamlıq sertifikatını, qida və yem məhsullarının təhlükəsizliyini təsdiq edən sənədlərlə" sözləri ilə əvəz edilsin.

23. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 18 fevral tarixli 48 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 2, maddə 203 (Cild I); 2024, № 1, maddə 74, № 2, maddə 209, № 9, maddə 1106; 2025, № 2, maddə 187) ilə təsdiq edilmiş "Tikinti layihəsinin texnologiya bölməsinin hazırlanması tələb olunan hallar"ın 1.34.1-ci yarımbəndinə "yem" sözündən sonra "məhsulları" sözü əlavə edilsin və 1.34.3-cü yarımbəndində "yemlərin" sözü "yem məhsullarının" sözləri ilə əvəz edilsin.

24. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 17 iyun tarixli 231 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 6, maddə 1207 (Cild I) ilə təsdiq edilmiş "Baytarlıq, fitosanitar və sanitariya nəzarətinə aid malların Vahid Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

24.1. 1.33-cü bənddə "yeyinti" sözü "qida" sözü ilə, 1.76-cı bənddə "Yeyinti" sözü "Qida" sözü ilə əvəz edilsin;

24.2. 1.75-ci bənddə "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin;

24.3. 3.1-3.97-ci, 3.101-ci, 3.102-ci, 3.106-cı, 3.109-cu, 3.112-ci, 3.114-cü, 3.120-ci, 3.122-ci və 3.123-cü bəndlər ləğv edilsin.

25. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2164 (Cild I); 2024, № 1, maddə 127, № 2, maddə 244, № 4, maddə 465, № 7, maddələr 891, 903, № 9, maddələr 1045, 1106, № 10, maddələr 1165, 1178, № 11, maddə 1257, № 12 (I kitab), maddələr 1319, 1324; 2025, № 2, maddə 187, № 3, maddələr 266, 268, № 5, maddə 512) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə aşağıdakı dəyişikliklər edilsin:

25.1."QRUP 19" üzrə 1901 mal mövqeyinə aid sətrin ikinci sütununda , 1904, 1904 10, 1904 20 yarımmövqelərinə aid sətirlərin ikinci sütunlarında "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin;

25.2. "QRUP 21" üzrə 2105 00 yarımmövqeyinə aid sətrin ikinci sütununda "yeyinti" sözü "qida üçün yararlı" sözləri ilə əvəz edilsin;

25.3. "QRUP 23"ün adında "YEYİNTİ" sözü "QİDA" sözü ilə əvəz edilsin;

25.4. "QRUP 73" üzrə 7310 21 110 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "yeyinti" sözü "qida" sözü ilə əvəz edilsin;

25.5. "QRUP 82" üzrə 8208 30 000 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "yeyinti" sözü "qida" sözü ilə əvəz edilsin;

25.6. "QRUP 84" üzrə 8418 50 110 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda və 8438 mal mövqeyinə aid sətrin ikinci sütununda "yeyinti" sözü "qida" sözü ilə əvəz edilsin, 8476 mal mövqeyinə aid sətrin ikinci sütununda "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin;

25.7. "QRUP 85" üzrə "Qeydlər"in 4-cü hissəsinin a bəndində "ərzaq" sözü "qida" sözü ilə əvəz edilsin.

26. "İşçilərə pulsuz müalicə-profilaktik yeməklərin, süd və ona bərabər tutulan məhsulların verilməsi üçün zərərli, ağır və yeraltı əmək şəraitli istehsalatların Siyahısı"nın və "İşçilərə pulsuz müalicə-profilaktik yeməklərin, süd və ona bərabər tutulan məhsulların verilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 14 dekabr tarixli 550 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (II kitab), maddə 2498 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

26.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "İşçilərə pulsuz müalicə-profilaktik yeməklərin, süd və ona bərabər tutulan məhsulların verilməsi üçün zərərli, ağır və yeraltı əmək şəraitli istehsalatların SİYAHISI"nın cədvəl hissəsində VII bölmənin adında "Yeyinti" sözü "Qida" sözü ilə əvəz edilsin;

26.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "İşçilərə pulsuz müalicə-profilaktik yeməklərin, süd və ona bərabər tutulan məhsulların verilməsi QAYDALARI"nın 2.4-cü, 2.5-ci bəndlərində, 2.6-cı bəndinin birinci abzasının birinci cümləsində və ikinci abzasında "yeyinti" sözü "qida" sözü ilə əvəz edilsin.

27. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 4 aprel tarixli 129 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 4, maddə 786 (Cild I) ilə təsdiq edilmiş "Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri, Cənubi Qafqaz Boru Kəməri və Cənubi Qafqaz Boru Kəməri Genişləndirilmiş boru kəmərlərinin məsləhətləşmə və mühafizə zonalarının müəyyən edilməsi Qaydaları"nın 3.3.4-cü yarımbəndində "yemlərin" sözü "yem məhsullarının" sözləri ilə əvəz edilsin.

28. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 17 iyul tarixli 307 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7, maddə 1640 (Cild I); 2024, № 1, maddə 84) ilə təsdiq edilmiş "Ticarət və ictimai iaşə sahəsində qida məhsullarının təbii itki Normaları"nda aşağıdakı dəyişikliklər edilsin:

28.1. 35-ci hissə üzrə:

28.1.1. adında "yemin" sözü "yem məhsullarının" sözləri ilə, cədvəlində "Yem" sözü "Yem məhsulları" sözləri ilə, "yem" sözü "yem məhsulları" sözləri ilə əvəz edilsin;

28.1.2. "Qeydlər"in 4-cü hissəsində "Yemlər" sözü "Yem məhsulları" sözləri ilə əvəz edilsin;

28.2. 39-cu hissənin adında "yemlərin" sözü "yem məhsullarının" sözləri ilə, cədvəlində "Yem" sözü "Yem məhsulları" sözləri ilə, "yem" sözü "yem məhsulları" sözləri ilə əvəz edilsin;

28.3. 43-cü hissənin adında "yemlərin" sözü "yem məhsullarının" sözləri ilə əvəz edilsin.

29. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 436 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2151 (Cild I); 2024, № 1, maddə 116) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin baytarlıq nəzarəti sahəsində icrası məcburi olan qərarlarının formasının, onların tərtib edilməsi və verilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

29.1. 2.1.5-ci yarımbənddən ", yem və yem əlavələrinin" sözləri çıxarılsın.

29.2. həmin Qaydaya 5 nömrəli əlavə - "Qanunvericiliklə müəyyən edilmiş qaydada qeydiyyatdan keçməyən, normativ-texniki sənədlərin tələblərinə cavab verməyən, mənşəyi məlum olmayan, saxta, keyfiyyətsiz baytarlıq preparatlarının, yem və yem əlavələrinin qanunla müəyyən edilmiş qaydada götürülməsi və məhv edilməsi haqqında Qərar"da aşağıdakı dəyişikliklər edilsin:

29.2.1. adından ", yem və yem əlavələrinin" sözləri çıxarılsın;

29.2.2. mətnindən ", yem və yem əlavələrinin"sözləri və ", yem və yem əlavələri" sözləri çıxarılsın.

30. "Bir pəncərə" prinsipinə əməl edilməklə, ölkəyə idxal olunan qida məhsullarının təhlükəsizlik baxımından yoxlanılması zamanı Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi arasında qarşılıqlı fəaliyyətin tənzimlənməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 12 noyabr tarixli 485 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 11, maddə 2435 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

30.1. adına və 1-ci hissəsinə "qida" sözündən sonra "və yem" sözləri, "məhsullarının" sözündən sonra ", habelə qida məhsulları ilə təmasda olan material və məmulatlarının" sözləri əlavə edilsin;

30.2. 2-ci hissədə "qida təhlükəsizliyi qeydiyyatına aldığı subyektlərə və yeyinti məhsullarına verdiyi qida təhlükəsizliyi sertifikatları" sözləri "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən tərtib edilən idxal zamanı elektron bildirişin, Qida Təhlükəsizliyi Reyestrindən çıxarışın, ixrac edilən qida və yem məhsullarına verilən sağlamlıq sertifikatları" sözləri ilə, "sertifikatlarının (şəhadətnamələrin), habelə sənədlərin" sözləri "sahəsində sənədlərin, habelə onların" sözləri ilə əvəz edilsin;

30.3. həmin Qərarla təsdiq edilmiş "Bir pəncərə" prinsipinə əməl edilməklə, ölkəyə idxal olunan qida məhsullarının təhlükəsizlik baxımından yoxlanılması zamanı Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi arasında qarşılıqlı fəaliyyətin tənzimlənməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

30.3.1. adına, 1.1-ci bəndə və 2-ci hissənin adına "qida" sözündən sonra "və yem" sözləri, "məhsullarının" sözündən sonra ", habelə qida məhsulları ilə təmasda olan material və məmulatlarının" sözləri əlavə edilsin;

30.3.2. 2.1-ci bənddə (hər iki halda) "qida məhsullarının" sözləri "qida və yem məhsullarının, habelə qida məhsulları ilə təmasda olan material və məmulatlarının" sözləri ilə, "qida məhsulları sahəsində fəaliyyət göstərən subyektlər (bundan sonra - subyektlər), o cümlədən Agentlik tərəfindən qida təhlükəsizliyi qeydiyyatına alınmış və reyestrə daxil edilmiş subyektlər, habelə qida təhlükəsizliyi qeydiyyatına alınmamış subyektlər" sözləri "Qida Təhlükəsizliyi Reyestrinə (bundan sonra - Reyestr) daxil edilmiş qida zənciri subyektləri (bundan sonra - subyektlər)" sözləri ilə əvəz edilsin;

30.3.3. 2.2-ci bənddə "qida məhsullarının idxalatçıları, o cümlədən Agentlik tərəfindən qeydiyyata alınan subyektlərin idxal etdikləri qida məhsullarının" sözləri "qida və yem məhsullarının, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların" sözləri ilə, "qida məhsulları, qida məhsullarının" sözləri "qida və yem məhsulları, habelə onların" sözləri ilə əvəz edilsin;

30.3.4. aşağıdakı məzmunda 2.4-1-ci bənd əlavə edilsin:

"2.4-1. Agentlik "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun 20.9-cu maddəsini nəzərə almaqla qida və yem məhsullarının, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların gömrük sərhədindən keçirilməsini təmin etmək məqsədilə həmin məhsulların idxalına dair elektron bildiriş üzrə məlumatları Komitəyə ötürür.";

30.3.5. 2.5-ci bənddə "Dövlət reyestrində qeydə alınmış və ya reyestrdə olmayan" sözləri "Qida Təhlükəsizliyi Reyestrinə daxil edilmiş" sözləri ilə, 2.5.2-ci yarımbənddə ", gigiyenik və digər sertifikatlar (şəhadətnamələr), sənədlər və ya qarşılıqlı saziş olmayan ölkələrdən gətirilən qida məhsullarının təhlükəsizliyini təsdiq edən və beynəlxalq sazişlər və ya təşkilatlar tərəfindən müəyyən olunmuş nümunəvi formaya əsasən tərtib edilmiş sertifikatlar" sözləri "və digər sertifikatlar (şəhadətnamələr), "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən tərtib edilən idxal zamanı elektron bildiriş, Qida Təhlükəsizliyi Reyestrindən çıxarış, sağlamlıq sertifikatı, qida və yem məhsullarının təhlükəsizliyini təsdiq edən sənədlər" sözləri ilə əvəz edilsin;

30.3.6. 2.6-cı bənddə "dövlət reyestrində qeydə alınmış subyektlərin və barəsində reyestrdə məlumat olmayan şəxslərin" sözləri "Reyestrə daxil edilmiş subyektlərin" sözləri ilə əvəz edilsin;

30.3.7. 2.8-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.8. Azərbaycan Respublikasının gömrük ərazisinə idxal olunmuş qida və yem məhsullarına, habelə qida məhsulları ilə təmasda olan material və məmulatlarına idxal sağlamlıq aktının verilməsi ilə bağlı Agentliyin mütəxəssislərinə qida təhlükəsizliyi baxımından nəzarət tədbirlərinin (sənəd nəzarəti, eynilik nəzarəti və fiziki nəzarət) aparılması üçün gömrük orqanları tərəfindən şərait yaradılmalıdır.";

30.3.8. 2.9-cu bənddə "Qida məhsullarına verilən qida təhlükəsizliyi sertifikat-larının" sözləri "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun 20.3-cü maddəsinə əsasən məhsulların istehsal və emal edildiyi qida obyektlərinin təsdiq olunmasına dair Reyestrdən çıxarışların" sözləri ilə, "qida təhlükəsizliyi sertifikatları" sözləri "Reyestrdən çıxarışlar" sözləri ilə əvəz edilsin;

30.3.9. 2.12-ci bəndə, 2.12.1-ci yarımbəndə "qida" sözündən sonra "və yem" sözləri əlavə edilsin;

30.3.10. 2.14-cü bənd aşağıdakı redaksiyada verilsin:

"2.14. Gömrük orqanı tərəfindən idxal olunmuş qida və yem məhsullarına, habelə qida məhsulları ilə təmasda olan material və məmulatlara "Yaşıl dəhliz" və digər buraxılış sistemlərini tətbiq etmək məqsədilə məhsulların idxalatçılarının risk qruplaşdırılması aparılarkən Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin həmin idxalatçılara dair təqdim etdiyi risk informasiyası da nəzərə alınır.";

30.3.11. 2.15-ci bəndə (hər üç halda) "qida" sözündən sonra "və yem" sözləri əlavə edilsin;

30.3.12. 2.16-cı bənd ləğv edilsin.

31. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 30 mart tarixli 80 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu 2021, № 3, maddə 299 (Cild I); 2024, № 1, maddə 75, № 10, maddə 1167) ilə təsdiq edilmiş "Ərzaq balansının tərtib olunması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

31.1. aşağıdakı məzmunda 3.3-1-ci bənd əlavə edilsin:

"3.3-1. Ərzaq balansının tərtibi üçün fermerlər və tədarükçülər tərəfindən kənd təsərrüfatı məhsullarının istehsalına (tədarükünə) dair məlumatlar ildə bir dəfə, həmin məhsulların yetişdirildiyi istixanalar, saxlanıldığı soyuducu anbarlar və taxıl elevatorları barədə aylıq məlumatlar isə növbəti ayın 10-dək "Elektron Kənd Təsərrüfatı" informasiya sistemi ilə müəyyən edilmiş formada həmin sistemə daxil edilməlidir.";

31.2. 3.4.5-ci yarımbəndə "Azərbaycan Respublikası" sözlərindən əvvəl "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun 31.3-cü maddəsinin tələbləri nəzərə alınmaqla," sözləri əlavə edilsin.

32. "Satışı əlavə dəyər vergisindən azad olunan yem və yem əlavələrinin Siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 30 iyun tarixli 251 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 6, maddə 689 (Cild I); 2024, № 7, maddə 930) aşağıdakı dəyişikliklər edilsin:

32.1. Qərarın adında və 1-ci hissəsində "yem və " sözləri "yem məhsulları və" sözləri ilə əvəz edilsin;

32.2. həmin Qərarla təsdiq edilmiş "Satışı əlavə dəyər vergisindən azad olunan heyvandarlıq və quşçuluq təsərrüfatlarında istifadə edilən yem və yem əlavələrinin SİYAHISI"nda aşağıdakı dəyişikliklər edilsin:

32.2.1. adında "heyvandarlıq və quşçuluq təsərrüfatlarında istifadə edilən yem" sözləri "yem məhsulları" sözləri ilə əvəz edilsin;

32.2.2. I hissədə "Yemlər" sözü "Yem məhsulları" sözləri ilə, 1-ci və 2-ci hissələrdə "yemlər" sözü "yem məhsulları" sözləri ilə əvəz edilsin.

33. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 5 avqust tarixli 269 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 8 (II kitab), maddə 1252 (Cild I); 2024, № 6 (II kitab), maddə 729) ilə təsdiq edilmiş "İşğaldan azad edilmiş ərazilər üzrə idxalı əlavə dəyər vergisindən və gömrük rüsumundan azad edilən iqtisadi fəaliyyət sahələri və mal nomenklaturaları üzrə texnikanın, texnoloji avadanlıqların və qurğuların, habelə xammal və materialların Siyahısı"nın 2-ci hissəsinin 42-ci sətrində "yeyinti" sözü "qida" sözü ilə əvəz edilsin.

34. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 14 may tarixli 257 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 5 (II kitab), maddə 595) ilə təsdiq edilmiş "Satınalan təşkilatlar tərəfindən ərzaq məhsullarının (dövlət ehtiyatları üçün alınan ərzaq məhsulları istisna olmaqla) mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaitləri hesabına satın alınması Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

34.1. 5.3.5-ci və 6.1.3-cü yarımbəndlərdə "yeyinti" sözü "qida" sözü ilə əvəz edilsin;

34.2. həmin Qaydaya 2 nömrəli əlavə - "Satın alınması nəzərdə tutulan ərzaq məhsulları, həmin məhsulların qiyməti, növü, miqdarı və satınalma şərtləri (o cümlədən satınalma dövriliyi) barədə Elan"ın 3-cü hissəsində "yeyinti" sözü "qida" sözü ilə əvəz edilsin.

35. "Yeyinti məhsullarının minimum keyfiyyətinin və təhlükəsizliyinin təmin edilməsi ilə bağlı qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə əməl olunmasına dövlət nəzarətinin həyata keçirilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 16 avqust tarixli 154 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 783 (Cild I); 2024, № 1, maddə 105) ləğv edilsin.

36. "Qida məhsulları sahəsində fəaliyyət göstərən subyektlərin qida təhlükəsizliyi qeydiyyatına alınması və dövlət reyestrinin aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 16 iyul tarixli 303 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7 (II kitab), maddə 1637 (Cild I) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***





## "Böyük qayıdış" proqramı sürətlə icra olunur





# Azad olunmuş ərazilərdə həyat qaynayır

**Xalq arasında yeni bir deyim formalaşıb: "Prezident İlham Əliyevin ayağı qoyulduğu yer cənnətə çevrilir. Həqiqətən bu, belədir. Çünki 30 ildə Ermənistanın işğalı altında viran qoyulub xarabalığa çevrilmiş ərazilər yenidən bərpa olunub abadlaşır. 44 günlük Vətən müharibəsinin başa çatmasının üstündən cəmi 5 il vaxt keçir, amma bu qısa müddətdə ölkəmizdə yeni bir tarixin yazıldığının şahidiyik.**



Milli Məclisin deputatı Azər Badamov qəzetimizə açıqlamasında bildirib ki, dünyada müharibələr başa çatandan sonra dağılmış yerlərin yenidən qurulub bərpası üçün iqtisadi gücü bərpa etməyə müəyyən zaman lazım gəlir. Amma Prezident İlham Əliyevin rəhbərliyi altında formalaşmış iqtisadi gücümüz müharibəni 44 gündə başa çatdırmağımıza və müharibədən dərhal sonra yenidənqurma və bərpa işlərinə başlanmasına yol açdı. "Belə ki, son 5 ildə işğaldan azad olunmuş ərazilərdə aparılan yenidənqurma və bərpa işlərinə dövlət bücəsindən 21 milyard manatdan çox vəsait ayrılıb. Dövlətimiz işğaldan azad olunmuş ərazilərdə minalardan təmizlənmə işindən başlayaraq, bütün istiqamətlərdə sosial infrastrukturu yenidən qurub başa çatdırmağa çalışır. Qarabağ və Şərqi Zəngəzurda hansı istiqamətə getmək istəsən, qarşına müasir yollar çıxır. Dağların altından 12 kilometr uzunluqda olmaqla Avropanın ən uzun tunelləri çəkilib. İşğaldan azad olunmuş ərazilərdə 10 min kvadratkilometr ərazinin hansı səmtinə üz tutsan, bərpa-quruculuq işləri ilə rastlaşırsan. Həm də burada əsas məsələ təkcə maliyyə vəsaitinin olması ilə bağlı deyil, həm də tikintilərdə işləyən saysız-hesabsız müasir ağır texnikalar və bu işləri yüksək keyfiyyətlə icra edən mütəxəssislərin cəlb olunmasıdır. Azərbaycan bu işin öhdəsindən çox uğurla gəlir", - deyə deputat bildirib.

O qeyd edib ki, Zəngilan rayonunun Ağalı kəndindən başlayan Böyük qayıdış uğurla davam etdirilir. Otuz ildən çox məcburi köçkün həyatı yaşamış vətəndaşlarımız artıq öz doğma yurdlarına qayıdırlar və xoşbəxt həyatlarını davam etdirirlər. Bu gün artıq Azərbaycanın bütün ərazilərində suverenlik bərpa edilib, kompleks şəkildə Böyük Qayıdışa dair Dövlət Proqramı uğurla həyata keçirilir.

A.Badamov deyib ki, 14-15 sentyabr tarixlərində Prezident İlham Əliyevin Qarabağa səfəri, bu çərçivədə təməlqoyma və açılış mərasimlərinin keçirilməsi, eləcə də öz doğma yurdlarına qayıtmış sakinlərlə görüşləri hər bir azərbaycanlıda yüksək ruh və qürur hissi yaradır: "Dövlət başçımız yorulmadan Qarabağın hər bir şəhər və kəndinə gedir. Belə ki, 14 sentyabrdan başlanmış səfər çərçivəsində Füzuli rayonunun Qaraxanbəyli kəndinin bünövrəsi qoyuldu, Xocavənd rayonunun Hadrut və Qırmızı Bazar qəsəbələrində, Şuşakənd və Sos kəndlərində olub sakinlərlə görüşdü. Xocalı rayonunun Seyidbəyli, Daşbulaq və Badara kəndlərinə qayıtmış sakinləri ziyarət etməsi Qarabağın hər bir guşəsinin çiçəklənməsi deməkdir. Prezident İlham Əliyev Qarabağ Universitetinin Klinikasının binasının, Tibb və sağlamlıq elmləri fakültəsinin tədris korpusunun açılışında iştirak etdi. Bu, Qarabağa ancaq keçmiş məcburi köçkünlərin yox, həm də elmin, təhsilin qayıtması deməkdir. Qarabağ Universiteti bundan sonra yüksəkixtisaslı həkimlər də hazırlayacaq. Dövlət başçımızın qeyd etdiyi kimi, Xankəndi tələbələr şəhəri olacaqdır".

İşğaldan azad olunmuş ərazilərə keçmiş məcburi köçkünlərin qayıdışının sürətləndiyini deyən deputat əlavə edib ki, bu gün artıq 18,5 mindən çox keçmiş məcburi köçkün olmaqla 50 mindən çox insan işğaldan azad olunmuş ərazilərdə yaşayır. 2022-ci ildə təsdiq olunmuş Dövlət Proqramına əsasən, 2022-2026-cı illərdə işğaldan azad olunmuş ərazilərə 160 min keçmiş məcburi köçkünün qaytarılması nəzərdə tutulub. Son vaxtlar keçmiş məcburi köçkünlərin qayıtdığı yaşayış məntəqələrinin siyahısının genişlənməsi Böyük Qayıdışa dair Dövlət Proqramının uğurla icra edilməsini təsdiqləyir. Azərbaycan xalqı öz Prezidentinin ətrafında sıx birləşməklə hər bir çətinliyi uğurla aşmağa qadirdir. Yaşadığımız son illərin tarixi xalqımızın güclü bir xalq olduğunu göstərir. Azərbaycan Respublikası gündən-günə inkişaf edir, daha da qüdrətlənir. Bu, dövlət başçımızın rəhbərliyi altında bizi çox gözəl bir gələcəyin gözlədiyindən xəbər verir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Yeni uğurlara hesablanan səfərlər

**Prezident İlham Əliyevin 14-16 sentyabrda işğaldan azad olunmuş ərazilərə səfəri və bu çərçivədə işlərin gedişi ilə tanışlıq, yerli sakinlərlə görüşlər ölkə rəhbərinin insanlara olan sonsuz məhəbbətinin, qayğısının, Qarabağda və Zəngəzurda gedən quruculuq, bərpa, tikinti işlərinə diqqətinin ifadəsidir. Bu gün uzun illər düşmən əsarəti altında qalan, dağıdılan, viran edilən şəhər və kəndlərimiz yenidən qurulur, abadlaşır, tarixi mədəni-dini abidələrimiz bərpa edilir, sakinlər öz doğma ocaqlarına, yurd yerlərinə qayıdırlar.**

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, insanlar təsəvvür etmədikləri bir həyatla, gözəlliklərlə qarşılaşırlar. Müasir məktəblər, xəstəxanalar, yol, abad binalar, iş yerləri onların ixtiyarındadır. Gözəl, füsunkar təbiət, doğma torpaq onları öz qoynuna alır. Prezidentimizin bildirdiyi kimi, bu ərazilərdə sadəcə olaraq rahat yaşamaq, qurub-yaratmaq, uşaqları böyütmək, onlara yaxşı tərbiyə vermək üçün bütün şərait var. Azərbaycan xalqı bundan sonra sülh içində yaşayacaq.

Komitə sədri qeyd edib ki, sülh, azadlıq, insanların xoşbəxtliyi Prezident İlham Əliyevin həyat amalıdır: "Prezident hakimiyyətdə olduğu bütün illərdə bu mövqedən çıxış edib, dövlətləri və xalqları daim sülhə səsləyib. Azərbaycan torpaqları işğal altında olduğu dövrdə də rəhbərimiz Ermənistanı təcavüzdən əl çəkməyə, sülhə gəlməyə səsləyib və bunu ən mötəbər tribunalardan bəyan edib. Həm də qətiyyətlə bildirib ki, işğalın, təcavüzün, düşmənçiliyin axrı yoxdur, əgər sülh yolu seçilməsə, müharibə qaçılmazdır və biz torpaqlarımızı mütləq azad edəcəyik. Təəssüflər olsun ki, Ermənistan rəhbərləri Azərbaycan Prezidentinin bu çağırışlarından vaxtında nəticə çıxarmadılar, özlərini məğlubedilməz hesab etdilər, beynəlxalq təşkilatların qətnamələrinə, qərarlarına məhəl qoymadılar, torpaqlarımızı viran qoymağa davam etdilər, təxribatlar törətdilər, dinc sakinləri qətlə yetirdilər, daim atəşkəsi pozaraq əhalini təhlükə altında saxladılar".

Tahir Rzayev bildirib ki, belə olan halda başqa çıxış yolu qalmamış Azərbaycan hərb yolunu seçmişdi. Qəti iradə, düşünülmüş siyasət, ordumuzun mətanəti, gücü, xalqımızın birliyi, səfərbərliyi nəticəsində düşmənin başı əzilmiş, Ermənistan ordusu tamamilə məhv edilmişdi. Düzdür, Azərbaycan xalqı da itkilər vermiş, oğullarımız torpaq uğrunda canlarından keçmiş, amma tarixi qələbəyə imza atmışdılar.

Deputat xatırladıb ki, Azərbaycan Prezidenti Xocavənd rayonunun Qırmızı Bazar, Hadrut qəsəbəsinin və Sos kəndinin sakinləri ilə görüşü zamanı ordumuzun, əsgər və zabitlərimizin, xalqımızın şücaətini, mətinliyini yüksək qiymətləndirməklə, şəhidlərimizi hörmətlə xatırlatmaqla bərabər, itkilərimizə təəssüfləndiyini də bildirib və qeyd edib ki, əgər Ermənistan rəhbərliyi vaxtında onun sözlərinə baxıb bizim torpaqlardan öz xoşu ilə çıxsaydı, İkinci Qarabağ müharibəsinə, antiterror əməliyyatına ehtiyac qalmazdı, üç mindən çox şəhidimiz olmazdı. "Bu reallıqdır və Azərbaycanın qələbəsi haqqın, ədalətin qələbəsi idi. Qələbə uğrunda canlarından keçən, sağlamlığını itirən hər kəs dövlətimiz və xalqımız üçün əzizdir. Onlar ölməzdir, qəhrəmandırlar, əbədi həyat qazanmışlar. Cənab İlham Əliyevin sakinlərlə görüşü zamanı söylədiyi kimi, Vətən uğrunda şəhid olmaq, əlbəttə ki, böyük qəhrəmanlıqdır və onları biz əbədi yadımızda saxlayacağıq, xatirələrinə əbədi hörmət edəcəyik. Bu hörmət və ehtiram şəhidlərimizin qanı tökülən torpaqlarda ucaldılan abidələrdə, çəkilən yollarda, ucaldılan binalarda, gülüstanı xatırladan bağ-bağçalarda, məktəblərdə, insanların sevinclərində öz təcəssümünü tapır. Şəhidlərimizin xatirəsinin əbədiləşdirilməsi, şəhid ailələrinə, qazilərə göstərilən qayğı və diqqət, onların minik maşınları, evlərlə təmin edilməsi, doğma yurd yerlərində hər cür şəraitin yaradılması bu hörmət və ehtiramın bariz ifadəsidir, sülhə, təhlükəsizliyə bir töhfədir", - deyə o bildirib.



T.Rzayev vurğulayıb ki, Prezidentin Vaşinqtona səfəri və ABŞ-nin Prezidenti Donald Tramp və Nikol Paşinyanla keçirilən üçtərəfli görüş, Birgə Bəyannamənin imzalanması, Minsk qrupunun, 907-ci maddəyə əlavənin ləğv edilməsi, sülhün dəstəklənməsi dövlət başçımızın sülh amallarının ifadəsi idi və artıq öz nəticələrini verməkdədir. Görüşlər zamanı dövlətimizin rəhbərinə bəslənilən yüksək hörmət və ehtiram bilavasitə sülhə və əmin-amanlığa verdiyi töhfənin ifadəsi kimi qiymətləndirilməlidir. Bu etimad nəinki ABŞ-də, eləcə də Çində - Şanxay Əməkdaşlıq Təşkilatının Sammitində özünün aydın ifadəsini tapdı və cənab Prezident çıxışlarında, bəyanatlarında dünyaya yeni sülh mesajları ünvanladı. Ölkəmizin rəhbəri bu mesajları yalnız böyük dövlətlərin tribunalarından deyil, eləcə də işğaldan azad olmuş ərazilərdə də, sadə, zəhmətkeş insanlarla görüşlərdə də səsləndirir və bu çağırışlar xalq tərəfindən dəstəklənir.

Komitə sədri qeyd edib ki, bu siyasət sistemli, davamlı və xoşbəxt gələcəyə hesablanıb: "Bu, bəşəriyyəti düşündürən və daim diqqətdə olan bir siyasətdir. Dünyada müharibələrə, münaqişələrə, qarşıdurmalara yönəldilən cəhdləri Azərbaycan dövləti qəbul etmir, Prezidentimiz bu əməllərin tamamilə əleyhinədir və bu yolda bütün səylərini ortaya qoyur. Füzuliyə, Xankəndiyə, Xocavəndə, Xocalıya səfərləri, insanlarla görüşləri zamanı cənab İlham Əliyev bunu dəfələrlə xatırlatdı və sülhü, əmin-amanlığı daim dəstəkləyəcəyini bir daha bəyan etdi. Azərbaycan Prezidenti işğaldan azad olunmuş ərazilərə daimi səfərləri, burada aparılan möhtəşəm quruculuq işləri ilə dünyaya bir daha bəyan edir ki, xalqımız sülhsevərdir, yaradıcı-qurucudur, mətindir, mübarizdir. Ölkə rəhbəri öz doğma yurdlarına köç edən, məskunlaşan insanları güləruz, xoşbəxt görəndə sevinir, qürurlanır və onların qurub-yaratmaq eşqinin şahidi olanda fərəhlənir. Qarabağda və Şərqi Zəngəzurda gedən quruculuq dünyanın heç bir yerində yoxdur. Bu, bir həqiqətdir. Azərbaycan Prezidentinin Füzuli rayonunda yeni salınacaq Qaraxanbəyli kəndinin təməlini qoyması, Xocavənd rayonunun Hadrut qəsəbəsində inşa olunmuş məscidin, Xankəndi şəhərində Qarabağ Universitetinin klinikasının binasının, Tibb və sağlamlıq elmləri fakültəsinin tədris korpusunun açılışında iştirak etməsi, Xocalı rayonunun Daşbulaq kəndində 13 hektar sahədə salınmış tut bağı ilə tanışlığı, Xankəndi, Xocavənd, Xocalı sakinləri ilə səmimi görüşləri Qarabağ və Zəngəzur torpaqlarına, bu ərazilərin sakinlərinə sonsuz məhəbbətdən, bu yerlərin gələcəyinə böyük inamdan, vətənə, xalqa sədaqətdən qaynaqlanır".

Müsahibimiz vurğulayıb ki, bir neçə il bundan əvvəl xarabazarlığı xatırladan bu yurd yerləri indi gülüstana çevrilməkdədir. Xarici ölkələrin dövlət rəhbərləri, tanınmış ictimai-siyasi xadimlər, elm adamları, jurnalistlər, turistlər hər dəfə bu torpaqlara səfər edərkən yeni bir mənzərənin, yüksəlişin şahidi olurlar və heyrətlərini gizlədə bilmirlər. Bu sevinc və heyrət, əlbəttə ki, Azərbaycan Prezidentinin uğurlu siyasətinin, xalqımızın birliyinin, əldə olunan qələbələrin, iqtisadi inkişafın, ictimai-siyasi sabitliyin, yeni uğurlara inamın ifadəsidir. Dayanıqlı və davamlı iqtisadi inkişaf, milli təhlükəsizliyimizin təmin olunması, müdafiə qüdrətimizin yüksəlməsi, xalqın sosial rifahının yaxşılaşması nailiyyətlərimizin əsasıdır və Azərbaycan bu əsas üzərində qurulur, inkişaf edir və beynəlxalq aləmdə böyük nüfuz qazanmaqla daha xoşbəxt gələcəyə doğru inamla addımlayır.

*Ə.QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Qarabağ və Şərqi Zəngəzur gündən-günə gözəlləşir

## Bu, keçmiş məcburi köçkünlərin doğma yurdlarında məskunlaşmalarını sürətləndirir

**İkinci Qarabağ müharibəsi şanlı Azərbaycan Ordusunun qələbəsi ilə başa çatdıqdan sonra işğaldan azad edilmiş ərazilərdə quruculuq və abadlıq işlərinə başlanıldı. 30 ilə yaxın müddət ərzində erməni vandalları şəhərləri, kəndləri və bu ərazilərdəki qədim tarixi abidələri, inanc yerlərini vəhşicəsinə dağıtmışdılar. Yolları bərbad vəziyyətə salmışdılar. Buna görə də keçmiş köçkünlərin doğma ocaqlarında dönüb yaşamaları üçün heç bir şərait qalmamışdı. Odur ki, görüləsi quruculuq və abadlıq işlərinin miqyası böyük idi. Hər şey sıfırdan tikilməliydi. Yeni yollar çəkilməli, körpülər tikilməli, yeni kəndlər salınmalı idi. Gündən-günə iqtisadi gücünü və dünyada siyasi nüfuzunu artıran Azərbaycan bütün bu işlərin öhdəsindən gəlməyə qadir və hazır idi.**

Çox keçmədi ki, erməni işğalçılarından azad olunmuş ərazilərdə quruculuq və abadlıq işlərinin ilk kərpicləri qoyuldu, kənd və şəhərlərin bünövrəsi atıldı. Qısa müddət ərzində Böyük Qayıdışa dair Dövlət Proqramına uyğun olaraq zəruri işlər görüldü, möhtəşəm layihələr həyata keçirildi. Məhz sürətlə aparılan abadlıq və quruculuq işlərinin nəticəsidir ki, bu gün artıq keçmiş məcburi köçkünlərin bir qismi doğma ocaqlarına qayıdaraq Zəngilanda, Laçında, Ağdamda, Cəbrayılda, Füzulidə, Xocalıda, Ağdərədə, Kəlbəcərdə və işğaldan azad olunmuş başqa ərazilərdə tam təhlükəsiz şəraitdə yaşayırlar. Demək olar ki, hər həftə, hər ay mərhələli şəkildə keçmiş məcburi köçkünlər böyük sevinc içində ata-baba yurdlarına qayıdırlar.

### 19-20 sentyabr antiterror tədbirləri dünya hərb tarixində nadir hadisədir

44 günlük Vətən müharibəsi ordumuzun, xalqımızın qələbəsi ilə başa çatsa da, hələ də erməni separatçıları və Ermənistan silahlı qüvvələrinin tör-töküntüləri könüllü olaraq silahı yerə qoyub Azərbaycanın əbədi-əzəli torpaqları olan Qarabağdan çıxmaq istəmirdilər. Sülh çağırışlarına əhəmiyyət verməyən erməni separatçıları Xocalıda, Xankəndidə, Ağdərədə, Əsgəranda və başqa ərazilərdə yeni səngərlər qazaraq daha da möhkəmlənməyə çalışırdılar. Tez-tez sərhədyanı ərazilərdə ölümlə nəticələnən təxribatlar törədirdilər. Bu təxribatların qarşısının alınması məqsədilə həm BMT-nin qətnamələrinə, həm də üçtərəfli Bəyanatın müvafiq bəndinə uyğun olaraq Azərbaycan Ordusu ölkəmizin təhlükəsizliyini təmin etmək məqsədilə Qarabağda lokal xarakterli antiterror tədbirləri həyata keçirməyə məcbur oldu. Rəşadətli ordumuz 2023-cü il sentyabrın 19-20-də Qarabağdakı separatçıları məhv etmək üçün əməliyyata başladı. 23 saat 43 dəqiqə davam edən əməliyyat nəticəsində Qarabağ ərazisində qanunsuz erməni silahlı birləşmələrinin və separatçı rejimin mövcudluğuna son qoyuldu. Ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa olundu. Azərbaycan Ordusunun Qarabağda erməni separatizminə qarşı həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri bu gün dünya hərb tarixində nadir əməliyyatlardan biri hesab olunur.

Antiterror tədbirlərinin uğurla başa çatmasından, ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa olunandan sonra Qarabağdakı quruculuq işləri daha da geniş vüsət aldı. Bu gün Qarabağda və Şərqi Zəngəzurda aparılan quruculuq və abadlıq işləri nəticəsində tikilən evlər göz oxşayıb, könül açır. Prezident İlham Əliyev tez-tez Qarabağa, eləcə də işğaldan azad olunmuş bölgələrə səfər edərək tikilib başa çatmış yaşayış məntəqələrinin, müəssisələrin açılışlarını edir, yeni kəndlər və şəhərlərin bünövrəsini qoyur. Dövlətimizin başçısı uzun ayrılıqdan sonra doğma ocaqlarına dönmüş sakinlərlə söhbət edir, onların ürək sözlərini dinləyir.

Prezident İlham Əliyevin bu günlərdə Qarabağa etdiyi səfər cəmiyyətimizdə böyük maraqla qarşılanıb. Dövlətimizin başçısı səfəri çərçivəsində Xankəndidə, Xocalıda, Xocavənddə, Füzulidə, Hadrutda olub. Prezident İlham Əliyev sentyabrın 14-də Xankəndi şəhərində Qarabağ Universitetinin Klinikasının binasının, Tibb və sağlamlıq elmləri fakültəsinin tədris korpusunun açılışında iştirak edib. Dövlətimizin başçısı Qarabağ Universitetinin Klinikasının binasında yaradılmış şəraitlə yaxından tanış olub. Universitetdə Klinikanın yaradılması, həmçinin Tibb və sağlamlıq elmləri fakültəsinin fəaliyyətə başlaması yeni dövrün çağırışlarına uyğun peşəkar tibb mütəxəssislərinin hazırlanması istiqamətində atılmış çox mühüm bir addımdır. Digər tərəfdən, klinikada keçiriləcək elmi tədqiqatlar Qarabağ Universitetinin akademik nüfuzunun və beynəlxalq reytinqinin artmasına, eləcə də ölkəmizdə tibb elminin inkişafına öz töhfəsini verəcək. Gənclərin bu ali təhsil ocağına olan maraqlarını daha da artıracaq.

Dövlətimizin başçısı daha sonra Xocavənd rayonunun Qırmızı Bazar, Hadrut qəsəbələrinin və Sos kəndinin sakinləri ilə görüşüb. Sakinlər Prezident İlham Əliyevi "Xoş gəlmisiniz" sözləri ilə salamlayıblar. Dövlətimizin başçısı da "Sağ olun, siz də xoş gəlmisiniz" sözləri ilə cavab verib. Sakinlərlə səmimi söhbətinə davam edən Prezident deyib: "Doğma Qarabağ torpağında artıq gəlib yerləşdiniz.








Burada bir neçə kəndin sakinləri görüşə gəlib. Bu gün bir neçə kənddə olmuşam, sabah da davam edəcək. Bütün Qarabağ artıq tam nəzarət altındadır və bildiyiniz kimi, bu ərazi iki il bundan əvvəl işğalçılardan azad edildi. Elə bu günlərdə - sentyabrın 19-20-də şanlı Ordumuz separatçılığa son qoydu. Onunla da separatçılığın kitabı bağlandı və Azərbaycan tam suverenliyini bərpa etdi. Böyük Qayıdış Proqramı da uğurla icra edilir. Biz təqribən iki aydan sonra tarixi Zəfərimizin beşillik yubileyini qeyd edəcəyik... Son beş ilin tarixi Zəfər tarixidir, şanlı tariximizdir və şadam ki, siz artıq öz doğma dədə-baba torpağınıza gəlmisiniz, yerləşmisiniz. Sizin üçün burada şərait yaradılıb, evlər tikilib, təmir edilib. Bütün şərait var - su, qaz, elektrik, istilik, məktəb, tibb məntəqəsi, yollar. Ən önəmlisi bura doğma Qarabağ diyarıdır. Gözəl mənzərəli yerlərdir, hər tərəf dağ, meşə, bulaq, su da boldur. Yəni burada, sadəcə olaraq, rahat yaşamaq, qurub-yaratmaq, uşaqları böyütmək, onlara yaxşı tərbiyə vermək üçün bütün şərait var. Yəni artıq Azərbaycan xalqı bundan sonra sülh içində yaşayacaq".

Prezident İlham Əliyev sakinlərlə söhbətinə davam edərək deyib ki, bu gün biz bu gözəl Qarabağ diyarında yığışmışıq. Bunun əsas səbəbi xalqımızın birliyidir və gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə almasıdır. Biz bütün dünyaya sübut etmişik ki, güclü xalqıq, iradəli xalqıq, döyüş meydanında da qələbə qazanmışıq, sülhə də hər zaman hazır idik. Amma sülh ədalətli sülh olmalı idi, beynəlxalq hüquq və tarixi ədalət üzərində sülh olmalı idi. Son beş ilin tarixi onu göstərdi ki, heç bir xarici qüvvə bizim iradəmizə təsir edə bilmədi. 2023-cü ilin sentyabr hadisələri, antiterror əməliyyatı bir daha göstərdi ki, heç kim bizim qabağımızda dura bilməz. Çünki bizim işimiz haqq işidir, biz öz torpağımız uğrunda vuruşmuşuq, bizim başqa ölkələrin torpağında gözümüz yoxdur, amma öz torpağımızdan bir qarış belə heç kimə güzəştə gedən deyilik və bunu sübut etmişik. "Bu gün bütün dünya Azərbaycan xalqını haqlı olaraq müzəffər xalq kimi tanıyır. 44 gün və bir gün - heç bir ölkə son 80 il ərzində belə mütləq, tam və ədalətli qələbə qazanmamışdır. Bununla fəxr edirik. Fəxr edirik, necə ki, müharibədə döyüşmüşük, vuruşmuşuq, eləcə də sülh şəraitində qurub-yaradırıq. Ermənilər bizim torpaqlarımızı viran qoyublar. Sizin yaşadığınız kənd və şəhərləri yerlə yeksan etmişdilər. Özlərinin yaşadıqları şərait elə idi ki, necə deyərlər, özünə hörmət edən insan heç vaxt orada yaşamazdı. Amma görün, biz beş il ərzində şəhərlər, kəndlər, körpülər, tunellər, su anbarları, elektrik stansiyaları qurmuşuq. Yəni burada - Qarabağda və Zəngəzurda gedən quruculuq dünyanın heç bir yerində yoxdur. Əsas odur ki, Azərbaycan xalqı rahat yaşasın, xoşbəxt yaşasın, sülh içində yaşasın. Sizi təbrik edirəm", - deyə dövlətmizin başçısı əlavə edib.

### "Sizin ayağınız dəyən yerlər cənnətə dönür"

Sakinlərdən biri dövlət başçımıza xoş sözlər ünvanlayaraq deyib: "Çox sağ olun, var olun. Sizin ayağınız dəyən yerlər cənnətə dönür. Bu gün biz 30 il həsrətində qaldığımız torpaqlarımıza, dədə-baba yurdumuza qayıtmışıq. Sizə minnətdarlığımızı bildiririk. Allah Sizə uzun ömür, cansağlığı versin".

Prezident İlham Əliyev Xocalı rayonunun Şuşakənd, Seyidbəyli, Daşbulaq və Badara kəndlərində olub, sakinlərlə görüşüb söhbət edib. Sakinlər qarşısında çıxış edərkən Prezident ərazi bütövlüyümüzün və suverenliyimizin bərpasından bəhs edərək deyib: "Əminəm ki, bundan sonra həyatınızda ancaq sevincli günlər olacaq. O əzab-əziyyət, ədalətsizlik, haqsızlıq arxada qaldı. Azərbaycan dövləti sizin üçün bütün şəraiti yaradıb. Evlər gözəl təmir olunur, bütün infrastruktur - yollar, təbii qaz və elektrik enerjisi, su".

Qarabağda və Şərqi Zəngəzurda quruculuq və abadlıq işləri yüksək vüsət alıb. Keçmiş məcburi köçkünlər mərhələ-mərhələ doğma ocaqlarına dönərək Azərbaycan dövlətinin onlar üçün tikdiyi evlərdə rahat yaşayırlar. Ata-baba yurduna qayıtmış bu insanlar da quruculuq işlərində yaxından iştirak edir, Qarabağı və Şərqi Zəngəzuru daha da gözəlləşdirirlər.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

RƏSMİ DÖVLƏT QƏZETİ AZƏRBAYCAN



# Azərbaycandan beynəlxalq enerji aləminə açılan qapı

## BTC-nin təməlinin qoyulduğu gündən 23 il keçir



**2002-ci il sentyabrın 18-də üçüncü minilliyin nəhəng mühəndis qurğusu olan Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəmərinin təməli qoyuldu. "Əsrin müqaviləsi"ndən sonra bu, ölkəmizin neft-qaz sənayesində baş verən növbəti tarixi hadisə idi.**

BTC-nin təməlinin qoyulması, əslində, "Əsrin müqaviləsi"ndən doğan reallıq idi. Belə ki, 1994-cü ildə imzalanan bu möhtəşəm saziş çərçivəsində 1997-ci ildə neft hasilatına başlandı. Hasilat getdikcə artırdı və yaxın illərdə daha çox neft əldə olunacağına şübhə yox idi. Bu səbəbdən də Bakı-Supsa və Bakı-Novorossiysk kəmərlərindən əlavə daha böyük bir ixrac marşrutuna ehtiyac yaranırdı. Belə bir şəraitdə müəllifi Ümummilli Lider Heydər Əliyev olan BTC-nin çəkilişi ideyası irəli sürüldü. 1998-ci ildə Ankarada kəmərin inşa edilməsi haqqında bəyannamə, 1999-cu ildə İstanbulda ATƏT-in Zirvə görüşü zamanı isə xəttin çəkilişi ilə bağlı saziş imzalandı. Saziş Azərbaycanın, Gürcüstanın, Türkiyənin, Qazaxıstanın və Amerika Birləşmiş Ştatlarının ovaxtkı prezidentlərinin imzaları ilə təsdiqləndi.

Lakin vaxtilə "Əsrin müqaviləsi"ni xülya adlandıranlar, müxtəlif bəhanələrlə və güclü səylərlə bu sazişin imzalanmasına mane olmaq istəyənlər yenidən baş qaldırdılar. İndi hədəfdə BTC idi. Ulu Öndər Heydər Əliyevin gərgin mübarizəsi və dünyadakı siyasi nüfuzu sayəsində bu maneələr də aradan götürüldü.

Kəmərin təməli qoyuldu. Həmin gün dünyanın diqqəti Bakiya yönəlmişdi. Təməlqoyma tədbirində Azərbaycanın, Gürcüstanın və Türkiyənin dövlət başçıları, ABŞ-nin energetika naziri, layihədə tərəfdaşlar olan tanınmış xarici şirkətlərin səlahiyyətli nümayəndələri, neçə-neçə ölkənin jurnalistləri iştirak etdilər.

BTC artıq reallığa çevrilirdi. İşlərin mərhələlərlə həyata keçirilməsinə başlanmışdı, Azərbaycanın və Gürcüstanın tikinti aparılacaq ərazilərinə xaricdən alınan borular gətirilirdi. Layihənin mühüm bir mərhələsində - maliyyələşmə məsələləri həll edilərkən BTC-nin bədxahları yenidən səslərini qaldırdılar. Əvvəllər Azərbaycanda bu kəməri dolduracaq qədər neftin olmadığı barədə əsassız fikir yayanlar indi başqa uydurmaya əl atdılar. Belə ki, bir sıra qeyri-hökumət təşkilatları kəmərin Gürcüstanın "Borjomi" mineral su mənbəyinə ekoloji cəhətdən guya zərbə vuracağı fikrini ortaya atdılar. Onlar tikintini maliyyələşdirəcək beynəlxalq qurumların ofisləri qarşısına toplaşaraq xəttin çəkilişinə etiraz edirdilər. Gürcüstan Respublikası dövlətinin və hökumətinin layihəni dəstəklədiyi, artıq işlərə start verildiyi bu məqamda belə bir məsələnin ortaya atılması şübhə doğurmaya bilməzdi. Demə, burada da erməni "əli" varmış.

O zaman AŞPA-nın sədr müavini olan İlham Əliyev məsələnin nədən və haradan qaynaqlandığını açıqladı. Belə ki, ermənilər BTC-nin reallaşma mərhələsinə qədəm qoyduğundan narahat olub internetdə sayt açmışdılar və Beynəlxalq Maliyyə Korporasiyasına, Dünya Bankına, digər beynəlxalq maliyyə qurumlarına layihə haqqında əks məlumat göndərirdilər.

Lakin Ümummilli Lider layihənin həyata keçirilməsinin bütün mərhələlərində olduğu kimi, yenə də "BTC olacaq, olacaq, olacaqdır!" deyirdi. Bu baxımdan 2003-cü ilin fevral ayında Vaşinqtonda keçirilən "Şərq-Qərb enerji dəhlizi reallıqdır" konfransında şəxsən iştirak etməyi qərara alması da təsadüfi deyildi. Tədbirin keçirildiyi günlərdə Heydər Əliyev ABŞ-nin ovaxtkı Prezidenti və Vitse-prezidenti, ticarət və energetika nazirləri, Beynəlxalq Maliyyə Korporasiyasının rəhbəri ilə görüşdü. Beləliklə, BTC bu dəfə də çətinlikdən çıxdı.

2004-cü il fevralın 3-də Bakıda, "Gülüstan " sarayında Prezident İlham Əliyevin iştirakı ilə BTC layihəsinin maliyyələşdirilməsi ilə əlaqədar son sənədlər imzalandı. Kəmər istifadəyə veriləndən sonra isə layihənin səhmdarları belə bir təşəbbüslə çıxış etdilər ki, BTC Ulu Öndər Heydər Əliyevin adını daşısın. Təklif Azərbaycan dövləti və xalqı tərəfindən məmnunluqla qarşılandı.

Bu gün BTC təkcə ölkəmizin deyil, bütün regionun həyatında mühüm rol oynayır. Bu kəmər Azərbaycana və ərazisindən keçdiyi ölkələrə birbaşa gəlirlər gətirməklə yanaşı, marşrut boyu yerləşən yaşayış məntəqələrinin icmalarının həyatına sosial sərmayələri ilə də dəstək verir.

BTC-nin əhəmiyyəti həm də onun özündən sonra neçə-neçə nəhəng layihəyə yol açmasındadır. Başqa sözlə, Ümummilli Lider Heydər Əliyev bu nəhəng qurğunun təməlini qoydu, Prezident İlham Əliyev bu işi uğurla davam etdirərək BTC-ni möhtəşəm dəhlizlərə qovuşdurdu. Dövlətimizin başçısının dediyi kimi: "Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikilməsi nəticəsində biz artıq pəncərədən başlayaraq böyük qapı açdıq. Azərbaycanı beynəlxalq enerji ailəsinə daxil edə bildik. Həm siyasi, həm iqtisadi baxımdan böyük uğurlar əldə edə bilmişik".

Xatırladaq ki, uzunluğu 1768 kilometr olan BTC Xəzər regionundan xam neft ixrac etmək üçün çəkilib. Kəmər Azərbaycanda 443, Gürcüstanda 249, Türkiyədə 1076 kilometr məsafə qət edir. Əvvəlcə gündə bir milyon barel neft ötürmək gücündə layihələndirilən boru xəttinin gündəlik ötürücülük qabiliyyəti 2009-cu ilin yazından 1,2 milyon barelə çatdırılıb. Kəmərin 8 nasos stansiyası və 98 siyirtmə məntəqəsi var. Baş nasos stansiyası Səngəçalda yerləşir. İkinci stansiya da ölkəmizin ərazisində, Yevlax rayonundadır. Daha iki stansiya Gürcüstanda fəaliyyət göstərir. Qalan dörd stansiya Türkiyənin payına düşür.

BTC-nin səhmdarları bunlardır: BP (30,10 faiz), SOCAR (32,97 faiz), MOL (8,90 faiz), TPAO (6,53 faiz), "Eni" (5 faiz), "TotalEnergies" (5 faiz), İTOÇU (3,40 faiz), ONGC Videş (3,10 faiz), "EksonMobil" (2,50 faiz) və İNPEKS (2,50 faiz) şirkətləridir.

2006-cı ilin ortalarında istismara veriləndən 2025-ci ilin iyun ayının sonunadək bu boru kəməri vasitəsilə ümumilikdə təqribən 605 milyon ton (təqribən 4,6 milyard barel) xam neft nəql edilib və həmin neft həcmləri Ceyhanda 6007 tankerə yüklənərək dünya bazarlarına göndərilib. Bu ilin ilk altı ayı ərzində BTC vasitəsilə ixrac olunmuş təqribən 13 milyon ton (təxminən 106 milyon barel) xam neft və kondensat Ceyhan terminalında 145 tankerə yüklənib və yola salınıb.

BTC fəaliyyətini fasiləsiz və təhlükəsiz davam etdirir. Hətta bir neçə il əvvəl Türkiyədə kəmərin keçdiyi ərazilərdə baş verən zəlzələ onun borularına heç bir ziyan vura bilmədi. Deməli, BTC zamanın hər sınağından keçərək inamla irəliləyir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Samuxda Dövlət Suverenliyi Günü ilə bağlı tədbir keçirilmişdir




**Samuxda "20 Sentyabr Dövlət Suverenliyi Günü" ilə bağlı tədbir keçirilmişdir.**

Tədbirdə Samux Rayon İcra Hakimiyyəti başçısının müavini, ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Kəmalə Xəlilova çıxış edərək diqqətə çatdırmışdır ki, 2023-cü il sentyabrın 19-da Azərbaycanın Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması və Ermənistan silahlı qüvvələrinin bölgədə tərk-silah edilərək torpaqlarımızdan çıxarılması məqsədilə antiterror əməliyyatına başlanıldı. Cəmi 23 saat davam edən əməliyyat nəticəsində rəşadətli Azərbaycan Ordusu qarşıya qoyulmuş bütün vəzifələri yüksək peşəkarlıqla yerinə yetirdi. Beləliklə, növbəti parlaq Qələbə nəticəsində Azərbaycan Respublikasının suverenliyi tam bərpa edildi. Azərbaycan xalqının həyatında müstəsna əhəmiyyət kəsb edən şanlı qələbə sayəsində bu gün Azərbaycan Respublikasının Dövlət bayrağı suverenliyimizin bərqərar olduğu bütün ərazilərdə əzəmətlə dalğalanmaqdadır.

Tədbirdə çıxış edən Samux Rayon Ağsaqqallar Şurasının sədri Garay Bayromov, Samux rayon mərkəzi kitabxana sisteminin müdiri Telli Nəsibova , şəhid Elvin Məmmədzadənin atası İlham Məmmədov şəhidlərimizin qanı bahasına əldə edilmiş tarixi qələbədən danışmış, ölkəmizdə şəhid ailələrinə və qazilərə göstərilən diqqət və qayğıdan söhbət açmışlar.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Lənkəranda iki marşrut xəttinə yeni avtobuslar buraxılıb

**Son illər Lənkəran rayonun dinamik inkişafı, əhalinin sayının artması ictimai nəqliyyata olan tələbatı da artırıb.**



Bununla bağlı dövlətin dəstəyi və aidiyyəti qurumların birgə fəaliyyəti nəticəsində sərnişinlərin rahat, təhlükəsiz və vaxtında daşınması üçün mühüm addımlar atılır.

Rayonun nəqliyyat sisteminin inkişafı və sərnişinlərin rahatlığının təmin edilməsi istiqamətində görülən işlərin davamı olaraq, iki marşrut xəttinə dörd yeni, müasir avtobus buraxılıb. "Lənkəran - Sərnişin" ASC tərəfindən Böyük Bazar - Dairəvi və Böyük Bazar - Mikrorayon istiqamətləri üzrə ümumi sərnişin tutumu 35 nəfər olan "Qazel Next City" markalı 2025-ci il istehsalı yeni avtobuslar xəttə çıxarılıb.

Qeyd edək ki, xəttə buraxılan yeni avtobuslar həm texniki göstəricilərinə, həm də komfort səviyyəsinə görə əvvəlkilərdən fərqlənir. Yeni avtobuslar müasir təhlükəsizlik sistemləri, kondisioner, geniş oturacaqlar, əlilliyi olan şəxslər üçün xüsusi yerlər və ekoloji təmiz mühərriklərlə təchiz olunub.

Yeni avtobusların istifadəyə verilməsi yalnız nəqliyyat xidmətinin yaxşılaşdırılması deyil, həm də gündəlik həyatımızın daha rahat və təhlükəsiz təşkilidir.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# Hindarx qəsəbəsinin uşaqları yeni dərs ilinə yeni məktəbdə başlayıblar




**Hindarx qəsəbəsində Birinci Qarabağ müharibəsi şəhidi Qaraş Əliyev adına 3 nömrəli ümumorta məktəbin yeni binası tikilərək istifadəyə verilib.**

Bu münasibətlə keçirilən tədbirin iştirakçıları ilk öncə şəhid Qaraş Əliyevin məktəbin həyətində ucaldılmış büstünü ziyarət edərək önünə çiçəklər düzüblər.

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov, Qarabağ Regional Təhsil İdarəsinin tabeliyində olan Ağcabədi rayonu üzrə təhsil sektorunun müdiri Teymur Qasımov, "Capitel qrup" MMC-nin direktoru Rasim Hüseynov çıxış edərək məktəbin müəllim və şagirdlərini, onların simasında Hindarx qəsəbə sakinlərini təbrik ediblər. Çıxışlarda minnətdarlıqla vurğulanıb ki, Azərbaycan dövləti təhsilin inkişafına, gənc nəslin hərtərəfli yetişməsinə daim xüsusi diqqət göstərir. Müasir standartların bütün tələblərinə cavab verən bu möhtəşəm tədris ocağının inşası da məhz Prezident İlham Əliyevin təşəbbüsüdür.

Məktəbə adı verilmiş şəhidin qardaşı Elşad Əliyev öz çıxışında ölkə və rayon rəhbərinə, ümumilikdə məktəbin ərsəyə gəlməsində zəhməti olan hər kəsə öz minnətdarlığını ifadə edib.

İcra başçısı Rafil Hüseynov məktəbin açılış rəmzi olan qırmızı lenti kəsib. Sinif otaqlarına baxış keçirilib. Qonaqlar burada yaradılmış şəraitlə yaxından tanış olublar. 528 şagirdlik məktəbdə informatika otağı, müəllimlər otağı, kimya otağı, hərbi hazırlıq otağı, fizika kabineti, idman zalı, oğlanlar və qızlar üçün istənilən ləvazimat və avadanlıqlarla təchiz olunmuş ayrı-ayrı texnologiya kabinetləri, geniş yeməkxana, eləcə də tədbirlərin, görüşlərin keçirilməsi üçün nəzərdə tutulan 278 nəfərlik möhtəşəm akt zalı, geniş və zəngin kitab fonduna malik kitabxana məktəblilərin ixtiyarına verilib.

***Gündüz SEVİNDİK,***
***Ağcabədidə çıxan "Aran" qəzetinin əməkdaşı***

# Ağcabədi pambıqçıları yeni hədəflərə çatmaq əzmindədirlər

**Aylardan bəri çəkilən zəhmət öz bəhrəsini verməkdədir. Geniş tarlalar yavaş-yavaş ağ örpəyə bürünür. Cari ilin yığım kampaniyasına hazırlıq son mərhələdədir.**



Yaqub Məmmədov adına Ağcabədi Mədəniyyət Mərkəzində Ağcabədi pambıqçılarının ümumrayon müşavirəsi keçirilib. Ağcabədi RİH başçısı Rafil Hüseynov tədbiri açıq elan edib. Sonra təsərrüfat ili üçün pambıq məhsulunun vaxtında və itkisiz yığılması ilə bağlı rayon ərazisində fəaliyyət göstərən pambıq emalı zavodlarının və qəbulu məntəqələrinin yığıma hazırlığı barədə Ağcabədi Dövlət Aqrar İnkişaf Mərkəzinin direktor vəzifəsini müvəqqəti icra edən, Bitkiçilik sektorunun müdiri Azamin Abdullayev məruzə ilə çıxış edib. O qeyd edib ki, 2025-ci il təsərrüfat ili üçün rayonda 1253 nəfər fermer tərəfindən tədarükçü şirkətlərlə 11791,7 hektar sahədə pambıq əkini üçün müqavilə bağlanıb. Hazırda məhsul yığımına son hazırlıq işləri görülür. O da vurğulanıb ki, pambığın hər hektarına becərmə xərci maksimum halda 2000 manat olduğu halda, dövlət tərəfindən hər hektardan 50 sentner məhsul əldə etmiş fermerə 975 manat məhsul subsidiyası ödənilir. Bu da fermerlərə böyük maddi dəstəkdir. Pambığın gətirdiyi gəlir rayonun bütün təbəqədən olan əhalisinin rifahına müsbət təsir göstərir.

"Prime cotton" MMC-nin Ağcabədi filialının direktoru İbrahim Ağamirov, "Azərpambıq" ASK MMC-nin Ağcabədi Pambıq Emalı Zavodunun direktor vəzifəsini müvəqqəti icra edən Rasim Rəsulov, "P-Aqro" MMC-nin Ağcabədi filialının direktoru Qələndar Mamedov, o cümlədən fermerlər - Abdulla Həsənov, Famil Quliyev və Etibar Şirinov məruzə ətrafında çıxışlar ediblər. Çıxışlarda vurğulanıb ki, hazırda sahələrdə defolyasiya işləri gedir, məhsul yığımına hazırlıq, xüsusən yığımda istifadə ediləcək işlək vəziyyətdə olan texnikalara nəzarət prosesləri həyata keçirilir.

FHN-in Ağcabədi Dövlət Yanğından Mühafizə hissəsi rəisinin vəzifəsini müvəqqəti icra edən, daxili xidmət mayoru Elnur Qəmbərov çıxış edərək təhlükəsilik işləri ilə bağlı müəyyən tövsiyələr verib. Qeyd edib ki, pambıq yığımında texnikadan düzgün istifadə və əməkdaşların təhlükəsizlik qaydalarına əməl etməsi olduqca vacibdir. Burada xüsusilə yanğın təhlükəsiliyi məsələləri ön plandadır.

Müşavirədə fermerləri narahat edən və maraqlandıran məsələlər mütəxəssislər tərəfindən ətraflı şəkildə cavablandırılıb.

Sonda Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov böyük zəhmət bahasına yetişdirilmiş strateji məhsul olan pambığı tez və itkisiz yığıb tədarük etmək üçün zəruri tədbirlər görülməsini diqqətə çatdırıb. Əmin olduğunu bildirib ki, Ağcabədi pambıqçıları cari ili uğurla başa vuracaq, ölkə iqtisadiyyatının daha da güclənməsinə yeni töhfələr verəcəklər.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

## Müslüm Maqomayev - 140

# "O, əsl realist xalq bəstəkarı idi"

**Bütün dövrlərdə dahi sənətkarların həyatı və yaradıcılığı, zəngin irsi insanların daim diqqət mərkəzində olur, onların ölməz əsərləri müasirlərini düşündürür, ictimaiyyət arasında müxtəlif fikirlər oyadır və bu diqqəti, bu marağı zamanənin heç bir axarı nə poza, nə də dəyişə bilir. Bu baxımdan görkəmli bəstəkar, dirijor, pedaqoq, folklorşünas, ictimai xadim, milli musiqimizdə Avropa üslubunda ilk operanın müəllifi, Əməkdar incəsənət xadimi Əbdülmüslüm Məhəmməd oğlu Maqomayev Azərbaycan incəsənəti və mədəniyyəti tarixində nadir simalardan biridir. Onun operaları, simfonik əsərləri, mahnıları, kino və dram teatrları üçün yazdığı musiqilər milli bədii irsimizin parlaq səhifələrini təşkil edir. Bəstəkar ömrünün 30 ildən çoxunu Azərbaycan musiqi sənətinin inkişafına həsr etmiş, yorulmadan müasir ruhlu kadrlar yetişdirmiş, həm də bunu böyük vüsətlə etmişdir.**

Müslüm Maqomayev illərin sərt sınağından, sosial sinfi ziddiyyətlərin kəskinləşdiyi dövrlərdən, ictimai-siyasi maneələrdən keçərək əbədiyaşarlıq qazanmış şəxsiyyətlərdəndir. Bəstəkarın yaradıcılığı nəinki zamanın ruhunu, fikri mübarizəsini, eyni vaxtda bədii düşüncəsini əks etdirmişdir. Onun sənətinin dərinliyi, dolğunluğu isə bitkin bədii üslubda ifadə olunur. Bu üslub isə insanların mənəvi ehtiyaclarına cavab verir, onları təsiri altına alır, irəli aparır, daim ucaldır və yüksəldir... Ona görə də görkəmli müsiqi ustadının zəngin irsi Azərbaycan xalqının mədəni sərvətinə çevrilib. Əsərləri dünya musiqi incisinin nümunələri hesab olunur.



Müslüm Maqomayev professional musiqiyə dostu və qohumu dahi bəstəkar Üzeyir bəy Hacıbəyli ilə birlikdə XX əsrin əvvəllərində, incəsənətin, o cümlədən musiqi teatrının ən fəal inkişafı dövründə gəlmişdir. Yaşadığı 52 illik ömür çərçivəsində Üzeyir bəyin yaratdığı teatr truppasının rəhbəri olmuş, "Leyli və Məcnun", "Əsli və Kərəm", "Şeyx Sənan" operalarına, "O olmasın, bu olsun", "Arşın mal alan" musiqili komediyalarına dirijorluq etmişdir. Müslüm Maqomayev 1916-cı ildə ilk irihəcmli musiqi əsərini - "Şah İsmayıl" operasını yazmışdır.

Sonra "Nərgiz" operasını, "Azərbaycan çöllərində", "Azad olunmuş Azərbaycan qadınının rəqsi", "Dərviş", "Şəlalə", radio marşı kimi simfonik əsərlərini bəstələmiş, "Ceyranı", "Turacı", "Çeçen rəqsi" oyun havalarını, "Bahar", "Bizim kənd", "Mazut ordusu" kimi mahnılarına həyat vermişdir.

İki böyük sənətkar - Üzeyir bəy Hacıbəyli və Müslüm Maqomayev eyni ilin eyni günündə - 1885-ci ilin 18 sentyabrında dünyaya gəlmişdilər. Biri Şuşa qəzasının Ağcabədi şəhərində, digəri Qroznıda…

Doğulduqları məkanları bir-birindən yüzlərlə kilometr məsafə ayırırdı. Kimsə bilməzdi ki, zaman keçəcək, tale bu iki insanı ömür yollarının hansısa məqamında rastlaşdıracaq, onların musiqidə qoşalaşmış taleləri mədəniyyət tariximizin qürur səhifəsinə çevriləcək, dünyaya gəldikləri gün də Azərbaycan Musiqisi Günü kimi hər il böyük sevgi ilə qeyd ediləcək. Bu il Azərbaycan xalqının yetirdiyi və adlarını hər zaman qürurla çəkdiyimiz hər iki sənətkarın anadan olmasının 140 illiyi qeyd olunur.

### İşıqlı səhifələr

…Müslüm Maqomayev 1885-ci ildə Qroznı şəhərində dünyaya gəlmişdi. Atası Məhəmməd əslən Qax rayonunun İlisu kəndindən idi, dəmirçiliklə məşğul olardı. Sonralar ailəsi ilə Qroznıya köçmüşdü.

M.Maqomayev 1900-cü ildə məktəbi bitirib Qori Müəllimlər Seminariyasına qəbul olunmuşdu. Elə Üzeyir bəy Hacıbəyli ilə sonradan heç zaman qırılmayan dostluq əlaqələrinin təməli də burada qoyulmuşdu. Yollar və arzular eyni məkanda birləşdirmişdi onları, burada dostlaşmış, bir-birinə inanmış, fikir və əqidə qardaşlarına çevrilmişdilər. 1909-cu ildə Müslüm Maqomayev Tiflis Pedaqoji İnstitutunda müvəffəqiyyətlə imtahan verərək şəhər məktəblərində müəllimlik etmək hüququ alır. İki il sonra Bakıya köçərək 1911-ci ildə Sabunçudakı şəhər kollecində işə başlayır. Bakı həyatı ona həmin vaxtlarda Üzeyir bəy Hacıbəylinin rəhbərliyi altında fəaliyyət göstərən müsəlman opera truppası ilə əməkdaşlıq etmək imkanı verir. Azərbaycan musiqili teatrının orkestrində skripkada ifa etməyə başlayır. 1913-cü ildə Müslüm Maqomayev "Məhəbbət" və "Şah İsmayıl" operalarını yazmağı qərara alır. "Məhəbbət" operası bitməmiş qaldığından 1916-cı ildə tamamladığı "Şah İsmayıl" operası görkəmli bəstəkarın ilk səhnə əsəri sayılır.

### Bəstəkarın şah əsəri

Sabunçuda müəllim işləyərkən qaynı Hənəfi Terequlov onu Mikayıl Müşfiqin atası Mirzə Qədir İsmayılzadə ilə tanış edir. Mirzə Qədir o zaman Bakıdakı "Səadət" məktəbinin müəllimi idi. "Vüsaqi" təxəllüsü ilə gözəl şeirlər yazırdı. Bəstəkar "Şah İsmayıl" operasını Mirzə Qədirin eyniadlı poeması əsasında yaradır.

Müslüm Maqomayev irsinin tədqiqatçıları akademik Z.Səfərova, musiqişünas Q.İsmayılova, ədəbiyyatşünas E.Akimova qeyd edirlər ki, Müslüm bəy özünün yaratdığı "Şah İsmayıl"a hədsiz dərəcədə vurğun imiş. Çox sevirmiş bu əsəri və həmişə özü bu əsərə dirijorluq edərmiş. Üzeyir bəy M.Maqomayevin "Şah İsmayıl" operasından bəhs edərkən göstərirdi ki, gözəl musiqi materialı və süjetin dramatik ifadəliliyi əsərin böyük şöhrət qazanmasına səbəb olmuşdur: "Şah İsmayıl" Azərbaycanın ozamankı musiqi həyatında improvizə olunmuş milli operanı Avropa operasının texniki cəhətdən inkişaf etmiş formaları ilə əlaqələndirmək sahəsində ilk təşəbbüsdür". Amma əsərin səhnə taleyi ağrılı olur. Operanın premyerası ərəfəsində Tağıyev teatrı yandırılır. Bundan bir müddət sonra təşkil edilən ikinci premyerada isə rejissor Hüseyn Ərəblinski öldürülür.

Xalq yazıçısı Anar yazır: "Musiqi tariximizin görkəmli xadimi mövqeyində dayanan Müslüm Maqomayev bəstəkar, dirijor, şəxsiyyət, fərd, insan kimi - yaşadığı illərin, dövrün məhsuludur, bəhrəsidir. Həm də bu dövr - uçurumla aralanmış iki parçaya bölünüb - inqilabdan əvvəlki və sonrakı illər. Müslüm Maqomayev ömrünün inqilabdan qabaqkı səhifələri - Qori seminariyası, Üzeyir bəy Hacıbəyli ilə tanışlıq, dostluq. Əyalətdə müəllimlik, Bakıya gəlib qəti surətdə musiqi aləminə daxil olması, dirijorluq fəaliyyəti və nəhayət, bir bəstəkar kimi başıbəlalı debütü - "Şah İsmayıl". "Şah İsmayıl"ın daşdan çıxan, daha doğrusu, yanğının odundan - alovundan çıxan, sonralarsa Ərəblinskinin ölüm günü ilə qovuşan premyerası…"

Tamaşanın premyerası ləğv edilmir... Premyera başlar-başlamaz bir nəfər səhnəyə çıxıb deyir: "Ağalar, rica edirəm ayağa qalxıb böyük aktyorumuz Hüseyn Ərəblinskinin xatirəsini birdəqiqəlik sükutla yad edək".

Akademik Rafael Hüseynov "Yaşıl yarpaq" əsərində yazır ki, bütün salon ayağa qalxır: "Müslüm onsuz da ayaq üstədir; pult arxasında dayanıb. Martın 7-dir. Bu gün Hüseyn Ərəblinskini torpağa tapşırıblar. Bu gün "Şah İsmayıl"ın premyerasıdır".

Müslüm Maqomayevin "Şah İsmayıl" operası xalq əfsanəsinə əsaslanır. Burada milli folklor nümunələrindən geniş istifadə edilib. Operanın ilk nəşrində çoxsaylı dialoq epizodları vardı, musiqi isə daha çox improvizasiya və muğam prinsiplərinə əsaslanırdı. "Şah İsmayıl" operası 1919-cu ildən bəri təqribən 400 dəfə oynanılıb.

### O, milli simfonik musiqimizin inkişafında xüsusi rol oynamışdı

M.Maqomayevin yaradıcılığında simfonik orkestr üçün yazılmış əsərləri böyük əhəmiyyətə malikdir. Bu əsərlər 1920-ci ilin axırlarında, 1930-cu illərin əvvəllərində bəstələnmişdir. Bu maraqlı əsərlərdə bəstəkarın doğma vətənə, Azərbaycan xalqına olan səmimi məhəbbəti incə bədii zövqlə tərənnüm olunur: "Azərbaycan çöllərində" rapsodiyası, "Azad olunmuş azərbaycanlı qızının rəqsi" fantaziyası, "XVII partiya qurultayına həsr olunmuş marş", "PB8" marşı, "Təsnifi-şur" və digər əsərləri musiqisevərlər tərəfindən rəğbətlə qarşılanırdı. Bu əsərlər sayca az olsa da, onlar milli simfonik musiqimizin inkişafında xüsusi rol oynamış, musiqi tariximizin xəzinəsinə daxil edilmişdir.

M.Maqomayev kütləvi mahnı janrının inkişafında, təbliğində də olduqca mühüm rol oynamışdır. Bu barədə bəstəkar özü deyirdi: "Azərbaycan bəstəkarları öz doğma milli mahnıları əsasında yeni əsərlər, həyatımızın nailiyyətlərini və nöqsanlarını əks etdirən proletar musiqilər, xalqı zəhmətə və yeni qalibiyyətlərə doğru çağıran, insanları qəlbən ruhlandıran və əyləndirən şən mahnılar yaratmalıdırlar". Mütəxəssislərin yazdıqlarına görə, Azərbaycanda ilk professional qəhrəmanlıq və vətənpərvərlik mövzusunda bəstələnmiş mahnıların müəllifi Üzeyir bəy Hacıbəylidirsə ("Qızıl əsgər" marşı), M.Maqomayev isə ilk zəhmət adamlarına həsr olunmuş mahnıların yaradıcısıdır.

Bu mahnılarda o dövrün fəal və işgüzar insanları tərənnüm olunurlar: "Neft", "Bizim kənddə" və s. digər kütləvi mahnılarında vətənimizin gözəl təbiəti, yaşıl bağları, çölləri vəsf edilir. Xüsusilə Müslüm Maqomayevin "Yaz", "May", "Tarla" mahnılarında lirik, səmimi, işıqlı obrazlar üstünlük təşkil edir. Bu mahnıların ifadəli və yaddaqalan melodiyaları Azərbaycan xalq musiqisinə olduqca yaxındır. Əsərlərin harmonik dili, fakturası da olduqca aydın və ifadəlidir, musiqili obrazın xarakterini əks edir.

M.Maqomayev C.Məmmədquluzadənin "Ölülər", C.Cabbarlının "1905-ci ildə" tamaşalarına, Bakı kinostudiyasının ilk səsli filmləri olan "Lök-Batan", "Bizim raport", "Azərbaycan incəsənəti" kimi sənədli filmlərə yazılmış musiqinin müəllifidir.

Görkəmli bəstəkar 1920-ci illərdən ömrünün sonunadək fəal surətdə ictimai işlə məşğul olmuşdu. Əvvəlcə Xalq Maarif Komissarlığının incəsənət şöbəsinə rəhbərlik etmiş, 1929-cu ildən isə Azərbaycan radio verilişlərinin musiqi şöbəsinə bədii rəhbər təyin olunmuş, 1934-cü ildən opera teatrında direktor və bədii rəhbər vəzifəsində işləmişdir. Eyni zamanda Müslüm Maqomayev teatrda dirijor kimi də fəaliyyət göstərmişdir.

### Avropa üslubunda ilk operanın müəllifi - "Nərgiz"

M.Maqomayevin yeni yaradıcılıq zirvəsi - "Nərgiz" operasıdır. O bu əsəri Hüseyn Cavidin "Çobanlar" radiopyesinin süjeti əsasında yazır. Bəstəkar öz gündəliyində yazırdı ki, işimə ən çox ilham verən əsərdə təsvir olunan hadisələrin mənə əziz olması idi: "Mən bu mövzunu qəlbən sevdim, hərtərəfli düşündüm. Dramatik cəhətdən lazımi şəklə saldım. Qədim əfsanə və nağıllardan uzaqlaşıb özüm gördüyüm, şahidi olduğum, həyatla təmas etdiyim günləri düşündükcə ruhlanır, yaradıcılıq işimi daha da böyük həvəslə aparırdım".

Üzeyir bəy Hacıbəyli bu operaya yüksək qiymət vermişdir. O yazırdı: "Öz mövzusunu xalq kütlələrinin üsyan hərəkatından götürmüş "Nərgiz" inqilabi məzmunda yazılmış ilk Azərbaycan operası..." olmaqla, ilk dəfə opera səhnəmizdə müasir həyatımızın qəhrəman obrazlarını yaratmışdır. Görkəmli sovet musiqişünası S.Korev "Nərgiz"i realistik sovet operası adlandırırdı: "İdeyaca dolğun, bədii fikir etibarilə dərindir. "Nərgiz" operası bizim müasir həyatdan alınan inqilabi-qəhrəmanlıq mövzusunu əks etdirən, ideya-bədii səviyyəsi yüksək olan, səhnə əsərlərindən birincisi kimi sovet musiqili teatr tarixinə daxil olacaqdır". Beləliklə, yeni müasir mövzuya bəstəkarın müraciət etməsi, kasıb kəndlilərin mülkədar cəlladlarına qarşı sinfi mübarizəsini təcəssüm etdirməsi Maqomayevin ən dəyərli xidməti idi.

1935-ci ilin dekabr ayının 24-də "Nərgiz" operasının premyerası olur. Quruluşçu rejissor - A.Tuqanov idi. Əsas rolların ifaçıları: Nərgiz - A.Terequlova, Əliyar - H.Hacıbababəyov, Cəfər - Y.Rzayev, Ağalar bəy - M.Bağırov, Həsən kişi - B.Mustafayev, Bədəl - H.Hüseynov, Molla Mütəllim - Ə.Zülalov.

Bir faktı da qeyd edək ki, müəllif əsəri 1935-ci ildə yazsa da, ağır xəstəliyinə görə opera üzərində işləri tam başa çatdıra bilmir. Bunu R.M.Qliyer öz üzərinə götürür, onu səhnə həlli üçün hazırlayır. A.Tuqanovun rejissorluğu ilə "Nərgiz" operasının premyerası elə böyük rəğbət qazanır ki, Müslüm Maqomayev bu əsərinə görə Azərbaycanın Əməkdar incəsənət xadimi fəxri adına layiq görülür. Xalq artisti Kərim Kərimov yazırdı ki, "Nərgiz" operasının musiqisi parlaq melodiyaların sonsuz axınıdır. Bütün əngəllərə baxmayaraq, "Nərgiz" səhnədəydi, səsi, sədası çox uzaqlara yayılırdı. Tədqiqatçıların yazdığına görə, o, milli operanın inkişafında yeni dövrə keçidə işarə vermiş, ümumiyyətlə, milli musiqinin artan kamilliyini, bəstəkar yaradıcılığının ən mürəkkəb formalarını mənimsəmək iqtidarında olmasını təsdiq etmişdir... "Nərgiz" operası ümumi təkamül yoluna cəlb olunmuşdur. Belə ki, Maqomayevin niyyətlərinin varislik axarı F.Əmirovun "Sevil" operasına aparıb çıxarır.

Sənətşünaslıq doktoru, professor İmruz Əfəndiyeva "Nərgiz" operasının dramaturji baxımdan yüksəksəviyyəli sənət əsəri olduğunu xüsusi vurğulayır: "Burada ənənə və novatorluq prinsipləri sıx vəhdət təşkil edir. Operanın librettosu M.S.Ordubadiyə məxsusdur. Bu əsərin diqqətəlayiq xüsusiyyətlərindən biri həmin illərin milli operası üçün yeni olan musiqi dilinin intonasiya obrazlı quruluşudur ki, bu da ondan əvvəl yaranmış əsərlərdən fərqlidir. "Nərgiz" əsərində bəstəkarın xalq musiqisi incilərinə yaradıcı münasibətinin şahidi oluruq, belə ki, M.Maqomayev xalq musiqi materialını opera formalarına tətbiq edərək, musiqi dilinin yeni, ifadəli, səciyyəvi xüsusuyyətlərini üzə çıxarmışdır".

Müslüm Maqomayevin ən böyük arzularından biri isə görkəmli şairimiz Hüseyn Cavidin "İblis" faciəsinə opera yazmaq idi. Əfsus ki, bu arzusunu reallaşdıra bilmədi. M.Maqomayevin "Məhəbbət" operasından başqa, sona çatmamış "Dəli Muxtar" baleti və "Xoruz bəy" adlı musiqili komediyası da var.

Görkəmli bəstəkar, klassik musiqimizin banilərindən biri Müslüm Maqomayev 1937-ci ildə 52 yaşında əbədiyyətə qovuşdu. Nalçikdə vəfat etdi. Əcəl onu yaşının, təcrübəsinin yaradıcılıq üçün ən gözəl dövründə apardı, nə qədər istəkləri, arzuları, ideyaları yarımçıq qaldı. Dahi bəstəkar Üzeyir bəy Hacıbəyli yaxın dostu, həmkarı Müslüm Maqomayevin yaradıcılığına böyük dəyər verərək yazırdı: "Bəşər tarixində elə şəxsiyyətlər var ki, onlar tək özləri üçün yox, bütün xalqın, bəlkə də bütün bəşəriyyətin xoşbəxtliyi naminə həyata gəliblər. Belə insanlar xalqa nəinki sağlığında, hətta ölümündən sonra da xeyir gətirirlər. Müslüm Maqomayev əsl realist xalq bəstəkarı idi, Azərbaycan musiqi incəsənəti yolunda duran bütün sədləri amansızcasına vurub dağıdan cəsarətli novator idi".

Bu gün böyük sənətkarın Fəxri xiyabandakı məzarı, adını daşıyan Azərbaycan Dövlət Filarmoniyası, filarmoniyanın qarşısındakı büstü milyonlarla azərbaycanlının qürur yeridir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Azərbaycan ilə ICESCO arasında möhkəmlənən dostluq

**"Bir daha sizə Azərbaycana göstərdiyiniz dəstəyə, mədəniyyətimizin, azad edilmiş bölgələrimizin mədəniyyətinin təşviqinə görə minnətdarlığımı bildirirəm. Bir təşkilat olaraq ICESCO Qarabağa ilk səfərlərdən birini həyata keçirib, siz isə orada olmuş ilk əcnəbi vətəndaşlardansınız. Siz bununla həmrəylik nümayiş etdirdiniz, habelə bu ərazilərdə nələrin dağıdıldığı barədə məlumat verərək səsinizi ucaltdınız. Biz bunu heç zaman unutmayacağıq".**



Sentyabrın 15-də Şuşada ICESCO-nun Baş direktoru Səlim bin Məhəmməd əl-Maliki qəbul edən dövlətimizin başçısı İlham Əliyev bu fikirləri söhbət zamanı bildirib. Görüşdə ICESCO-nun Baş direktorunun ölkəmizə, o cümlədən Şuşaya səfərləri və dövlətimizin başçısı ilə görüşləri məmnunluqla xatırlanıb. Səlim bin Məhəmməd əl-Malik qeyd edib ki, Şuşa şəhərinin gözəlliyi onda dərin təəssürat hissi yaradıb.

Görüşdə işğaldan azad edilmiş ərazilərimizdə həyata keçirilən genişmiqyaslı abadlıq-quruculuq işləri yüksək qiymətləndirilib.

Dövlətimizin başçısı mədəniyyətimizin təşviqinə verdiyi dəstəyə görə ICESCO-nun Baş direktoruna təşəkkürünü bildirib: "Sizin rəhbərliyinizlə Şuşanın ICESCO tərəfindən İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi qərarı hər bir azərbaycanlını qəlbən fərəhləndirdi. Cıdır düzündə sizin də iştirakınızla keçirilmiş tədbirdə unudulmaz ab-havanın şahidi oldunuz. Bu, xoşbəxtliyin, qürurun və geri dönüşün vəhdəti idi".

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti sentyabrın 15-də "Səlim bin Məhəmməd əl-Malikin "Dostluq" ordeni ilə təltif edilməsi haqqında" Sərəncam imzalayıb. ICESCO-nun Baş direktoru Səlim bin Məhəmməd əl-Malik bu yüksək mükafatla Azərbaycan Respublikası ilə ICESCO arasında uğurlu əməkdaşlıq əlaqələrinin inkişafında xidmətlərinə görə təltif edilib.

Şuşada keçirilən görüş zamanı Prezident İlham Əliyev Azərbaycanın yüksək dövlət mükafatı olan "Dostluq" ordenini ICESCO-nun Baş direktoruna təqdim edib və bu münasibətlə onu təbrik edib.

Mükafata görə təşəkkürünü bildirən və bunu dərin minnətdarlıq hissi ilə qəbul edən Səlim bin Məhəmməd əl-Malik deyib: "Bu, yalnız şəxsən mənim deyil, mənimlə birlikdə çalışan və fəaliyyətimdə mənə dəstək olan hər kəsin əməyinə verilən qiymətdir. Həmin insanlar birliyin irəliyə aparılması, mədəniyyətin qorunması və sülhün bərqərar edilməsi istiqamətində əllərindən gələni edənlərdir. Mən bu ordeni bir simvol olaraq hər zaman xatırlayacağam və əminəm ki, mənimlə yanaşı, bu ordenlə ailəm, həmkarlarım və dövlətim də fəxr edəcək".

Görüşdə Azərbaycan ilə ICESCO arasında uğurlu əməkdaşlığın qurulduğu vurğulanmaqla yanaşı, bunun gələcəkdə daha da genişlənəcəyinə əminlik ifadə olunub.

Azərbaycan ilə ICESCO arasında əməkdaşlıq, dostluq münasibətləri bu günədək böyük bir yol qət edib.

İslam Təhsil, Elm və Mədəniyyət Təkilatının təsis edilməsi haqqında təşəbbüs İslam Əməkdaşlıq Təşkilatına (o zaman İslam Konfransı Təşkilatı) üzv dövlətlərin xarici işlər nazirlərinin Dakarda (Seneqal) 1978-ci il 24-28 aprel tarixində keçirilmiş 9-cu Konfransında irəli sürülüb. İƏT üzv dövlətlərin Məkkədə 1981-ci il 25-28 yanvarda təşkil olunan 3-cü zirvə görüşündə islam dövlətlərinin təhsil, elm və mədəniyyət məsələləri üzrə birliyi olan ICESCO-nun təsis edilməsinə və daimi qərargahının Rabat (Mərakeş) şəhərində yerləşdirilməsinə qərar verilib. Bir il sonra mayın 3-də ICESCO-nun təsis Konfransı Mərakeş Kralı II Həsənin himayəsi ilə Krallığın Fəs şəhərində keçirilib. Konfransda 28 dövlət təmsil olunub. Təşkilatın ilk baş direktoru mərakeşli ictimai-siyasi xadim Əbdül Hadi Butalib seçilib. O, 1991-ci illədək bu vəzifəni yerinə yetirib.

Respublikamız 1991-ci ildən bu nüfuzlu təşkilatın üzvüdür. 2006-cı il noyabrın 24-də Azərbaycanın birinci xanımı Mehriban Əliyeva təhsilin və sivilizasiyalar arasında dialoqun inkişafında göstərdiyi xidmətlərə görə, ICESCO-nun xoşməramlı səfiri adına layiq görüldükdən sonra əlaqələrimiz daha da genişlənib.

ICESCO-nun keçmiş Baş direktoru Əbdüləziz bin Osman Əl-Tuveycri də respublikamızla əməkdaşlığın səviyyəsindən razılığını və əməkdaşlığın genişləndirilməsinə marağını dönə-dönə diqqətə çatdırıb. 2006-cı ildən ölkəmizin evsahibliyi etdiyi "Gənclər sivilizasiyaların alyansı naminə" mövzusunda beynəlxalq konfrans (1-2 noyabr 2007-ci il), Heydər Əliyev Fondunun təşəbbüsü, UNESCO və ICESCO-nun dəstəyi ilə keçirilmiş "Mədəniyyətlərarası dialoqda qadınların rolu" mövzusunda forum (10-11 iyun 2008-ci il), İslam ölkələri Elm və təhsil nazirlərinin VI Konfransı (6-7 oktyabr 2008-ci il), "Bakı - İslam mədəniyyətinin paytaxtı - 2009" Mədəniyyət ilinin açılış mərasimi (18 fevral 2009-cu il), İslam ölkələri Mədəniyyət nazirlərinin VI Konfransı (13-15 oktyabr 2009-cu il), Dünya dini liderlərinin Bakı sammiti (26-27 aprel 2010-cu il) və Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumları (7-9 aprel 2011-ci ildən I Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumundan 2-3 may 2019-cu il tarixlərində Bakı şəhərində keçirilmiş V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna qədər) və başqa beynəlxalq əhəmiyyətli tədbirlərdə fəal iştirak edib.

ICESCO-nun Baş direktoru kimi Bakıda keçirilmiş Azərbaycan Respublikası, ICESCO və BMT-nin birgə təşkilatçılığı ilə (18-19 mart 2013-cü il) "Terrorizmin qarşısının alınması üçün əməkdaşlığa dair Beynəlxalq Konfrans"da, Heydər Əliyev Fondunun təşəbbüsü, UNESCO və ICESCO-nun dəstəyi ilə "İkinci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda (29 may-1 iyun 2013-cü il) və "Üçüncü Bakı Beynəlxalq Humanitar Forumu"nda (31 oktyabr-1 noyabr 2013-cü il) iştirak etmək məqsədilə ölkəmizə səfərlər edib.

Dövlətimizin başçısının 14 yanvar 2016-cı il tarixli sərəncamına əsasən, ICESCO ilə əməkdaşlığı səmərəli şəkildə əlaqələndirmək məqsədilə ICESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası yaradılıb.

Azərbaycan Prezidentinin 13 dekabr 2018-ci il tarixli sərəncamı ilə respublikamızın Mərakeş Krallığındakı səfiri Oktay Sudef oğlu Qurbanov iqamətgahı Rabat şəhərində olmaqla, həmçinin Mavritaniya İslam Respublikasında, Seneqal Respublikasında fövqəladə və səlahiyyətli səfir və ölkəzimizin ICESCO yanında daimi nümayəndəsi təyin edilib.

Dünyanın ən qədim yaşayış məskənlərindən olan Azərbaycanın zəngin mədəni irsi ICESCO tərəfindən yüksək qiymətləndirilib. Təşkilatın Baş qərargahında 2019-cu il 2-3 dekabrda təşkil olunan İslam Dünyası İrsi Komitəsinin növbədənkənar toplantısında Azərbaycanın bir sıra mədəni irs nümunələri - Bakının İçərişəhər, Qız qalası və Şirvanşahlar Saray Kompleksi, Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi, Qobustan Qaya Sənəti Mədəni Landşaftı İslam Dünyası İrsi Siyahısına daxil edilib.

ICESCO-nun aylıq xüsusi jurnalında Azərbaycan ilə əlaqələrə həmişə geniş yer ayrılıb. Bu nüfuzlu beynəlxalq təşkilat çərçivəsində qəbul edilən qərarlarda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı maddələr əksini tapıb. 2012-ci il fevralın 24-də Xocalı soyqırımının 20-ci ildönümü ilə bağlı ICESCO-nun mənzil qərargahında anma mərasimi keçirilib. ICESCO-nun o zamankı Baş direktoru Əbdüləziz bin Osman Əl-Tuveycrinin mərasimdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, Xocalı soyqrımı barədə ədalətli və cəsarətli çıxışı xüsusilə diqqətəlayiq olub.

2019-cu il yanvarın 18-də "20 Yanvar" faciəsinin 29-cu ildönümü münasibətilə ICESCO-nun saytında təşkilatın Baş katibi Əbdüləziz Əl-Tüveycrinin adından ilk dəfə bəyanat yayılıb. Sözügedən bəyanatda faciəyə hüquqi qiymətin verilməsi, beynəlxalq hüquqa uyğun olaraq bu cinayəti törətmiş şəxslərin cəzalandırılması üçün dünya ictimaiyyətinə və beynəlxalq insan hüquqları təşkilatlarına çağırış edilib.

Həmin il yanvarın 31-də ICESCO tərəfindən verilən bəyanatda Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərində Sərsəng su anbarından yeni su kanalı çəkilməsi cəhdləri beynəlxalq hüququn kobud şəkildə pozulması kimi qiymətləndirilib.

2020-ci il 29-30 yanvarda Əbu-Dabidə keçirilən İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının İcraiyyə Şurasının 40-cı sessiyasında təşkilatın rəsmi adının "İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı" kimi dəyişdirilməsi ilə bağlı qərar qəbul olunub.

Həmin il il sentyabrın 29-da İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) irs, mədəniyyət və təhsil ilə əlaqəli bir qurum olaraq Azərbaycan və Ermənistan arasındakı Dağlıq Qarabağ münaqişəsi ətrafında cərəyan edən son hadisələrdən, əhəmiyyətli sivil dəyərə malik arxeoloji və tarixi məkanların, o cümlədən bir sıra məscidlərin və müqəddəs tarixi yerlərə qarşı dağıntıların törədilməsindən narahatlığını bildirən bəyanatla çıxış edib.

2021-ci il yanvarın 13-də ICESCO-nun Baş direktoru Səlim bin Məhəmməd əl-Malikin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edən Prezident İlham Əliyev sıx əməkdaşlığa, daimi dəstəyə, xüsusilə müharibə zamanı qəbul edilmiş qərarlara görə baş direktora təşəkkürünü bildirib.

2020-ci ildə 44 günlük Vətən müharibəsində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında şanlı Azərbaycan Ordusunun böyük qəhrəmanlıqla azad etdiyi qala-şəhərimiz - Şuşa 2024-cü il üçün ICESCO-nun "İslam dünyasının mədəniyyət paytaxtı" olub. Bu barədə qərar Qətərin paytaxtı Dohada keçirilən İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci Konfransında verilmişdi.

İşğaldan azad olunmuş ərazilərimizə səfərlər edən ICESCO-nun nümayəndələri işğalçıların törətmiş olduqları vandalizmi və dağıntıları öz gözləri ilə görüblər. Diqqətə çatdıraq ki, Azərbaycan xalqının Qarabağda və Şərqi Zəngəzurda tarixi, mədəni və dini irsinin Ermənistan tərəfindən məqsədli şəkildə dağıdılması faktı bu nüfuzlu beynəlxalq təşkilat tərəfindən hər zaman pislənilib.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

## Üzeyir bəy Hacıbəyli – 140



# Üzeyir bəy Hacıbəylinin publisistikasında zamanın nəbzi döyünürdü

*(Əvvəli qəzetin 17 sentyabr tarixli nömrəsində)*

Üzeyir bəy Hacıbəyli milli birlik və milli tərəqqi işində öncül şəxsiyyətlərlə birgə milli siyasi təsisatların da vacibliyi məsələsini kifayət qədər əhəmiyyətli hesab etmişdir. "Tərəqqi" qəzetinin 5 avqust 1909-cu il tarixli sayında dərc etdirdiyi "Başçı lazımdır" publisistik yazısında "millətin başında duran bir və ya bir neçə tərəqqipərvər və təcəddüdgah" firqənin əhəmiyyətindən və bizdə analoji bir qurumun olmaması səbəbindən düşdüyümüz haldan bəhs etmiş və həmişə olduğu kimi, çıxış yolu göstərməyi də unutmamışdır. Müəllif bu məsələdə də dünyanın inkişaf etmiş ölkələrini və tərəqqi tapmış xalqlarını nümunə gətirir və fransız, alman, ingilis, amerikalı, yapon və başqalarının onları səadət və tərəqqiyə çatdıran firqələrə borclu olduqlarını yazırdı. Onun fikrincə, bu gün bu millətlər tərəqqinin o həddinə çatmışlar ki, hər bir fərd öz xeyir və şərini layiqincə anlayıb əsl insan kimi yaşayırlar. Ü.Hacıbəyli belə bir mühitdə şəxsiyyət hüququ məsələsinin öz həllini tapdığını yazırdı: "Orada hər bir fərd - vəzir olsun, fəhlə olsun, təfavütü yoxdur, öz-özlüyündə, öz tərzi-məişətində onu təsdiq edə biləcək və onun hüququna və hürriyyəti-şəxsiyyətinə xələl yetirəcək heç bir şeylə müqəyyəd deyildir, məgərinki, bunun hürriyyəti-şəxsisi başqalarının hüququna təcavüzdən ibarət olmasın. Bu isə onlar üçün qeyd deyildir, çünki ölkənin hüququna toxunmaq ya hürriyyəti-şəxsisinə əl atmağın böyük bir şər olduğunu hər bir fərd çox gözəl anlayır".

Ədib mənsub olduğu xalq üçün də belə bir cəmiyyət arzulayır, lakin onun zamanında bu hələlik yoxdur. Ü.Hacıbəyli bunun səbəblərini açıqlayaraq yazırdı: "Keçək bizə! Əcəba bizim millətimizi qabağa aparan kimdir? Hanı bizim qabağımızda duran firqə, yaxud firqələr? Hanı o tərəqqi və təali bələdləri ki, bu gün cəhalət çölündə, köhnə və çürümüş əqidələr palçığına batmış millət karvanını tərəqqi və təcəddüdün rahat yoluna sala bilərlər? Hanı? Yoxdur! Karvan batıb qalıbdır..." Ədib özünün verdiyi ritorik sualları özü də cavablandırır, firqə olmasa, tərəqqi və yeniliyə çatmağın mümkünsüz olduğunu yazır və bu işdə ziyalı, "ürəfa və intelligent"lərimizin üzərinə düşən vəzifələri xatırladırdı. O, bir daha ümumi vəziyyətə qiymət verir, bu əsrdə tısbağa qədəmi ilə tərəqqi etməyi tərəqqi etməməyə bərabər tutur və çıxış yolunu yenə qüvvətdə görürdü: "Burada milləti irəli sürüyə bilən qüvvət lazımdır". Üzeyir bəy "qüvvət" deyəndə həm də milli iradəni nəzərdə tuturdu.

Ü.Hacıbəyli millətin tərəqqisi üçün firqələrin yaradılması və xalqı qabağa apara biləcək azadlıqsevər, tərəqqipərvər şəxsiyyətlərin vacibliyi məsələsini "Həqiqət" qəzetinin səhifələrində çıxış edərkən davam etdirmişdir. Qəzetin 18 yanvar 1910-cu il tarixli 13-cü sayında dərc etdirdiyi "Rəhbərlərimiz" yazısı məzmun və problemin qoyuluşu baxımından "Tərəqqi"də çap etdirdiyi "Başçı lazımdır" məqaləsini xatırladır. Bəzi fikir və mülahizələri cüzi fərqlə təkrarlayan müəllif burada bir ayrı məsələyə toxunmağı vacib bilmişdir. Bu, "firqeyi-mücahid"lər, onların missiyası və vəziyyəti ilə bağlıdır. O bu yazısında bir daha vurğulayır ki, fransız, alman, yaxud yaponların "bugünkü tərəqqi, təməddün və rifahi-hal ilə asudə məişət keçirmələri də haman başlarında duran və onları təriqi-səadət və tərəqqiyə tuş edən firqeyi-mücahidlərinə borcludurlar". "Firqeyi-mücahidlik" isə, Ü.Hacıbəylinin fikrincə, bir neçə adamın özlərini millət rəhbəri hesab edib, tərəqqi adı ilə bilib-bilmədikləri işə girişmələri deyildir, bunun üçün "hər kəs milləti tərəqqi etdirəcək... bir əmələ öz qəlbində bir şövq və həvəs" hiss etməlidir. "Mütərəqqi və mütəməddin" millətlər xoş gün keçirdikləri üçün məhz öz "kargün" adamlarına borcludur. Deməli, Ü.Hacıbəylini bizdə "firqeyi-mücahid"lərin, "kargün" adamların, onun təbirincə desək, rəhbərlərin yoxluğu narahat edirdi.

Yazıda avropalılardan, yaxud yaponlardan fərqli olaraq Azərbaycanda həmin keyfiyyətdə olan adamların yoxluğunun səbəbləri də açıqlanır: birincisi, adamlarımızı bürüyən ətalət və kəsalət; ikincisi, rəhbərliyə layiq olan şəxslərimizin məişətcə dar gün keçirmələridir. Ü.Hacıbəyli milli tərəqqi üçün hər iki səbəbin aradan qaldırılmasını vacib hesab edir. Onun publisistikasının leytmotivini məhz birinci səbəbin aradan qaldırılması yolunu axtarıb tapmaq təşkil edir. İkinci səbəbin ortadan qaldırılması da əslində milli şüura, milli oyanış və özünüdərkə bağlı bir məsələdir: "Bu halda bizim hər bir fərdimiz öz tərəqqisi üçün bir rəhbərə möhtac olduğunu hiss edir". Lakin yalnız hiss etmək deyil, əməli işə keçməyin lazım gəldiyi də dərk olunmalıdır. Bu, rəhbər ola biləcək şəxslərin maddi ehtiyaclarının qarşılanması məsələsidir ki, onun da üzərində düşünmək zərurəti var: "...bu rəhbərlər öz rəhbərlik işlərinə ehtimam və diqqətlə məşğul olmaq üçün məişətcə təmin olunmalıdırlar. Doğrudan da rəhbər olmaq istedadını haiz olan şəxslərimizin öz aramızda qədir və qiymətləri bilinməsə, onlar təmini-məişət üçün başqa yerlərdə, başqa tayfalar içində və ya başqa bir yolda işləməyə başlayıb, xalqa fayda verə bilməzlər".

Ü.Hacıbəyli publisistik irsində Şərq-Qərb məsələsini həmişə ən müxtəlif yönlərdən qoymuş və Qərbin aşkar üstünlüklərini, əsasən, insan azadlığı və qanunların aliliyi, habelə sağlam mənəvi mühitlə bağlamışdır. Öz xalqının ədəbiyyat və mədəniyyətini dərindən bilən, mənsub olduğu millətin istedadına qətiyyən şübhə etməyən Üzeyir bəy bütöv Şərqdə, o cümlədən həmvətənləri arasında mövcud ictimai-mədəni ətalət və geriliyi cəhalət və nadanlıq içərisində boğulan mühitlə bağlayırdı. Məsələyə münasibətdə o, sələfi M.F.Axundzadəyə yaxınlaşırdı, daha doğrusu, yarım əsr əvvəl Azərbaycanın ilk dramaturqu və nasirini düşündürən problemlər XX əsrin əvvəllərində Ü.Hacıbəylini də qayğılandırırdı. Hər iki sənətkar şəxsiyyətin formalaşması və inkişafında mühit sindromuna diqqət kəsilirdi. Ü.Hacıbəylini misin gümüşə çevrilməsinə (M.F.Axundzadə, "Hekayəti-Molla İbrahimxəlil kimyagər"), ölülərin dirilməsinə (C.Məmmədquluzadə, "Ölülər") inanan, Şahbaz bəyi (M.F.Axundzadə, "Müsyö Jordan") Parisə getməyə qoymayan mühitin hələ də hökm-fərma olması ilə barışa bilmirdi. O, "Həqiqət" qəzetinin 1910-cu il 1-ci sayında dərc etdirdiyi "Öz qədrimizi bilmirik" adlı publisistik yazısında məhz mühit və şəxsiyyət problemini qoymuşdur.

Müəllif digər xalqlarda olduğu kimi, həmvətənləri arasında da istedadlı şəxslərin olduğunu, lakin onların öz bilik və bacarıqlarını göstərə bilmədiklərini yazır və bunu mövcud şəraitlə bağlayırdı: "... onlar hələ öz istedad və qabiliyyəti-xariqüladələrini büruzə vermirlər. Çünki içərisində yaşadıqları şərait müsaid deyildir. Bütün camaatımızı bürümüş olan cəhalət hər bir şeyin, hər bir təşəbbüsün qabağını bir səddi-ahənin kimi kəsir, qoymur". Ü.Hacıbəylini Avropa cəmiyyətinin bütün insaniyyətə xidmət edən şəxsiyyətlər yetişdirdiyi halda, bizdə buna niyə nail ola bilmədiyimiz sualı düşündürürdü. O, Allah-təalanın bizi istedadsız yaratmadığını vurğulayır, amma belə hesab edirdi ki, "... şərait bizim dahilər üçün müsaid deyildir". Ədib yazırdı ki, bizim də içimizdən insaniyyət dahiləri çıxmağa yol vermirlər, çünki "işıq gələn yerləri bərk-bərk bağlayıblar".

Ü.Hacıbəyli xalqın tərəqqisi və faydası üçün hər hansı bir təşəbbüsün yoxluğuna da diqqət çəkir və bunu da subyektiv amillərlə, çoxluğun düşüncə tərzi, yeniliyə konservativ baxış bucağı ilə bağlayırdı: "Doğrudan da novicad və ehtiram edilib də xalqa mənfəət yetirən şeylərin adına "min əməli-şeytan" deyəndə hansı müsəlman oğlu müsəlman telefon, teleqraf, maşın və sair bu kimi şeylər icad etmək fikrinə düşərdi? Sair elmlərə, sənətlərə dəxi bu nöqteyi-nəzərdən baxıldığı zaman onların tərəqqisi mümkün idimi?". Müəllif burada olduqca vacib bir məqama toxunurdu; o, hər cür yeniliyə "min əməli-şeytan" deyən kütlənin mənəvi səbatsızlığı ilə barışa bilmir və əslində xalqın zəmanəyə uyğun dirilik göstərməsini, oyaq və fəal olmasını istəyirdi. O, yenə müqayisələr aparır və yenə də avropalıları nümunə gətirirdi. Yazırdı ki, ingilislər təbii sərvətlərindən milyonlar qazandıqları Hindistanı tək bir nəfər adamlarına - Şekspirə dəyişməyə razı olmazlar, ingilislər onu bütün Hindistandan üstün tuturlar. Ü.Hacıbəyli fikirlərini inkişaf etdirərək dahiləri yetişdirən mühitin özünün münbit olmasının vacibliyini göstərirdi. Onun fikrincə, əks halda "... əgər Edison da bizim içimizdə doğulub belə şərait üzrə yaşasaydı, o da bu gün icad etdiyi xariqüladə makinalara şeytan əməli deyərdi". Mühit sindromuna işarə edən Ü.Hacıbəyli inanırdı ki, "... bu gün bizim içimizdə Edisonun ixtiralarına şeytan əməli deyən şəxslər Yevropada doğulmuş və bəslənmiş olsaydılar, onlar da Edison kimi cürbəcür ixtiraları ilə aləmi-insaniyyətə xidmət göstərə bilərdilər...".

Görkəmli publisist öz həmvətənlərinin də arasında Şekspirlərin (Ü.Hacıbəyli burada Şekspirə ingilis cəmiyyətinin münasibətini qabardır), edisonların olduğunu yazır: "... bizim millətimiz içində indi və ya gələcəkdə şekspirlər istedadında yaradılmış adamlar yox deyildir. Vardırlar və bədbəxtlik burasındadır ki, biz öz cəhalətimizlə o dahilərin zühuruna mane oluruq. Onlar üçün müsaid şərait hazırlamırıq ki, öz zühurları ilə həm bizi sairlər içində başıuca etsinlər, həm də insaniyyətə bir xidmət göstərsinlər". Ü.Hacıbəyli bu qənaətdə idi ki, şəxsiyyətin yetişib formalaşması üçün münbit mühit, həmin mühiti yaradan və zənginləşdirən siyasi cəhətdən yetkin cəmiyyət olmalıdır. Burada Ü.Hacıbəylinin mövqeyi M.F.Axundzadənin mövqeyi ilə üst-üstə düşür və hər ikisinin baxışları Qərbi Avropa filosoflarının düşüncələrinə yaxındır. M.F.Axundzadə sadə xalq içərisindən Yusif Sərracların yetişə biləcəyini yazır və eyni zamanda göstərirdi ki, əgər fəal kütlə, yetkin cəmiyyət yoxdursa, Yusif Sərraclara da yer yoxdur. M.F.Axundzadə bu qənaətdə idi ki, siyasi cəhətdən yetişmiş xalqın formalaşması üçün isə hər şeydən əvvəl düşüncə və təfəkkür sərbəstliyinə imkan yaradılmalıdır. Bu baxımdan o, ingilis filosofu Con Stüart Millə (1806-1873) yaxınlaşırdı. Ü.Hacıbəyli mövcud şəraiti qiymətləndirməklə kifayətlənmir, özünün və XX əsrin əvvəllərində bu problem ətrafında fəal diskussiya aparan müasirlərinin üzərinə düşən vəzifələrdən bəhs edərək yazırdı: "... indi bu iyirminci əsrdə vaxtdır ki, daha biz öz insanlığımıza diqqət yetirək. Özümüzün də sairlər kimi məharətlər göstərə biləcək insan olduğumuzu nəzərə alıb, bir kərə o qara pərdəni üstümüzdən ataq".

Şübhəsiz ki, ədib cəmiyyətdə hökm sürən zülmətin kökündə dayanan amillərə bələd idi. O, yaxşı bilirdi ki, yeniləşmə hərəkatının sərt müqavimətlə üzləşməsi təkcə dini fanatizm və konservativ düşüncə tərzi ilə bağlı deyildir. O, dərindən dərk edirdi ki, müstəmləkə şəraitində olan Azərbaycanın müasirləşmə yolunda ən böyük əngəllərdən biri də çarizmin yeritdiyi ayrı-seçkilik siyasətidir. Çarizmin ikrahdoğurucu məqsədli siyasətinin nəticəsi idi ki, ilk mətbuat orqanımız "Əkinçi" (1875-1877) cəmi iki il yaşamış, 1891-ci ildə "Kəşkül"ün bağlanmasından 1903-cü ilə - "Şərqi-Rus"un yaranmasına qədər 12 il müddətində Azərbaycan dilində qəzet-jurnal nəşrinə icazə verilməmişdir. Mərkəzi hökumət hər vəchlə azərbaycanlıların kütləvi təhsilinə mane olmuş, xüsusilə qadınların maariflənməsinin qətiyyətlə əleyhinə çıxmışdır. Milli mətbuatımızın banisi Həsən bəy Zərdabinin bioqrafiyasını hazırlamış Fərhad Ağazadə dövrün gerçəkliklərini ümumiləşdirərək yazırdı: "Kimin nə haqqı var idi ki, çar hökumətindən qəzetə icazəsi istəyə bilsin?.. Məktəb, qəzetə kimi onun xoşuna gəlməyən şeyləri ondan tələb etməməli. Çar hökuməti kütlənin savadlanmasını istəmir! Daha hökumətə nə üçün başağrısı verilsin?.. O zamanlarda Azərbaycan türklərinin cürəti ola bilməzdi ki, özlərinə türk, vətənlərinə də Azərbaycan adını desinlər…".

Mərkəzi hökumət bir yandan azərbaycanlıların mədəni təsisatlarının qarşısını alır, digər yandan da türk-müsəlman əhaliyə qarşı hər cür hədyanlara rəvac verirdi. Bu işdə ermənilər xüsusi canfəşanlıq göstərirdilər. Qafqaz Senzura Komitəsində (sonralar Tiflis Mətbuat İşləri Komitəsi) öz yerlərini bərkidən Karqanov, Qayıtmazov, Məlik-Mehrabov, Kişmişov, Qaraxanov kimi üzdəniraq ermənilər senzor kimi bir yandan əllərində olan imkanlardan istifadə edərək Azərbaycan mətbuat orqanlarını boğmağa çalışır, digər yandan da Tiflisdə fəaliyyət göstərən rus və erməni qəzetlərində türk-müsəlman ziyalıları "pantürkizm" və "panislamizm"də ittiham edir, onları tamamilə hökumətin gözündən salmağa çalışırdılar.

Tiflis Mətbuat İşləri Komitəsində çalışmış Mirzə Şərif Mirzəyev "Qafqazda türk mətbuatı tarixinə dair materiallar" adlı sənədli memuarında XX əsrin əvvəllərində Qafqaz Senzura Komitəsinin Azərbaycan mətbuatını boğmağı özünə vəzifə hesab etdiyini göstərərək havadarlarına arxalanan azğınlaşmış ermənilərin üzdəniraq daşnaksütyun partiyasının orqanına hər cür şərait yaratdıqlarını yazırdı: "O zaman Senzura Komitəsi olduqca qəddar tədbirlərlə türk mətbuatını öldürdükdə, türk mədəni cəmiyyətinin inkişafını ləngitdikdə komitənin üzvləri olan Kişmişov və Qaraxanov daşnaksütyun partiyasının mətbu orqanı olan "Araç"ın nüsxələrini dövriyyəyə buraxırdılar". M.Ş.Mirzəyevin yazdığına görə, ciddi və müstəqil türk mətbuatının yaradılmasının qarşısını ala bilmədiklərini hiss edən bu qaragüruh sürüsü başqa varianta əl atdı, onlar "yeni zərərli bir hiylə qurdular, səhnəyə "panislamizmi" atdılar". Bütün hadisələrin şahidi olan, prosesi diqqətlə izləyən M.Ş.Mirzəyev yazırdı: "Türk siyasi panislamizm doktrinası" Kişmişov və Qaraxanovun rəhbərliyi altında ən kobud formada düzəldilməyə başlandı. Qafqaz hakimiyyət dairələrində müəyyən təəssürat yaratmaq, ictimaiyyəti "xristian dünyasına hücum edən bütün vəhşi müsəlmanlar"ın təhlükəsindən qorumaq üçün Senzura Komitəsinin sevimli üzvləri gözlənilən siyasi təhlükə barədə qəzetlərdə yazılar dərc etdirməyə başladılar. Kişmişov "Qafqaz" (rusca çıxan "Kavkaz" - Ş.M. ) qəzetində "X"-"X" insialı, Qaraxanov isə "Tiflis vərəqələri"ndə (rusca çıxan "Tiflisskiy listok" - Ş.M.) "Xanzadə" təxəllüsü ilə çıxış edirdilər". Bütün bunlar azmış kimi, ermənilər və onların antitürk təbliğatına lakey xidməti göstərən muzdlu cızmaqaraçılar bəzi mətbuat orqanlarında azərbaycanlıların tarixi və mədəniyyətini şübhə altına alan başdan-başa tendensiyalı yazılar dərc etdirirdilər.

XX əsrin əvvəllərində fəaliyyət göstərən Azərbaycan mətbuat orqanlarına nəzər salmaq kifayətdir ki, fikir adamlarımızın onları düşündürən ən müxtəlif problemlərlə yanaşı, bu cür şər-böhtana və iftiralara da cavab vermək məcburiyyətində olduqlarını bütün aydınlığı ilə görəsən. Müasirləri kimi, Ü.Hacıbəyli də bu qəbildən olan yazılara, onların bədnam müəlliflərinə yerindəcə tutarlı cavablar verirdi. O bu cür üzdəniraq müəlliflərə cavablarında kifayət qədər təmkinli görünür, qarşı tərəfin layiq olduğu aşağılığı onun yalanlarını ifşa etməklə göstərirdi. Bu baxımdan "Bir xanım əfəndinin bizlərə hüsni-təvəccöhi" adlı yazısı onun publisistikasının ən dəyərli nümunələrindəndir. Ü.Hacıbəyli yazıda "Peterburqskiye vedomosti" qəzetində Qafqaz türklərinin əleyhinə məqalə dərc etdirən erməniperəst Maqda Neymanın gülünc iddialarını rədd edirdi. Bütün ədəb qaydalarını ayaqlar altına atan M.Neyman "bir qoca administrator"un dili ilə özünün daşıdığı və müdafiəçisi olduğu "mədəniyyət"in pəncərəsindən baxaraq türkün tarixinə iftira və palçıq atmağa, ictimaiyyəti çaşdırmağa çalışmaqla yanaşı, Qafqaz türkünün milli-mədəni tərəqqi yolunda əzmlə irəliləməsinə mane olmaq, yaxud ən azı onun üzərinə kölgə salmaq niyyəti güdürdü. Əxlaqı topuğundan aşağı olan Maqda içindəki kin-küdurəti qəzet səhifələrinə püfləyərək mədəniyyətin Qafqaz türklərinə bir təsiri olmayacağını iddia edir və iyrənc fantaziyasının imkan verdiyi qədər aşağılayıcı epitetlərə əl atırdı. Ü.Hacıbəylinin məntiqə və faktlara əsaslanan, tarixi və müasir gerçəklikləri əks etdirən yazısında M.Neymana və onun kimi düşünənlərə ünvanlanan kəskin bir ironiya vardır.

Üzeyir bəy də türkə yapışa bilməyən bu şər və böhtanlara ağayana istehza və rişxəndlə gülür, M.Neymanın ittihamlarını aram-aram rədd edirdi. O, yeni əsrdə türklərin mədəniyyət sahəsində ciddi çalışmalara əl atdıqlarını, fəqət bəlli şəxsiyyətlər və dairələrin bunun qarşısını almağa çalışdıqlarını yazırdı: "... işıq qapısı üzərimizə açılmaqdadır. Və biz türk tayfası əl-ələ verib, cümləmiz mədəniyyət və mərifət sarayına daxil olmağa amadəyik. Çifayda, bəzi fasid və məfsud şəxslər belə bir fürsətli həngamda bizlərə xələl yetirir, öz məsiyətli və qəbahətli qəsd və niyyətlərinə nail olmaq üçün biz ətşan tayfanın mədəniyyət bulağından su içməyimizə mane olurlar".

Ü.Hacıbəyli M.Neymanın ittihamlarını faktlarla rədd edə-edə ona bir tarix dərsi keçir və bu üzdəniraği qandırmağa çalışır ki, Qafqaz türkləri ilə bağlı onun oxuduqlarının bir çoxu cəfəngiyyatdır, yalan üzərində qurulub, özü bir yana, paytaxt qəzetini biabır edir: "Nə deyim! Haqq-taala mənə bir şairlik əta buyurmuş olsaydı, xanımın kəşfiyyatında belə bir məharətinə gözəl nəzmlərlə bir mədhnamə yazardım. Hörmətli xanım, kitab oxumaqla Qafqaz türklərinin hal və övzasından vüqufiyyəti-külli hasil etmək olmaz. Və oxuduğunuz cəfəngiyyatı dəstaviz edərək, belə əhəmm məsələlərdən mübahisə etməklə özünüz heç, darüssəltənətdə intişar olan "Peterburqskiye vedomosti" kimi bir böyük cəridəni bədnam edirsiniz".

Üzeyir bəy ardınca M.Neymanın özünü təkzib etdiyinə diqqət çəkirdi. M.Neyman iddia edir ki, guya Qafqaz türklərinin elm və mədəniyyət əxz etməyə qabiliyyətləri yoxdur, hər bir mədəniyyət və tərəqqinin düşmənidirlər, o biri yandan da deyir ki, onlar axır vaxtlar hökumətdən tələb edirlər ki, xristianlarla bərabər hüquqlara malik olsunlar, məktəblər açmaq haqqı alsınlar. Ü.Hacıbəyli M.Neymanın çaşqınlıqla dolu, biri digərini inkar edən "mülahizə"lərini çevirib onun öz üzünə çırpırdı: "Hərgah türklər elm və mərifətə zidd olsaydılar, məktəb açmaq istərdilərmi? Türklər "qırmızı dəri" vəhşilər tək olsaydılar, "haqq" ləfzini anlayardılarmı? Hüquqda müsavi olmağı tələb edərdilərmi? Heç nə... Görünür ki, xanımın qələm, mürəkkəb və kağızı müftə imiş".

Ü.Hacıbəyli M.Neymanın iddialarını təkzib etmək üçün türk dili, onun tarixi, lüğət tərkibi və tarixi, mədəni-mənəvi münasibətlər kontekstində türk dili ilə ərəb və fars dillərinin qarşılıqlı əlaqələrindən bəhs edir və Maqdanın dərdinin bizim dilin qeydinə qalmaq olmadığını, əksinə onun dilimizdən qorxduğunu yazır və bunun səbəbini ironik şəkildə ifadə edirdi: "Çünki ittihadi-islam vüquə gələr..." Böyük ədib ermənilərin ağzı ilə danışan M.Neymanın əsl məqsədi barədə açıq yazırdı: "İttihadi-islam" ləfzi dəxi gözübağlıcılıq hiyləsi ilə ortaya atılmış bimənə sözdür və bunu da xanım özü yaxşı bilir. Amma əksinə, yazmaqda məqsəd var". Ü.Hacıbəyli bu çirkin məqsədin mahiyyətini detallarına qədər açıqlayırdı. M.Neyman deyir ki, Qafqaz türklərinin "Zəhmətkeşliklə işləri yoxdur. Onların yerlərini əllərindən alıb rus mühacirlərinə və yainki Osmanlıdan qaçıb gələn ermənilərə verməliyik. Özlərini dəxi buraxmalı, o yol, o da onlar, qoy hara istəyirlər getsinlər. Və qalanlarının da əsləhəsini alıb, hüququnu təhdid edib, özlərini də hər halda (zinhar) sıxıb incitmək..." Göründüyü kimi, "pantürkizm", "panislamizm", "ittihadi-islam" kimi ittihamların arxasında böyük siyasi məqsədlər dayanırdı. Türk-müsəlman əhalinin tərəqqisinə mane olmaq bəlkə də bu siyasətin görünən tərəfi idi, amma aysberqin görünməyən tərəfləri də vardı: Qafqaz türklərini öz tarixi torpaqlarından sıxışdırıb çıxarmaq və onların yerinə erməniləri məskunlaşdırmaq. Son yüz ildə tarix bu bədnam siyasətin şahidi oldu. Yaşadığımız indiki tarixi günlər isə həmin iyrənc siyasətin tamamilə fiaskoya uğradığına şahidlik edir. Məqalənin sonunda Ü.Hacıbəyli türklərin "biinsaf və bimürvət və bivicdan mührirlər qələminin oynağı" olduqlarını yazmış və bunun çoxlu səbəblərindən birinə də işarə etmişdir: "Qafqaz iğtişaşatıdırmı?"

"Bir xanım əfəndinin bizlərə hüsni-təvəccöhi" məqaləsi bütövlükdə Ü.Hacıbəylinin publisistikasının ən dəyərli nümunələrindəndir, milli təəssübkeşlik məsələsində mövqeyinin sarsılmazlığının göstəricilərindəndir.

Ü.Hacıbəylinin zəngin irsində "İkinci il", "Zənbur" jurnalı", "Yeni məktəb", "Vətən dili", "Tənqid əvəzinə" əsərləri mühüm yer tutur. Ədibin həyat və yaradıcılığının mahir tədqiqatçısı Mirabbas Aslanov Üzeyir bəyin seçilmiş əsərlərini çapa hazırlayarkən adıçəkilən nümunələri haqlı olaraq resenziyalar kimi təqdim etmişdir. Həmin əsərlər Ü.Hacıbəylini həm də pedaqoji fikir tariximizin görkəmli nümayəndəsi kimi xarakterizə etməyə tamamilə imkan verir.

Ü.Hacıbəyli ictimai-mədəni fikir tariximizə publisistik sözün bənzərsiz yaradıcısı kimi daxil olmuşdur. O, həqiqətən sözün böyük ustası idi. Fikrinin hədəfə çatması üçün ən müxtəlif forma və üsullardan istifadə edir, mövzunun boyuna biçilən elə "qəlib"lər hazırlayırdı ki, məsələ hətta ən hazırlıqsız və sadə oxucu üçün belə bütün təfərrüatlarına qədər aydın olurdu. "Biz nə tövr iş görürük?", "Biz ilə yevropalıların təvafütü", "Biz qızışırıq" və sairə kimi publisistik əsərlərində cəmiyyətin psixologiyasını sanki bir rəssam fırçası ilə təqdim edirdi. Ü.Hacıbəyli müəyyən hallarda məqsədli şəkildə "açıq məktub" formasından istifadə edirdi. Bu tipli yazılarında onu müraciət ünvanladığı tərəflərin cavabları yox, məhz cəmiyyətin buna reaksiyası, məsələnin ictimailəşdirilməsi maraqlandırırdı. "Açıq məktub"lar onun üçün həm də cəmiyyət üzvlərini polemikaya çağırmaqda münasib bir forma idi. "Cavanşir uyezdində pristav Şəfi bəy Fətəlibəyova açıq məktub", "Qafqaz müsəlmanlarına açıq məktub" və sairə əsərləri ilə görkəmli ədib əslində bütövlükdə cəmiyyəti düşünməyə çağırırdı.

Ü.Hacıbəyli ədəbiyyat, mədəniyyət və mənəviyyat tariximizin təkrarsız simalarındandır. Müstəqil Azərbaycanın hər səhəri onun Dövlət himninə yazdığı möhtəşəm musiqi ilə açılır. Bu gün onu yüz il əvvəl görmək istədiyi Azərbaycan və azərbaycanlılar yaşadır.

***Şahbaz MUSAYEV,***
***filologiya elmləri doktoru***

# "Qarabağ"ın sağ əli millimizin başına

## Ağdam klubu qitənin ən nüfuzlu turnirində tarix yazdı

**UEFA Çempionlar Liqası**

**Liqa mərhələsi, 1-ci tur**
"Benfika" (Portuqaliya) - "Qarabağ" (Azərbaycan) - 2:3
**Qollar:** Barreneçea, 6 (1:0); Pavlidis, 16 (2:0); Leandro Andrade, 30 (2:1); Kamilo Duran, 49 (2:2), Aleksey Kaşuk, 87 (2:3)
**Hakimlər:** Erik Lambrexts, Co De Veird və Kevin Monteni (Belçika)
Lissabon. "Estadio da Luz"



O, futbol vasitəsilə Azərbaycan adının bütün dünyada çəkilməsində əvəzsiz rol oynayan mütəxəssis kimi qəlblərə həkk olunub. O, Azərbaycanın təkcə siyasi-demokratik, sosial-iqtisadi inkişafı ilə yox, idmanda da möcüzə yarada biləcək ölkə olduğunu əməldə sübuta yetirib. O, ən nəhayət, azərbaycanlıları əcnəbi futbolçulara yox, öz doğma komandalarına azarkeşlik etməyə, qələbələrindən ruhlandırmağa sövq edə bilib.

Təkcə bu xidmətlər futbol deyərkən ilk növbədə yada düşən "Qarabağ" və onun əzmkar baş məşqçisi Qurban Qurbanovun adının idman tariximizə böyük hərflərlə yazılmasına bəs edir...

Ağdamın "Qarabağ" klubu növbəti dəfə tarixi zəfərə imza atdı. Komandamız UEFA Çempionlar Liqasının əsas mərhələsinin ilk turunda Portuqaliyada "Benfika" üzərində möhtəşəm qələbə qazandı-3:2. Bu həm də ağdamlıların qitənin ən nüfuzlu klub turnirində ilk qələbəsi idi.

121 yaşlı "Benfika" Portuqaliya futbolunun 3 nəhəngindən ("Portu" və "Sportinq"lə birlikdə) biri, rekord sayda - 38 dəfə ölkə çempionu, 26 dəfə ölkə kubokunun, 8 dəfə liqa kubokunun, 10 dəfə ölkə superkubokunun sahibi, bu Pireney ölkəsinin ən nüfuzlu idman klublarından biri, böyük ənənələri olan, dünyanın istənilən komandası üçün ağır, çətin rəqibdi. Oyunlarını 68 minlik tamaşaçı tutumu olan məşhur "Estadio da Luj"da keçirir. Ciddi azarkeş dəstəyi var, tərəfdarları klubu çox sevir, ən pis vaxtlarında belə maddi və mənəvi dəstəklərini əsirgəmirlər. Bunun sayəsində "Benfika" Avropanın ən gəlirli klublarından biridir və maddi baxımdan problem yaşamır, istədiyi oyunçular üçün 30-35 milyonluq transfer haqları ödəməkdən çəkinmir. Komandanın ümumi bazar dəyəri 345 milyon avrodur.

"Qarabağ" "Benfika"ya göstərdiyi oyun üslubu, toplu və topsuz oyunlardakı üstünlüyü ilə hər şeyin meydanda həll olunduğunu növbəti dəfə təsdiqlədi. Xüsusilə xətlərarası məsafəni çox qısa tutaraq rəqibin mərkəzdə boş zona əldə etməsinə imkan vermədi. Belə olan halda isə qazanılan topları sürətli müdafiə arxasına ötürməklə təhlükəli epizodlar yaratmaq lazım idi ki, bunu bacardı.

Təbii ki, əzbər oyun planının komandaya aşılanmasında baş məşqçi kimi Qurban Qurbanovun uzun illər ərzində apardığı məqsədyönlü fəaliyyət strategiyası ön planda yer alır. Ən önəmli məqamlardan biri isə budur ki, məhz onun sayəsində "Qarabağ" təkcə futbol oynamadı, eyni zamanda getdiyi hər bir ölkədə Qarabağ həqiqətlərini dünyaya çatdırdı. İşğal altında olan şəhəri - Ağdamı təmsil etdiyini hamı bildi. Bu gün isə azad Ağdamı təmsil edərək yüz milyonların qarşısında nümayiş etdirdiyi oyunlarla mübariz komanda olduğunu, döyüşkənliyin hər bir azərbaycanlının ruhunda yer aldığını göstərdi. Bütün bu nailiyyətlərin əldə olunmasında isə Qurban Qurbanovun yaradıcı əzmkarlığı həlledici əhəmiyyətə malik olub.

"Qarabağ"ın sağ əli millimizin başına... Belə ki, bu günlərdə milli komandamız rüsvayçı nəticələrə görə portuqaliyalı çalışdırıcı Fernandu Santuşla yollarını ayırdı. Yenə səhv seçim, yenə əcnəbiyə ödənilən milyonlarla avro təzminat... Nə qədər gec deyil, ədalətli olmağı bacarmalıyıq. Milli komandamıza yerli mütəxəssisin təyinatı atılan ən düzgün addım olardı.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*


OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" *qəzetinə*

*2025-ci il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
№ 198 (9943) 17 sentyabr 2025-ci il ÇƏRŞƏNBƏ
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR
Siyasi əlaqələrin ən yüksək zirvəsi
Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Azərbaycana rəsmi səfər edib
Qalib Lider misli görünməyən layihələri reallaşdırır
2026-cı ilin dövlət və icmal büdcələri artımla proqnozlaşdırılır
Zəfər tarixinin quruculuq səhifəsi
Prezident İlham Əliyevin Qarabağa hər səfəri bir müjdədir
azerbaijan-news.az

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


BEYNƏLXALQ HƏYAT

# Fransa prezidentinin reytinqi rekord səviyyəyə enir

## *Fransua Olland:* "Lekornu Makronun siyasətini poza bilsə, işində qalacaq"

**Fransa prezidenti Emmanuel Makronun reytinqi sentyabrda tarixi minimuma düşüb. Buna Fransa İctimai Rəy İnstitutunun (IFOP) "Le Journal du Dimanche" (JDD) qəzetində dərc etdiyi sorğunun nəticələri dəlalət edir.**



İnstitut qeyd edir ki, respondentlərin yalnız 19 faizi Fransa liderinin fəaliyyətindən razıdır ki, bu da avqust ayı ilə müqayisədə 5 faiz bəndi azdır və "sorğu tarixində ən aşağı göstəricidir".

Respondentlərin ən azı 81 faizi Makronun fəaliyyətindən narazı olduqlarını qeyd edib, onlardan 50 faizi çox məyus olduğunu, 31 faizi isə məyus olduğunu bildirib. Narazılığın ən çox artması kiçik ticarət və sahibkarlar (+20 faiz bəndi, 80 faizə qədər) və 65 yaşdan yuxarı vətəndaşlar (+10 faiz bəndi, 79 faizə qədər) arasında qeydə alınıb.

Sentyabrın 8-də Fransanın baş naziri Fransua Bayru Milli Assambleyanın deputatlarının (parlamentin aşağı palatası) öz hökumətinə etimad məsələsi üzrə səsverməsindən əvvəl, ilk növbədə dövlət borcunun sürətli artımı ilə əlaqədar ölkə iqtisadiyyatında yaranmış böhranlı vəziyyətə işarə edib. Müxalifət nümayəndələri bu vəziyyətə Makronun və ardıcıl hökumətlərin apardığı siyasətin səbəb olduğunu bildiriblər. Deputatların əksəriyyəti son nəticədə hökumətə etimadın əleyhinə səs verib. Sentyabrın 9-da silahlı qüvvələr naziri Sebastien Lekornu Fransanın yeni baş naziri təyin edilib.

Bu arada Fransanın keçmiş prezidenti Fransua Olland "Le Figaro" qəzetinə müsahibəsində bildirib ki, Fransanın yeni baş naziri Sebastien Lekornu yalnız Makronun siyasətini pozarsa, postunu saxlayacaq. Əks halda ya baş nazir istefa verəcək, ya da Milli Assambleya buraxılacaq ki, bu da hakimiyyət böhranını daha da dərinləşdirəcək.

Ollandın dediyinə görə, Emmanuel Makron bütün sələflərindən fərqli olaraq, siyasi partiyalara, koordinasiya mexanizmlərinə, parlament həyatının nə olduğuna, vətəndaşların hisslərinə hörmət göstərməyib. Onun təcrübəsizliyi, heç vaxt yerli orqanlara seçilməməsi, böyük partiyaya rəhbərlik etməməsi, respublika prezidenti olana qədər özünün siyasi sınaqlardan keçməməsi - şübhəsiz ki, bütün bunlar öz rolunu oynadı...

Son günlər Sebastien Lekornu siyasi partiya liderlərinə zəng etmək və həmkarlar ittifaqı liderləri ilə görüşmək də daxil olmaqla, ümidverici siqnallar göndərib. Bununla belə, əsas sual qalır: o, mövcud siyasəti pozmağa və xüsusilə Sosialist Partiyasının irəli sürdüyü şərtlər əsasında kompromis axtarmağa hazırdırmı? Sosialistlər fraksiyası həm Milli Assambleyadakı sayına, həm də son aylarda nümayiş etdirdiyi məsuliyyətli yanaşmasına görə parlamentin bu sessiyasının davam etdirilməsi üçün açardır. Onun rolu ilin sonuna qədər büdcənin qəbul edilməsində həlledici olacaq və sosialistləri bu vəziyyətdə əsas danışıqlar aparan tərəfə çevirəcək.

Sabiq prezident yaranmış vəziyyətlə bağlı deyib: "Əgər Sebastien Lekornu kompromis əldə edə bilməsə, parlamenti buraxmaqdan başqa çarə görmürəm".

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*




# Unudulmaz Bakı



**Dünyada avtomobil həvəskarlarının əsas bayramı hesab edilən "Formula-1" Azərbaycan Qran-prisinə ölkəmizin evsahibliyi etməsinin qürur və sevincini yaşamaqdayıq. Belə bir möhtəşəm yarışın sayca 9-cu dəfə Azərbaycanda keçirilməsi dünyaya növbəti dəfə azərbaycanlıların mehribanlığı, qonaqpərvərliyi, qədim tarixi, füsunkar təbiəti, mentaliteti, sürətlə inkişaf edən müasir ölkə ilə tanışlıq fürsəti verir.**

## Azərbaycan Qran-prisi möhtəşəm məqamlarla yadda qalacaq

Çoxlu sayda siyasi, mədəni, idman və digər tədbirlərin ən mötəbər ünvanına çevrilən respublikamız növbəti beynəlxalq tədbirə də layiqincə evsahibliyi etməklə dünyanın diqqətini Bakıya cəlb edəcək. "Formula-1" Azərbaycan Qran-prisi ilə bağlı Bakıya gələn hər kəs Azərbaycanın inkişafını, xalqımızın qonaqpərvərliyini, zəngin mədəniyyətini öz gözləri ilə görəcək. Bütövlükdə bu mötəbər tədbir Azərbaycanı növbəti dəfə beynəlxalq aləmə daha yaxından tanıdacaq.

Hər kəs Azərbaycanda keçirilən sürət yarışına hazırlıq işlərinin çox yüksək səviyyədə aparıldığının şahidinə çevrilib. Bunu yarışın hazırlıq prosesinə nəzər yetirdikdə aydın görmək mümkündür. İlk növbədə Azneft dairəsindən Dəniz vağzalına kimi qurulan bütün əyləncə zonaları, "F-1" şəhərciyi bütün bilet sahiblərinin üzünə qapılarını açır. Tamaşaçılar onlar üçün qurulmuş möhtəşəm əyləncə məkanlarından istifadə edə biləcəklər.

Ümumiyyətlə, bu tədbirlər hər kəs üçün inanılmaz dərəcədə maraqlı və unudulmayacaq məqamlarla yadda qalır. Üçgünlük tribuna biletlərinin sahibləri günorta saatlarında Pitleyn yürüşü edərək, "Formula-1" həyatını daha yaxından izləmək şansına malik olurlar. Tamaşaçılar komandaların qarajlarında dünyanın ən innovativ yarış avtomobillərinin mühəndis və mexaniklər tərəfindən necə sazlanması prosesini yaxından izləmək imkanını əldə edirlər. Bakı bulvarının əsas səhnəsində sürətsevərlər öz qəhrəmanları - dünyaca tanınmış pilotlarla avtoqraf sessiyalarında görüşəcəklər. Bu isə azarkeşlər üçün əsl hədiyyə olacaq. "Formula-1"in Azərbaycan nümunəsi yüksək səviyyədə hazırlıqlı, qonaqpərvərliklə dünyanı heyran edərək, paytaxtımızda yarışan ən məşhur pilotların qəlbində dostluq, anlaşma, sevgi məşəli yandırıb.



Beləliklə, ölkəmizə gələn turistlər, dünyanın aparıcı pilotları, avtomobil mütəxəssisləri Azərbaycanla daha yaxından tanış olur, ölkəmizin inkişafını gözləri ilə görürlər.

Azərbaycan bu yarışa da yüksək səviyyədə evsahibliyi etməklə bir daha sübut edəcək ki, beynəlxalq tədbirlərin keçirilməsi üçün əsas ünvanlardan biridir.

*E.CƏFƏROV,*
*"Azərbaycan"*

# NATO-nun maliyyələşdirdiyi ilk hərbi təchizat Ukraynaya gedir

**ABŞ-dən alınan və NATO ölkələri tərəfindən maliyyələşdirilən ilk hərbi ləvazimatlar artıq Ukraynaya çatdırılır. Bu barədə "Reuters" öz mənbələrinə istinadən xəbər verir.**



Bildirilir ki, "Ukrayna üçün müttəfiqlərlə yeni maliyyə sazişi əsasında alınmış ABŞ hərbi texnikasının ilk göndərişləri artıq gəlir".

Qeyd olunur ki, bunlar NATO ölkələri ilə ABŞ arasında Kiyevə yardımla bağlı razılaşmaya uyğun olaraq dörd yardım paketindən ibarətdir.

Sentyabrın 16-da Amerika lideri Donald Tramp administrasiyasının Ukraynaya Avropa tərəfindən maliyyələşdirilən ilk hərbi yardım paketini təsdiqlədiyi bildirilib.

İyulun 24-də ABŞ Prezidenti bəyan edib ki, Vaşinqton və Aİ Avropa ölkələri bütün hərbi texnikanın dəyərini 100 faiz ödəyəcəkləri barədə razılığa gəliblər. Aİ silahları alacaq və sonra paylayacaq. Tramp silahların böyük hissəsinin Ukraynaya gedəcəyini vurğulayıb.

Xatırladaq ki, bundan əvvəl Tramp Avropanın Ukraynadakı münaqişəni həll etmək istəyini bəyan edib.

*R.CƏFƏROV,*
*"Azərbaycan"*

## Hava əsasən yağmursuz keçəcək, bəzi rayonlarda yağış yağacaq

Sentyabrın 18-nə gözlənilən hava şəraiti açıqlanıb.

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, sabah Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim cənub-şərq küləyi əsəcək. Havanın temperaturu gecə 17-19, gündüz 21-26 dərəcə isti olacaq. Atmosfer təzyiqi 764 millimetr civə sütunundan 758 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 70-75, gündüz 50-55 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə sulu qara keçəcəyi ehtimalı var. Gündüz əksər rayonlarda yağıntıda qısa müddətə fasilə olacaq. Gecə və səhər bəzi yerlərdə duman müşahidə ediləcək. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 15-19, gündüz 19-24, dağlarda gecə 2-6, gündüz 7-11 dərəcə isti olacaq.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 4147
Sifariş 1892

Qiyməti 60 qəpik